RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 105 (9850) 22 may 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycanın Türk Dövlətləri Təşkilatında strateji mövqeyi möhkəmlənir



Azərbaycan Prezidenti İlham Əliyev Macarıstana işgüzar səfəri çərçivəsində mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak və çıxış edib.

Həmin gün Budapeştdə Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanın adından Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının şərəfinə rəsmi lanç verilib.

Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri mayın 21-də başa çatıb.

2-4

**Macarıstanın Baş naziri Viktor Orban:**

"Mən Prezident Əliyevə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Çünki ötən il Azərbaycandan Macarıstana ilk qaz nəql edilmişdir. Bu, əvvəllər heç vaxt baş verməmişdir, ilk dəfə idi ki, bu, baş verirdi. Cənab Prezidenti əmin edirəm ki, biz gələcəkdə bunun qarşılığını verə bilərik".

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan:**

"Dünyamız üçün strateji əhəmiyyətə malik Qafqaz bölgəsində yaşanan prosesləri diqqətlə izləyirik. Can Azərbaycanın Ermənistan ilə sülh müqaviləsi üzrə razılıq əldə etməsindən məmnunuq. İki ölkə arasında davamlı sülh əldə olunacağı təqdirdə, bu vəziyyət heç şübhəsiz ki, türk dünyamız üçün bir çox fürsətlər yaradacaq. Bu baxımdan Müzəffər Prezident, əziz Qardaşım İlham Əliyevin bölgəyə sülhü gətirəcək Lider olaraq adını tarixə yazdıracağına əminəm".

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev:**

"Hazırkı vəziyyətdə enerji sektorunda əməkdaşlığa diqqət yetirmək vacibdir. Neft, qaz və uranın təchizat zəncirini şaxələndirmək üçün təşkilatın potensialından istifadə etməyə ehtiyacımız var. Bununla əlaqədar, Qazaxıstandan Avropaya qaz ixracını artırmaq təşəbbüsünü dəstəklədiyinə görə mən Azərbaycan Prezidenti zati-aliləri İlham Əliyevə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istərdim".

## Tarixi köklərə əsaslanan strateji tərəfdaşlıq

Prezident İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban arasında olan səmimi dostluq münasibətləri əzəldən var olan Macarıstan-Azərbaycan əlaqələrini daha da dərinləşdirib, sarsılmaz edib. Hər iki ölkənin rəhbərlərinin şəxsi səyləri ilə bu gün Azərbaycanla Macarıstan istər siyasi, iqtisadi, istərsə də digər sahələrdə eyni mövqedə dayanaraq dünyanın yeni çağırışlarına adekvat reaksiya verirlər. Ən ümdəsi isə iki qardaş ölkənin hər zaman bir-birlərinin yanında olması, bir-birilərinə dayaq-dəstək vermələridir.



"Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə - diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub", - deyə Macarıstanın Baş naziri Viktor Orbanın Budapeştdə Prezident İlham Əliyevlə birgə mətbuata bəyanatı zamanı dediyi kimi.

Azərbaycan və Macarıstan arasındakı diplomatik əlaqələr ölkəmizin yenidən müstəqilliyini bəyan etməsindən cəmi 1 il sonra - 27 aprel 1992-ci ildə qurulub. 2009-cu ildə Macarıstanın Azərbaycandakı, 2004-cü ildə isə Azərbaycanın Macarıstandakı səfirliyi açılıb. Ötən müddətdə iki ölkə arasında həm diplomatik, həm də digər sahələrdəki əlaqələr yüksək səviyyədə inkişaf edib. 2014-cü ildə imzalanmış Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm rol oynayıb.

9

## Azərbaycanın dostu və tərəfdaşı



Azərbaycan və yəhudi xalqları arasındakı dostluq və qardaşlıq əlaqələrinin tarixi qədimdir. Yəhudilər Azərbaycanda əsrlər boyu əmin-amanlıq şəraitində yaşamış, digər azsaylı millətlər kimi heç bir ayrı-seçkiliyə və diskriminasiyaya məruz qalmamışlar. Ölkəmizdə yəhudilərə həmişə yaxşı münasibət bəslənilmiş və burada heç zaman antisemitizm halları olmamışdır. Azərbaycan ərazisində yaşayan yəhudilər də vaxtilə ermənilər tərəfindən soyqırımına məruz qalmışlar. Bu mənada Azərbaycan və İsrail arasında qarşılıqlı dostluq yalnız siyasi-iqtisadi əməkdaşlığa deyil, həm də tarixi köklərə əsaslanır. Hər iki ölkəni yaxınlaşdıran daha bir amil isə Azərbaycanda yəhudi diasporunun və İsraildə Azərbaycandan getmiş on minlərlə yəhudinin yaşamasıdır. Buna görə də Azərbaycan-İsrail dostluğunu təkcə siyasi və iqtisadi amillərlə səciyyələndirmək düzgün deyil.

Prezident İlham Əliyevin İsrail Dövlətinin milli bayramı - Müstəqillik Günü münasibətilə bu ölkənin Prezidenti İsxak Hersoqa ünvanladığı təbrik məktubunda deyilir: "Azərbaycan ilə İsrail arasında mövcud olan dostluq əlaqələrinin və əməkdaşlığın yüksək səviyyəsi xalqlarımızın tarixi bağlılığının, bir-birinə bəslədiyi hörmətin və rəğbətin bariz ifadəsidir. Qarşılıqlı etimad və dəstək kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-İsrail dövlətlərarası münasibətlərinin dinamik və hərtərəfli inkişaf etməsi məmnunluq doğurur".

10

## Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans keçirilib

Tədbirin açılışında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. O, Türkiyədə belə bir tədbirin keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edərək, konfransın işinə uğurlar arzulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, TBMM-in üzvü Efkan Ala Qərbi Azərbaycanla bağlı Türkiyədə ilk belə konfransın keçirilməsinin tarixi əhəmiyyətindən danışıb.

Konfrans işini panel müzakirələrlə davam etdirib.

Qərbi Azərbaycanın tarixindən bəhs edən birinci panel türkiyəli tarixçi, Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin Tarix İnstitutunun direktoru Prof. Dr. Kamal Çiçəyin moderatorluğu ilə baş tutub. Paneldə tanınmış tarixçi professorlar İlbər Ortaylı, Aygün Attar, Tufan Gündüz, Okan Yeşilot və İbrahim Ethem Atnur çıxış ediblər.

TBMM-in Qadınlar və kişilər arasında imkan bərabərliyi komissiyasının sədri Çiğdem Erdoğanın moderatorluğu ilə keçirilən "Qərbi Azərbaycan: hüquqi və humanitar aspektlər" mövzusunda ikinci paneldə TBMM-in komissiya sədrləri Vedat Bilgin və Derya Yanık, TBMM-in üzvü Zeynep Yıldız, professorlar Cavid Abdullazadə, Yaşar Sarı və Muharrem Kılıç çıxış ediblər.

6

## Ədalət təmin olundu




Terror hadisəsi baş verəndən dərhal sonra Prezident İlham Əliyev səfirliyin fəaliyyətinin dayandırılması və diplomatlarımızın geri çağırılması ilə bağlı tapşırıq verdi. Səfirliyimizin təxliyə edilmiş əməkdaşları və onların ailə üzvləri qısa müddətdə Bakıya gətirildilər. Şəhid Orxan Əsgərov yanvarın 30-da İkinci Şəhidlər xiyabanında dəfn edildi. Prezident İlham Əliyevin sərəncamı ilə terror aktının qarşısının alınması zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə Vasif Tağıyev 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olundu. Orxan Əsgərov (ölümündən sonra) və Mahir İmanov isə "Vətən uğrunda" medalına layiq görüldülər.

Qeyd edək ki, səfirliyimizə qarşı xain hücum dünya ölkələrinin və beynəlxalq təşkilatların rəsmiləri, xarici işlər nazirləri, səfirlər, XİN təmsilçiləri, siyasətçilər və jurnalistlər tərəfindən qətiyyətlə pislənmiş və qəbuledilməz hesab olunmuşdu. Bəyanat, açıqlama və paylaşımlarda terror hadisəsinin tam araşdırılması və təqsirkarların cəzalandırılması tələbi ifadə edilmişdi. Əlbəttə ki, Azərbaycan dövlətinin tələbi terror hadisəsinin obyektiv şəkildə araşdırılması, terrorçunun və təşkilatçıların layiqli cəza alması idi.

8

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri

# Azərbaycanın Türk Dövlətləri Təşkilatında strateji mövqeyi möhkəmlənir

## Budapeştdə Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib

**Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.**









AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Macarıstanın Baş naziri **Viktor Orban** dövlətimizin başçısını qarşıladı.

Əvvəlcə birgə foto çəkdirildi.

Sonra Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü işə başladı.

Macarıstanın Baş naziri Viktor Orban bu Zirvə görüşünün əhəmiyyətinə toxundu. O, Azərbaycan-Macarıstan münasibətlərinin strateji səviyyədə olmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq dedi: "Mən Prezident Əliyevə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Çünki ötən il Azərbaycandan Macarıstana ilk qaz nəql edilmişdir. Bu, əvvəllər heç vaxt baş verməmişdir, ilk dəfə idi ki, bu, baş verirdi. Cənab Prezidenti əmin edirəm ki, biz gələcəkdə bunun qarşılığını verə bilərik.

Macarıstanın böyük enerji şirkətlərinə Azərbaycanda neft və qaz sahəsində işləməyə imkan yaratdığına görə də Prezident Əliyevə təşəkkür etmək istəyirəm. Özümüzə məxsus enerji ehtiyatlarımız olmadığı üçün bu, bizim üçün yeni imkanlar açdı. Azərbaycan-Macarıstan münasibətlərinin strateji səviyyədə olması bizim üçün mühüm əhəmiyyət kəsb edir".

Qırğız Respublikasının Prezidenti **Sadır Japarov** çıxışında tədbirin yüksək səviyyədə təşkilinə görə Macarıstan tərəfinə minnətdarlığını ifadə etdi.

Qırğız Respublikasının Macarıstanın Türk Dövlətləri Təşkilatına töhfələrini yüksək qiymətləndirdiyini vurğulayan Sadır Japarov bildirdi: "Biz keçən il rəsmi şəkildə təsis olunmuş Türk İnvestisiya Fondunun tezliklə layihə fəaliyyətlərinə başlayacağını gözləyirik və bu, irəliyə atılmış mühüm addımdır. Bu fond ticarət, logistika, infrastruktur, rəqəmsal iqtisadiyyat, energetika, sənaye, turizm və sahibkarlıq kimi milli prioritetlərin dəstəklənməsi üçün mühüm mexanizm kimi xidmət edəcək. Müsbət təcrübənin əyani nümunəsi olaraq mən Qırğızıstanda fəaliyyət göstərən Qırğız-Azərbaycan, Qırğız-Özbək və Qırğız-Macar inkişaf fondlarının uğurlu nəticələrini məmnunluqla qeyd edə bilərəm".

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Baş nazir.

Hörmətli dövlət başçıları.

İlk növbədə qonaqpərvərliyə görə Baş nazir Viktor Orbana təşəkkürümü bildirirəm.

Azərbaycan ilə Macarıstan arasında əlaqələrin inkişafı məmnunluq doğurur. Bu, mənim Macarıstana 6-cı səfərimdir. Cənab Orban isə Azərbaycana 7 dəfə səfər etmişdir. Macarıstan Azərbaycanın etibarlı strateji tərəfdaşıdır.

Macarıstan müstəqil siyasət aparan ölkədir və beynəlxalq nüfuzu daim artmaqdadır. Əldə edilmiş bütün uğurlar münasibətilə Baş nazir Viktor Orbanı təbrik edirəm.

Türk Dövlətləri Təşkilatının dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir. Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir.

Prezident Sadır Japarovu Qırğızıstanın hazırda təşkilata uğurlu sədrliyinə görə təbrik edirəm.

Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə evsahibliyi edəcək. Sizi Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana dəvət edirəm.

Azərbaycan ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bu il Türk İnvestisiya Fondunun rəsmi olaraq fəaliyyətə başlaması nəzərdə tutulur.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə açıq dənizlərə çıxışı olmasa da Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir.

Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil etmişdir.

Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq. Orta dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılmışdır.

Ardı 3-cü səh.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri

# Azərbaycanın Türk Dövlətləri Təşkilatında strateji mövqeyi möhkəmlənir

## Budapeştdə Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib

*Əvvəli 2-ci səh.*





Orta dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm veririk. Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işlər davam etdirilir.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir.

Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq.

Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, təxminən 200 ölkənin yekdil qərarı ilə 2024-cü ilin noyabr ayında Azərbaycanda COP29 kimi mötəbər konfrans keçirilmişdir. Hazırlıq üçün cəmi 11 ay vaxt olmasına baxmayaraq, COP29-u yüksək səviyyədə təşkil etməyə nail olduq.

Qeydiyyatdan keçmiş 77 min iştirakçı 197 ölkəni təmsil edirdi. Konfransda 70 dövlət və hökumət başçısı iştirak etmişdir.

Azərbaycan COP29-da Qlobal Cənubla Qlobal Şimal arasında körpü qurmağa müvəffəq oldu. Bakıda qlobal iqlim gündəliyi ilə bağlı ciddi qərarlar qəbul edildi.

Əsas nailiyyət inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılmasını nəzərdə tutan yeni maliyyə hədəfi barədə razılaşmadır. Bundan başqa, 10 il ərzində razılıq əldə edilməsi mümkün olmayan karbon bazarlarının tənzimlənməsi barədə konsensusa nail olundu, İtki və Zərər Fondu işlək vəziyyətə gətirildi.

COP29 böyük uğurlara imza atmış və tarixə "Bakı sıçrayışı" kimi daxil olmuşdur.

COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi imzalanmışdır. Bu saziş ölkələrimizdə istehsal edilən "yaşıl enerji"nin Xəzər-Qara dəniz marşrutu ilə dünya bazarlarına ixracı üçün geniş imkanlar yaradır.

Çıxışımın sonunda Macarıstanı qeyri-rəsmi Zirvə görüşünün uğurlu təşkilinə görə təbrik edir, Türk Dövlətləri Təşkilatının fəaliyyətinə uğurlar arzulayıram.

Sağ olun.

❖❖❖



Daha sonra çıxış edən Qazaxıstan Respublikasının Prezidenti **Kasım-Jomart Tokayev** diqqətə çatdırdı ki, belə Zirvə görüşləri çağırışlarla bağlı addımların atılması üçün mühüm əhəmiyyətə malikdir.

Hazırkı mürəkkəb geosiyasi vəziyyətdə təşkilat daxilində əməkdaşlığın əhəmiyyətinin nəzərəçarpacaq dərəcədə artdığını vurğulayan Qazaxıstan Prezidenti qeyd etdi: "Bütövlüyümüzü gücləndirmək üçün türk xalqlarının birliyini və həmrəyliyini möhkəmləndirmək vacibdir. Qazaxıstan bununla bağlı bir sıra tədbirlər görüb, xüsusilə Naxçıvan Sazişinə düzəlişlərə dair protokolu ratifikasiya edib, Türk Dövlətləri Təşkilatına daimi nümayəndəsini təyin edib. Biz yaxın gələcəkdə daimi nümayəndəliyi açmağı planlaşdırırıq. Hazırkı vəziyyətdə enerji sektorunda əməkdaşlığa diqqət yetirmək vacibdir. Neft, qaz və uranın təchizat zəncirini şaxələndirmək üçün təşkilatın potensialından istifadə etməyə ehtiyacımız var. Bununla əlaqədar, Qazaxıstandan Avropaya qaz ixracını artırmaq təşəbbüsünü dəstəklədiyinə görə mən Azərbaycan Prezidenti zati-aliləri İlham Əliyevə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istərdim. Səylərimizin Türkiyə və Macarıstan tərəfindən alqışlanmasını və dəstəklənməsini yüksək qiymətləndiririk. Bundan əlavə, rəqəmsallaşma və informasiya texnologiyaları sahələrində əməkdaşlığın perspektivləri olduqca ümidvericidir. Bu il Qazaxıstan və Azərbaycan Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsinə dair mühüm birgə layihəyə start verdilər. Bu layihə dövlətlərimiz arasında rəqəmsal bağlantını əhəmiyyətli dərəcədə genişləndirəcək və regional inteqrasiyanın gücləndirilməsinə xidmət edəcək. Bu cür təşəbbüslər məlumatların təhlükəsiz mübadiləsinə imkan verməklə Avrasiyada yeni rəqəmsal dəhlizin yaradılmasına yol açır".

Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğan** isə Cənubi Qafqazda sabitliyin təmin olunmasında Azərbaycanın rolunu xüsusi vurğulayaraq dedi: "Dünyamız üçün strateji əhəmiyyətə malik Qafqaz bölgəsində yaşanan prosesləri diqqətlə izləyirik. Can Azərbaycanın Ermənistan ilə sülh müqaviləsi üzrə razılıq əldə etməsindən məmnunuq. İki ölkə arasında davamlı sülh əldə olunacağı təqdirdə, bu vəziyyət heç şübhəsiz ki, Türk dünyamız üçün bir çox fürsətlər yaradacaq. Bu baxımdan Müzəffər Prezident, əziz Qardaşım İlham Əliyevin bölgəyə sülhü gətirəcək Lider olaraq adını tarixə yazdıracağına əminəm".

Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** də Zirvə görüşündə çıxış edərək bildirdi: "Məlum olduğu kimi, ötən il biz türk dövlətləri arasında strateji tərəfdaşlıq, əbədi dostluq və qardaşlıqla bağlı razılaşmanın işlənib hazırlanmasını təklif etdik. Bu gün bu sənədin əhəmiyyəti və aktuallığı daha da artır. Şübhəsiz ki, bu razılaşma xalqlarımızı bir-birinə yaxınlaşdırmağa töhfə verəcək və bizim çoxşaxəli əməkdaşlığımız üçün uzunmüddətli hüquqi bünövrə rolunu oynayacaq. Mən bu sənədin qarşıdan gələn Bakı Sammitində imzalanmasını təklif edirəm. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY dövlətlərimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafında xüsusi yerə malikdir. Hesab edirəm ki, bu sahədəki səylərimizi yeni səviyyəyə qaldırmaq və TÜRKSOY-un nüfuzunu daha da artırmaq üçün onun fəaliyyətini və strukturunu müasir tələblərə uyğun şəkildə təkmilləşdirmək lazımdır. Hesab edirəm ki, bununla əlaqədar xarici işlər və mədəniyyət nazirlərimizə buna dair təklifləri Bakı Sammiti üçün hazırlamaqla bağlı tapşırıq vermək məqsədəuyğun olar.

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** isə təşkilata üzv ölkələr arasında əməkdaşlığın inkişafından danışaraq dedi: "2025-ci ildə Bakıda gömrük orqanları rəhbərlərinin toplantısında "eTIR" sisteminin tətbiqinə və sadələşdirilmiş gömrük dəhlizi sazişlərinin texniki müddəalarına dair fəaliyyət planı qəbul edildi. Kosmik sektorda əməkdaşlığımız inkişaf edir. Bakıda keçirilmiş 4-cü görüşdə üzv ölkələr "CubeSat" layihəsini 2025-ci ilin sentyabrınadək tamamlamaqla bağlı razılığa gəldilər. Ümidvaram ki, bizim birgə peykimiz bu ilin sonunadək orbitə buraxılacaq.

Eyni zamanda Türk kimliyi layihəsinə başlanılır. Bu, vətəndaşlara öz milli şəxsiyyət vəsiqələri ilə üzv ölkələrə səfər etməyə imkan verəcək. Türkiyə və Azərbaycan bu layihəni həyata keçirib. İndi biz bunu Mərkəzi Asiya regionunda tətbiq etməliyik. Həmçinin Şuşa Sammitində və TDT Katibliyinin büdcə və heyətinin artırılmasına dair işçi qrupun təklifi Bişkekdəki 11-ci Sammitdə razılaşdırılmışdır. Bu təklif üzv ölkələrin qarşıya qoyduqları vəzifələrin çoxalması ilə əlaqədar gələcək illərdə büdcənin əhəmiyyətli dərəcədə artırılması ilə bağlıdır. Bu təkliflərə əsaslanaraq dövlət başçılarına müvafiq tapşırıqlar verilib və bunlar da bu gün qəbul olunacaq Budapeşt Bəyannaməsində öz əksini tapacaq".

❖❖❖

Sonra Zirvə görüşündə sənədlər imzalandı.

## Prezident İlham Əliyev Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimində iştirak edib

Mayın 21-də Budapeştdə Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.







◆ Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri

# Azərbaycanın Türk Dövlətləri Təşkilatında strateji mövqeyi möhkəmlənir

## Budapeştdə Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının şərəfinə rəsmi lanç verilib



Mayın 21-də Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanın adından Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının şərəfinə rəsmi lanç verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Prezident İlham Əliyevin Macarıstana işgüzar səfəri başa çatıb





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri mayın 21-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.

## Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb




**Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev tərəfindən imzalanmış Bəyannamə 71 bənddən ibarətdir.

Türk xalqlarının tarix boyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni və siyasi cəhətdən formalaşmasında davamlı irsini, türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi və sosial tərəqqiyə, o cümlədən regional və qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə mühüm rolunu vurğulayan dövlət başçıları TDT-nin təşkilatın institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər.

Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər "Türk Dünyası Xartiyası"nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar.

Qırğız Respublikasının sədrliyinin və Macarıstanın TDT-yə üzv dövlətlər arasında çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsinə olan əzminin yüksək qiymətləndirildiyi Bəyannamədə müşahidəçi ölkə Macarıstan tərəfindən ilk dəfə keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşünə verilən böyük dəyər xüsusi vurğulanır.

Tərəflər türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək, bütün sahələrdə həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmində olduqlarını bildirir, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində təşkilatın işinə dəyərli töhfələrini alqışlayırlar. Eyni zamanda Kipr məsələsinin danışıqlar yolu ilə, qarşılıqlı məqbul və həyat qabiliyyətli həllinə nail olunmasının zəruriliyi qeyd edilir.

Üzv dövlətlərin birliyini və həmrəyliyini pozmağa yönəlmiş hər hansı hərəkət və təhdidlərin qarşısının alınmasının vacibliyi diqqətə çatdırılır.

Təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləyirlər. Bu kontekstdə Suriyanın ərazi bütövlüyü və birliyi əsasında təhlükəsizliyin və sabitliyin bərqərar olması, ona qarşı sanksiyaların aradan qaldırılması istiqamətində Türkiyənin konstruktiv rolu yüksək qiymətləndirilir.

Qəzzadakı fəlakətli humanitar vəziyyətdən dərin narahatlıq ifadə olunur, daimi və hərtərəfli atəşkəs, girovların, məhbusların azad edilməsi və Qəzzaya humanitar yardımların maneəsiz çatdırılması istiqamətində danışıqlara dəstək bir daha təsdiqlənir. İsrail-Fələstin münaqişəsinin BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq ikidövlətli həlli variantının zəruriliyi qeyd edilir. Həmçinin Əfqanıstanla bağlı məsələlər üzrə TDT-nin İşçi Qrupunun yaradılması təqdir olunur.

TDT çərçivəsində müdafiə sənayesi sahəsində məhsuldar çoxtərəfli əməkdaşlığı genişləndirmək niyyəti bir daha bəyan olunur və üzv dövlətlərin müvafiq orqanlarına bu məqsədlə səylərini sürətləndirmək tapşırılır.

İrqçiliyin, ayrı-seçkiliyin, ksenofobiyanın, islama qarşı nifrətin, nifrət nitqinin və dezinformasiyanın bütün formaları ilə mübarizədə əməkdaşlığın davam etdirilməsi məqsədilə beynəlxalq platformalarda səylərin əlaqələndirilməsi öhdəliyi xatırladılır.

Qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviqində qabaqcıl təşəbbüs kimi "Bakı Prosesi"nin uğuru yüksək qiymətləndirilir və Azərbaycan bu istiqamətdə davamlı liderliyinə görə təqdir edilir, 2026-cı ildə keçiriləcək VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilinə dəstək ifadə olunur.

Türk Dövlətləri Təşkilatı Katibliyinin büdcəsinin əhəmiyyətli dərəcədə artırılması təklifi dəstəklənir, TDT-nin ilk birgə maliyyə institutu kimi yaradılmış Türk İnvestisiya Fondunun layihə fəaliyyətinə başlanmasının vacibliyi vurğulanır.

Türk Yaşıl Baxış prinsipləri rəhbər tutularaq, iqlim dəyişikliyinə və ətraf mühitin mühafizəsində davamlı "yaşıl inkişaf"a sadiqlik bir daha təsdiqlənir, "yaşıl enerji" avadanlığının və texnologiyalarının inkişafının, iqlimədavamlı infrastrukturun, enerji səmərəliliyinin və tullantıların səmərəli idarə olunmasının təşviqinin vacibliyi qeyd edilir.

Azərbaycanın 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasına uğurlu evsahibliyi, o cümlədən onun əsas nəticəsi olan Bakı İqlim Birliyi Paktı, eləcə də COP29 Sədrliyi çərçivəsində həyata keçirdiyi təşəbbüslər təqdir olunur.

Region boyu "yaşıl enerji" dəhlizlərinin inkişafının vacibliyi qeyd edilir, "yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə layihələrin həyata keçirilməsində irəliləyiş, təşkilatın üzv dövlətlərinin hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında sazişin qüvvəyə minməsi alqışlanır.

Bəyannamədə TDT-nin müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının gücləndirilməsini təşviq etməyə, mümkün olduqda bir-birinin namizədliklərini, qətnamələrini, bəyanatlarını və beynəlxalq təşkilatlar çərçivəsində ortaq maraqlara əsaslanan digər təşəbbüsləri daha güclü qarşılıqlı əlaqələndirməyə və dəstəkləməyə çağırış ifadə olunur, o cümlədən Qırğızıstanın 2027-2028-ci illər üçün BMT Təhlükəsizlik Şurasına və ECOSOC-un 2028-2030-cu illər üçün üzvlüyünə namizədliyi dəstəklənir.

Özbəkistanın 2035-2036-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının qeyri-daimi üzvlüyünə namizədliyi, Qazaxıstanın 2031-2032-ci illər üçün BMT Baş Assambleyasının 86-cı sessiyasının, 2039-2040-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının sədri vəzifələrinə namizədliyi, Türkiyənin 2037-2038-ci illər üçün BMT Təhlükəsizlik Şurasının, 2025-2029-cu illər üçün UNESCO-nun İcraiyyə Şurasının, 2026-2028-ci illər üçün ECOSOC-un qeyri-daimi üzvlüyünə namizədliyi, Azərbaycanın 2025-2029-cu illər üçün UNESCO-nun Ümumdünya İrs Komitəsinə və həmin illərdə BMT-HABITAT-ın İcraiyyə Şurasının üzvlüyünə namizədliyi alqışlanır.

Dünyaşöhrətli alim, Nobel mükafatı laureatı professor Əziz Sancara Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına "Türk dünyasının birliyinə töhfələrinə görə" beynəlxalq mükafatının verilməsi yüksək qiymətləndirilir.

Üzv dövlətlərin türk dövlətləri arasında qarşılıqlı anlaşma, həmrəylik və ortaq gələcəyə yardım etmək məqsədi daşıyan mədəni və humanitar əlaqələrin gücləndirilməsinin vacib elementi kimi gənclərlə bağlı məsələlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi və strukturlaşdırılması niyyəti ifadə olunur, TDT çərçivəsində gənclər və idman sahəsində mübadilə proqramlarının qabaqcıl nailiyyətləri, Qazaxıstanın Aktau şəhərinin TÜRKSOY-un təşəbbüsü ilə 2025-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi təqdir olunur. Eyni zamanda Özbəkistanın Türk Mədəniyyəti və İrsi Fonduna üzv olmaq üçün müraciəti dəstəklənir.

Sənəddə silahlı münaqişələr zamanı mədəni irsin qorunmasının vacibliyi vurğulanır, münaqişədən sonra mədəni irsin bərpasında türk dövlətlərinin səyləri təqdir edilir.

Mədəniyyətlərarası körpü və ümumbəşəri dəyərlərin rəmzi kimi çıxış edən Novruzun transmədəni mahiyyəti ifadə edilərək, türk mədəniyyətinin dərin zənginliyini və türk xalqlarının ortaq dəyərlərini gələcək nəsillərə ötürmək əzmi bir daha vurğulanır, Azərbaycanın və TDT-yə üzv dövlətlərin, həmçinin Türkiyə Prezidentinin təşəbbüsü ilə Novruz bayramının təşkilat çərçivəsində qeyd olunması barədə Katibliyə tapşırıq verilir.

Azərbaycanın 2025-ci ildə TDT-nin 12-ci Zirvə görüşünə evsahibliyi etməyə hazır olduğu yüksək qiymətləndirilir.

Həmçinin Əfqanıstan üzrə Birgə Bəyanatın qəbul edilməsinin vacibliyi vurğulanır.

TDT-yə üzv dövlətlərin başçıları Macarıstanın Baş naziri Viktor Orbana Türk dünyasının həmrəyliyinə və rifahına verdiyi töhfələrə, habelə təşkilatın Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşünə, Macarıstan hökumətinin və xalqının səmimi qonaqpərvərliyinə görə təşəkkürlərini bildiriblər.

Bəyannamə Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Türkmənistan xalqı və hökuməti adından, həmçinin şəxsən öz adımdan Sizi və qardaş Azərbaycan xalqını ölkənizin Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Əminik ki, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mehriban qonşuluq, səmimi dostluq və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanan qardaşlıq münasibətləri xalqlarımızın işıqlı gələcəyi naminə bundan sonra da dinamik inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, səadət və ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza səmimi-qəlbdən təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrini gücləndirmək niyyətimizi bir daha bildirmək istəyirəm.

Sizə dərin hörmət və ehtiramımı ifadə edirəm.

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr gələcək illərdə də inkişaf edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının***
***Dövlət İdarə Şurasının Sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə ölkənizin hökumətinə və xalqına təbriklərimi çatdırıram.



Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasında dostluq münasibətləri gələcəkdə də genişlənəcək və inkişaf edəcəkdir.

*Hörmətlə,*

***Kim Çen IN,***
***Koreya Xalq Demokratik Respublikasının***
***Dövlət İşlərinin Sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi və ölkənizin qardaş xalqını Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan müstəqillik illərində həyat fəaliyyətinin bütün sahələrində möhtəşəm uğurlar əldə edib, beynəlxalq arenada yüksək nüfuz və etimad qazanıb.

Əminik ki, mehriban qonşuluq, səmimi dostluq və etimad prinsiplərinə əsaslanan Türkmənistan-Azərbaycan strateji tərəfdaşlığı qardaş ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da dinamik inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

1993-cü ildə müstəqilliyimiz böyük təhlükə ilə üzləşmişdi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması müstəqilliyimizi qoruyub saxladı. Qısa bir zamanda Azərbaycanda sabitlik yarandı, enerji sahəsində dünyanın aparıcı şirkətləri ilə böyük layihələr həyata keçirildi, ölkəmiz bölgədə aparıcı dövlətə çevrildi. Böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəyə barış və inkişaf gətirdi.

Siz Ulu Öndər Heydər Əliyev dəyərlərinə yeni nəfəs gətirdiniz və 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsi Sizin siyasətiniz nəticəsində mümkün oldu. Artıq bir neçə ildir ki, Azərbaycan xalqı Müstəqillik Gününü qalib xalq kimi qeyd edir.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycan regionun lider ölkəsidir. Son aylar ölkəmizə İranın və Vyetnamın liderlərinin səfərləri, Sizin Çin Xalq Respublikasına səfəriniz və orada ən yüksək səviyyədə qəbul olunmağınız, Albaniyada Avropa Siyasi Birliyinin Zirvə toplantısında dünya liderləri ilə keçirdiyiniz görüşlər bir daha Sizin dərin və incə düşünülmüş siyasətinizin nə qədər müdrik olduğunu və Azərbaycan xalqının inkişafına yönəldiyini təsdiq edir.

Sizə möhkəm cansağlığı, ailə səadəti, işlərinizdə böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının***
***Parlament Məclisinin Baş katibi***

# "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi - "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda Ankara şəhərində keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, bu mühüm tədbirə evsahibliyi edən dost və qardaş Türkiyə Respublikasına böyük təşəkkürümü bildirirəm. Azərbaycan və Türkiyə nümayəndələrinin bir araya gəldiyi bu konfrans regionumuzda sülhün, ədalətin və insan hüquqlarının bərqərar olması yolunda çox əlamətdar hadisədir. Azərbaycan və Türkiyə arasında müttəfiqlik və qardaşlıq münasibətləri, hər iki ölkənin beynəlxalq hüquq prinsiplərinə sadiqliyi bölgədə sabitliyin təmin olunması üçün möhkəm zəmin yaradır.

Çox təəssüf ki, silahlı münaqişələr və irqi ayrı-seçkilik nəticəsində milyonlarla insan öz doğma yurdlarından didərgin düşərək qaçqınlıq həyatı yaşayır. Xüsusilə Birinci Dünya müharibəsi dövründə və ondan sonra erməni radikalizmi və ekstremizmi Azərbaycan xalqını misli görünməmiş müsibətlərə düçar etmiş, nəticədə yüz minlərlə soydaşımız öz dədə-baba torpaqlarından zorla çıxarılmış, kütləvi qətl və qırğınlara məruz qalmışdır.

Qərbi Azərbaycanda - Ermənistan ərazisində 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilmiş və beləliklə, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu etnik təmizləmə böyük humanitar faciə olmaqla yanaşı, 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə Azərbaycanın əsas hissəsinin onun ayrılmaz hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsmək kimi mənfur geosiyasi məqsədə də xidmət etmişdir.

Ermənistan minilliklər boyu Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin mədəni irsini, qədim yaşayış məskənlərini, məscidlərini, ziyarətgahlarını və qəbiristanlıqlarını məhv etmişdir. Ermənistanın bu destruktiv addımları həmin ərazilərdən Azərbaycan xalqının izini silmək və regionun tarixini yenidən yazmaq məqsədi daşımışdır.

2020-ci il Vətən müharibəsində qazanılmış şanlı Zəfər, 2023-cü ildə suverenliyimizin tam bərpası, hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıdışı qərbi azərbaycanlılarda da böyük ruh yüksəkliyi yaratmış və onların daha mütəşəkkil qaydada fəaliyyət göstərməsinə imkan vermişdir. Qərbi Azərbaycan məsələsi artıq beynəlxalq gündəliyə daxil edilmişdir.

Qərbi Azərbaycan İcmasının beynəlxalq hüquqa uyğun dinc təşəbbüsləri təqdirəlayiqdir və dünya ictimaiyyəti tərəfindən dəstəklənir. Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin edilməsi regionda sülhün, insan hüquqlarının və barışığın bərqərar olması üçün vacib şərtdir.

Təəssüf ki, Ermənistan cəmiyyətində türk xalqlarına qarşı dərin kök salmış nifrət, "böyük Ermənistan" xülyası, həmin ölkənin konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının yer alması, qərbi azərbaycanlıların qayıdışına imkan verilməməsi sülhə mane olur. Ermənistan qonşu dövlətlərə qarşı ərazi iddialarına son qoymalı, azərbaycanlılara məxsus mədəni irsin bərpası və qorunması üçün addımlar atmalı, bu məqsədlə UNESCO-nun monitorinq missiyasına icazə verməli, qayıdış mövzusunda icma ilə dialoqa başlamalıdır. Ermənistan qərbi azərbaycanlıların nə vaxt və hansı şərtlərlə öz dədə-baba yurdlarına dönə bilmələri ilə bağlı aydın mövqe ifadə etməlidir. Bu məsələ ilə əlaqədar Ermənistan rəhbərliyinin icmanın nümayəndələrini qəbul etməsini gözləyirik.

Xüsusi olaraq vurğulamaq istərdim ki, qərbi azərbaycanlıların qayıdış istəyi Ermənistana qarşı ərazi iddiası demək deyildir və Ermənistan həmin istəyi bu formada təqdim etmək cəhdlərindən əl çəkməlidir. Qayıdış reallaşana qədər bu məsələ Azərbaycanın gündəliyindən çıxmayacaqdır. Təbii ki, öz yurdlarına dönəcək qərbi azərbaycanlılara təhlükəsizlik zəmanəti də verilməlidir.

Hesab edirik ki, Qərbi Azərbaycanla bağlı dünya ictimaiyyətinin məlumatlılığının artmasına xidmət edən bu beynəlxalq konfrans soydaşlarımızın öz doğma torpaqlarına qayıdışına önəmli töhfə verəcəkdir.

İnanırıq ki, qərbi azərbaycanlılar təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdacaq və bölgədə davamlı sülh bərqərar olacaqdır.

Sizə ən xoş diləklərimi çatdırır və konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2025-ci il*

# Türk Dövlətləri Təşkilatı daha da güclənir

## Bunu Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşü də təsdiqlədi

**Uzun illər ərzində bir-birindən ayrı düşmüş, böyük imperiyaların məkrli və məqsədli siyasəti nəticəsində dövlətçilikdən məhrum edilmiş bəzi türk xalqları yalnız ötən əsrdə milli dirçəlişə və inkişafa nail oldu. Müstəqil türk dövlətləri kimi həm ayrı-ayrılıqda, həm də birgə çoxtərəfli münasibətlərdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı siyasi, iqtisadi, mədəni əməkdaşlığa başladılar.**

Bəşəriyyətin keçilmiş yolu, yaşanmış tarixi göstərir ki, türk dövlətləri əsrlər boyu etnik və dini eyniliklə bir-birinə sıx bağlı olublar. Tarixin pozulmayan səhnəsində çoxlu dövlətlər, imperiyalar yaratmış türk xalqları varlığını, birliyini bu gün də uğurla davam etdirirlər. Dünyada dayanmadan dəyişən tarixi və siyasi proseslər türk xalqlarının, türk dövlətlərinin bir-birinə daha da yaxınlaşmasını, türk dövlətlərinin bir təşkilat çərçivəsində birləşməsini zəruri edirdi. Çünki türk dövlətlərinin birliyi onları daha güclü və qüdrətli edə bilərdi. Nəhayət, tarixi zərurətdən irəli gələn bu addım atıldı. 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşü keçirildi. Uğurlu gələcək istiqamətində çox mühüm addım atıldı. Yeri gəlmişkən qeyd edək ki, ilk Zirvə görüşü 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilmişdir. Bu görüşlərdə türkdilli xalqların yaxınlaşması, qarşılıqlı siyasi, mədəni və əməkdaşlıq etmələri haqqında bir çox mühüm addımlar atılmışdı.

Türk ölkələri dövlət başçılarının Naxçıvanda keçirilmiş Zirvə görüşündə çoxdan gözlənilən uğurlar əldə olundu. Dövlət başçıları görüşdə türkdilli xalqlar arasındakı tarixi bağları, ümumi dil, mədəniyyət və ənənələri, hərtərəfli əməkdaşlığın dərinləşməsini, ümumi birlik çərçivəsində qarşılıqlı əlaqələrin ölkələr və onların xalqları arasında yaxın qonşuluq və əməkdaşlıq üçün geniş imkanlardan faydalanmağı, dünyada gedən inkişafı, tərəqqini nəzərə alaraq "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"ni imzaladılar. Bununla yanaşı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında da ümumi razılığa gəldilər. Beləcə, türkdilli xalqlar və dövlətlər arasında gələcək əməkdaşlığın, tərəqqinin və inkişafın bünövrəsi qoyuldu.

Prezident İlham Əliyev dünyadakı beynəlxalq təşkilatlarla yanaşı, Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığa da çox böyük önəm verir. Ölkəmizin tərəqqisini, inkişafını, gələcəyini həm də türk dövlətlərinin birliyində görən dövlətimizin başçısı 14 fevral 2024-cü ildə Milli Məclisdə andiçmə mərasimindəki çıxışında türk dövlətləri ilə əməkdaşlıqdan, birlikdən, qarşıdakı illərdə bu istiqamətdə atılacaq növbəti addımlardan söz açaraq demişdir: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".



Naxçıvanda keçirilmiş Zirvə görüşündən sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası uğurlu inkişaf yolu keçdi. Bunda Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi xidməti oldu. Türkdilli ölkələr arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya və kommunikasiya texnologiyaları, eləcə də digər sahələrdə əməkdaşlıq xeyli genişləndi. TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası kimi qurumların sayəsində zəngin maddi və mənəvi irsimiz həm tədqiq, həm də təbliğ olundu. Bu gün Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası təşkilatlarla sıx əməkdaşlıq edir. Bütün bunlar xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin daha da genişlənməsinə və yaxınlaşmasına böyük təkan verir.

2019-cu il oktyabrın 15-də Bakıda Türk Şurasının yaradılması haqqında Naxçıvan sazişinin imzalanmasının 10 illiyinə həsr edilən VII Zirvə Görüşünün keçirilməsi, Özbəkistanın Türk Şurasına qoşulması, Azərbaycanın Qırğızıstandan Türk Şurasına sədrliyi qəbul etməsi, məhz Bakıda keçirilən Zirvə görüşündə Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin artıq təşkilat kimi dünyaya tanınmağın vaxtının yetişdiyini vurğulaması Bakı Zirvə Görüşünün əhəmiyyətini xeyli artırdı. VII Bakı Sammitində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasını təşkilat səviyyəsinə qədər yüksəltməyin tam zamanı olduğu, eyni köklərə malik dövlətlərin "türkdilli" deyil, Türk Dövlətləri Təşkilatı adlandırılması gündəmə gətirildi.

Azərbaycan türk dünyasının birliyinin güclənməsinə olduqca mühüm töhfələr verib. Təşkilatın məhz Naxçıvan Sazişi ilə yaradılması bunun bariz göstəricisidir. Ölkəmiz Türk Dövlətləri Təşkilatının təsisçi dövlətlərindən biri kimi daim əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə mühüm təşəbbüslər irəli sürür. Türk Dövlətləri Təşkilatı qeyri-rəsmi Zirvə görüşləri də keçirir. Bu görüşlərdə müvafiq qərarlar qəbul edilir, bəyannamələr imzalanır. Azərbaycan Respublikasının təşəbbüsü ilə təşkilatın ilk dəfə qeyri-rəsmi Zirvə görüşü 2024-cü il iyulun 6-da Şuşada keçirilmişdir. Görüşə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev evsahibliyi etmişdir. Görüşdə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz, Macarıstanın Baş naziri Viktor Orban, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak etmişlər. "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi" - həmin tarixdə Şuşada Türk Dövlətləri Təşkilatının "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşündə imzalanmışdır.

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının dövlət başçılarının ikinci qeyri-rəsmi Zirvə görüşü keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış etdi. Dövlətimizin başçısı çıxışında bu nüfuzlu təşkilatın fəaliyyətindən, indiyə qədər gördüyü misilsiz işlərdən ətraflı söz açaraq dedi ki, Türk Dövlətləri Təşkilatının dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir: "Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir. Prezident Sadır Japarovu Qırğızıstanın hazırda təşkilata uğurlu sədrliyinə görə təbrik edirəm. Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə evsahibliyi edəcək. Sizi Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana dəvət edirəm. Azərbaycan ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur".

Bu il Türk İnvestisiya Fondunun rəsmi olaraq fəaliyyətə başlaması nəzərdə tutulur. Türk dövlətləri ilə nəqliyyat sahəsində də əməkdaşlıq genişlənir. Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulur. Nəticədə açıq dənizlərə çıxışı olmasa da Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının beynəlxalq məsələlərdə rolunu genişləndirmək üçün daim çalışır. Təşkilatın gələcəyinə olan işıqlı baxışlar türkdilli xalqlar arasında əməkdaşlığın, dostluğun, qardaşlığın daha sıx olacağına böyük ümidlər verir. Dövlətimizin başçısı bir vaxtlar təşkilatın uğurlu gələcəyi olacağını vurğulamışdır: "Bu təşkilatın çox gözəl gələcəyi var. Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir".

Prezident İlham Əliyevin bir zamanlar böyük uzaqgörənliklə söylədikləri fikirlər reallığa, həqiqətə çevrilib. Bütün dünya da bu reallığı və həqiqəti görür və qəbul edir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Baş nazir Əli Əsədov Dünya Minifutbol Federasiyasının prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 21-də Dünya Minifutbol Federasiyasının prezidenti Filip Cuda ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə mayın 21-dən iyunun 1-nə qədər Bakıda keçirilən minifutbol üzrə dünya çempionatının əhəmiyyəti qeyd edilib.

Ölkəmizin beynəlxalq səviyyəli idman yarışlarına böyük uğurla evsahibliyi etməsi xüsusi vurğulanaraq, minifutbol üzrə dünya çempionatının da yüksək standartlara uyğun təşkil ediləcəyinə əminlik ifadə olunub.

İdmanın inkişafının Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil etdiyi bildirilib, dövlət tərəfindən idmançılara göstərilən diqqət və qayğı barədə söhbət açılıb. Görüşdə ölkəmizdə minifutbolun inkişafı və kütləviləşməsi məqsədilə həyata keçirilən tədbirlər təqdir edilib, bu sahədə əməkdaşlıq məsələləri müzakirə olunub.

# Baş nazirin müavini Şahin Mustafayev Dağıstan Hökuməti sədrinin müavini ilə görüşüb

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev mayın 21-də Dağıstan Respublikası Hökuməti sədrinin müavini Rizvan Qazimaqomedov ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Rusiya arasında əməkdaşlıq çərçivəsində Rusiya Federasiyasının müxtəlif regionları, xüsusilə də ortaq tarixi və mədəni dəyərlərlə bağlı olan Azərbaycan-Dağıstan münasibətlərinin xüsusi önəm daşıdığı vurğulanıb.

Həmçinin Azərbaycan ilə Dağıstan arasında əməkdaşlıq münasibətlərinin ticarət-iqtisadi, nəqliyyat-logistika, sənaye kooperasiyası, kənd təsərrüfatı və aqrar sənaye, eləcə də humanitar sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub.

Görüşdə həmçinin 2023-2025-ci illər üzrə Əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair Tədbirlər Planının icrası müzakirə olunaraq, əməkdaşlığın genişləndirilməsi məqsədilə perspektivli istiqamətlər üzrə fikir mübadiləsi aparılıb.

# YAP Mərkəzi Aparatında görüş keçirilib

**Mayın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvləri ilə "Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin nümayəndələrinin görüşü keçirilib.**



YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin təşviqi və Prezident İlham Əliyevin milli maraqlara əsaslanan məqsədyönlü siyasətinin təbliği, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması kimi məsələlərin daim diqqət mərkəzində olduğunu və ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. Görüşün əhəmiyyətinə diqqəti cəlb edən Arif Rəhimzadə sözügedən istiqamətlərdə birgə layihələrin həyata keçirilməsinin önəmini vurğulayıb.

"Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin sədri, AMEA-nın müxbir üzvü Sudeyif İmamverdiyev rəhbərlik etdiyi təşkilatın fəaliyyəti haqqında ətraflı məlumat verib. İctimai Birliyin aktual məsələlərlə əlaqədar mühüm layihələr reallaşdırdığını, o cümlədən türk dövlətlərində əlamətdar hadisələrlə bağlı çoxsaylı tədbirlər keçirdiyini, Azərbaycanın bir sıra ali məktəbləri ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdıran S.İmamverdiyev rəhbərlik etdiyi təşkilatın YAP Veteranlar Şurası ilə işbirliyində maraqlı olduğunu bildirib.

Görüşdə YAP Veteranlar Şurasının üzvləri Tahir Məmmədov, Elbay Qasımzadə, Arif Qaraşov, Zərifə Quliyeva, Adilə Abasova, Tahir Rzayev, Şahlar Əsgərov, YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev, "Türk Ağsaqqalları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin İdarə Heyətinin üzvü Ramiz Məşədihəsənli, Qadınlar Şurasının sədri Güllü Yoloğlu, təşkilatın nümayəndəsi İbrahim Quliyev çıxış edərək əməkdaşlıq imkanları barədə fikirlərini bildiriblər.

*"Azərbaycan"*

# "Türk Dünyasının Gənc Gücü: Bir Millət, Üç Dövlət Vizyonu"

**Mayın 20-də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) evsahibliyi ilə Yeni Azərbaycan Partiyası (YAP), Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) və ŞKTC-nin Ulusal Birlik Partiyasını (UBP) təmsil edən gənclərin iştirakı ilə "Türk Dünyasının Gənc Gücü: Bir Millət, Üç Dövlət Vizyonu" mövzusunda konfrans keçirilib.**




Açılış mərasimində çıxış edən ŞKTC-nin Prezidenti Ersin Tatar türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinin mühüm prioritet olduğunu bildirərək bu istiqamətdə həyata keçirilən fəaliyyətin əhəmiyyətini qeyd edib. Türkiyə, Azərbaycan və Şimali Kipr türk xalqlarını ortaq dəyərlərin birləşdirdiyini söyləyən Ersin Tatar konfransın gənclər arasında səmərəli fikir mübadiləsinin aparılması baxımından önəmini nəzərə çatdırıb.

ŞKTC-nin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstel isə çıxışında üç ölkənin müştərək hədəflərinin reallaşdırılmasında gənclərin rolunu vurğulayıb. O, YAP, AK Parti və UBP arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumunun önəminə toxunaraq hakim partiyaların gənclərini bir araya gətirən "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsinin birgə fəaliyyət və təcrübə mübadiləsinin təşviqi xüsusunda əhəmiyyətini qeyd edib.

Konfransda çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, hər üç ölkənin gənclərinin ortaq məqsədlər ətrafında birləşməsi müstəsna əhəmiyyətə malikdir: "Bu gün Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətindən olan gənclərin bir araya gəlməsi liderlərimizin siyasi iradəsinin nəticəsi, partiyalarımız arasındakı səmimi dostluq münasibətlərinin təzahürüdür. Biz bu birliyi yeni ideya və təşəbbüslərlə daha da gücləndirərək gələcəyə daşımalıyıq".

Ulusal Birlik Partiyasının Baş katibi Oğuzhan Hasipoğlu, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin üzvü Ahmet Savaşan, UBP-nin Gənclik Qollarının təmsilçisi Mahmud Hüdaverdi, Türkiyənin Ədalət və İnkişaf Partiyasının Gənclik Qollarının rəhbəri Yusuf İbiş və Türkiyə Böyük Millət Məclisinin üzvü Zəhranur Aydəmirin də çıxış etdikləri konfrans panel sessiyaları ilə öz işini davam etdirib.

Daha sonra müxtəlif mövzularda təşkil olunan "dəyirmi masa"larda hakim partiyaların gənclər təşkilatları arasında birgə fəaliyyətin gücləndirilməsi ilə əlaqədar müzakirələr aparılıb.

Sonda konfrans iştirakçılarına təşəkkürnamələr təqdim olunub.

*"Azərbaycan"*

# Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans keçirilib

**Mayın 21-də Türkiyənin Ankara şəhərində Qərbi Azərbaycan İcmasının və "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfrans keçirilib.**









Konfransa Azərbaycan və Türkiyədən 250-yə yaxın iştirakçı, o cümlədən Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvləri, dövlət qurumlarının nümayəndələri, universitet rektorları, elm və iş adamları, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri qatılıb.

Tədbir Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb. Sonra Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın və Türkiyənin bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılıb.

Daha sonra Qərbi Azərbaycan həqiqətləri və Qərbi Azərbaycan İcmasının fəaliyyəti, qərbi azərbaycanlıların ləyaqətli şəkildə geri qayıdışı



ilə bağlı Qərbi Azərbaycan Televiziyası tərəfindən hazırlanan film nümayiş etdirilib.

Tədbirin açılışında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. O, Türkiyədə belə bir tədbirin keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edərək, konfransın işinə uğurlar arzulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, TBMM-in üzvü Efkan Ala Qərbi Azərbaycanla bağlı Türkiyədə ilk belə konfransın keçirilməsinin tarixi əhəmiyyətindən danışıb.

Konfrans işini panel müzakirələrlə davam etdirib.

Qərbi Azərbaycanın tarixindən bəhs edən birinci panel türkiyəli tarixçi, Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin Tarix İnstitutunun direktoru Prof. Dr. Kamal Çiçəyin moderatorluğu ilə baş tutub. Paneldə tanınmış tarixçi professorlar İlbər Ortaylı, Aygün Attar, Tufan Gündüz, Okan Yeşilot və İbrahim Ethem Atnur çıxış ediblər.

TBMM-in Qadınlar və kişilər arasında imkan bərabərliyi komissiyasının sədri Çiğdem Erdoğanın moderatorluğu ilə keçirilən "Qərbi Azərbaycan: hüquqi və humanitar aspektlər" mövzusunda ikinci paneldə TBMM-in komissiya sədrləri Vedat Bilgin və Derya Yanık, TBMM-in üzvü Zeynep Yıldız, professorlar Cavid Abdullazadə, Yaşar Sarı və Muharrem Kılıç çıxış ediblər.

Panellərdən sonra iştirakçılara təşəkkürnamələr təqdim edilib.

Konfransın bağlanış sessiyasında Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərov, TBMM-in üzvü, Ədalət və İnkişaf Partiyası sədrinin müavini Zafer Sırakaya, Milli Məclisin deputatı, "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin sədri Tənzilə Rüstəmxanlı və TBMM-in üzvü, Türkiyə-Azərbaycan Dostluq Qrupunun sədri Şamil Ayrım çıxış ediblər.

Daha sonra iştirakçılar adından konfransın yekun sənədi qəbul edilib.

Sənəddə XX əsrin müxtəlif mərhələlərində Qərbi Azərbaycanda, indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar sistemli etnik təmizləməyə məruz qalaraq doğma yurdlarından zorla çıxarıldıqları, bu proses nəticəsində yüz minlərlə qərbi azərbaycanlının qaçqın vəziyyətinə düşdüyü, onların mədəni irsinin məhv edildiyi vurğulanıb. Bildirilib ki, bu faciəvi hadisələr regionun mədəni müxtəlifliyinə və tarixi yaddaşına ciddi zərbə vurub və hazırda həll edilməmiş ədalətsizlik kimi qalmaqdadır.

Qeyd olunub ki, qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışı tarixi ədalətsizliyin aradan qaldırılmasını təmin etməklə yanaşı, Cənubi Qafqazda sabitlik və barışıq üçün mühüm addımdır. Qərbi Azərbaycanda dağıdılmış məscidlərin və digər mədəni abidələrin bərpası, qorunması regional sülh və birgəyaşayışın möhkəmləndirilməsi üçün vacibdir. Mədəni müxtəliflik və barışığa xidmət edən bu işdə beynəlxalq təşkilatların yaxından iştirakı zəruridir.

Sənəddə həmçinin Ermənistan hökuməti qərbi azərbaycanlıların doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını qeyd-şərtsiz təmin etməyə və bunun üçün beynəlxalq hüquqa uyğun real addımlar atmağa çağırılıb. Diqqətə çatdırılıb ki, Ermənistan qayıdışı təmin etmək məqsədilə Qərbi Azərbaycan İcması ilə konstruktiv dialoqa başlamalı, azərbaycanlıların mədəni irsini qorumaq və bərpa etmək üçün UNESCO-nun və digər müvafiq qurumların monitorinq missiyalarına icazə verilməli və qərbi azərbaycanlıların mülkiyyət hüquqlarını təmin etməlidir.

Tədbir iştirakçıları Prezident İlham Əliyevin Qərbi Azərbaycana sülh yolu ilə qayıdış məsələsində liderliyini, beynəlxalq hüququn aliliyinə sadiqliyini və ədalətin bərpasına yönəlmiş səylərini yüksək qiymətləndirib, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın haqq-ədalətə, sülh və barışığa möhkəm dəstəyini alqışlayıblar.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan ilə Xorvatiya arasında siyasi məsləhətləşmələr aparılıb

**Zaqreb şəhərində Azərbaycan Respublikası və Xorvatiya Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib. Bu barədə AZƏRTAC-a Azərbaycanın Xarici İşlər Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Xorvatiya nümayəndə heyətinə isə bu ölkənin Xarici və Avropa İşləri Nazirliyinin dövlət katibi Frano Matuşiç rəhbərlik edib.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi əlaqələrin inkişaf dinamikası haqqında fikir mübadiləsi aparılıb, bu il iki ölkə arasında diplomatik əlaqələrin 30 illiyinin qeyd olunduğu diqqətə çatdırılıb. Son illərdə yüksəksəviyyəli səfər mübadilələrində müşahidə olunan canlanma təqdir edilib, siyasi dialoqun intensivliliyinin təmini məqsədilə bu səfərlərin davam etdirilməsinin və beynəlxalq təşkilatlar çərçivəsində təmasların gücləndirilməsinin vacibliyi vurğulanıb.

Sonra iqtisadi-ticari sahədə, o cümlədən ənənəvi və alternativ enerji sahələrində aparılan əməkdaşlıq və inkişaf perspektivləri müzakirə olunub. Bununla yanaşı, humanitar minatəmizləmə sahəsində həyata keçirilən layihələr haqda danışılıb, bu və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün müvafiq müqavilə-hüquq bazasının inkişaf etdirilməsinin önəmi qeyd olunub.

Görüşdə həmçinin postmünaqişə dövründə bölgədəki vəziyyət, Ermənistan-Azərbaycan normallaşma prosesi, davamlı sülhün təmin edilməsi istiqamətində ölkəmiz tərəfindən atılan addımlar, qarşıya çıxan maneələr və sülh sazişi istiqamətində son yeniliklər, eləcə də azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri barədə ətraflı məlumat verilib.

Sonda tərəflər arasında qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Səfər zamanı F.Rzayev həmçinin Xorvatiyanın digər rəsmi şəxsləri ilə işgüzar görüşlər keçirib və Azərbaycan-Xorvatiya diplomatik əlaqələrinin 30 illiyinə həsr olunmuş konfransda çıxış edib.

# Konstitusiya və İnsan Hüquqları: GlobE Şəbəkəsinin 6-cı Plenar İclasında müzakirə edilən mövzular

**Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə keçirilən Plenar iclasın növbəti sessiyası ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması fonunda "Konstitusion və insan hüquqlarını qorumaqla korrupsiyaya qarşı hüquq-mühafizə fəaliyyətində texnoloji imkanların səmərəli istifadəsi" mövzusuna həsr olunub.**




ADA Universitetinin Hüquq fakültəsinin dekanı Rəşad İbadovun rəhbərliyi ilə keçirilən sessiyada Baş Prokurorluğun nümayəndəsi Tuqay Rəhimli "Konstitusiya və insan hüquqlarının pozulma risklərinin qarşısını almaqda texnoloji vasitələrin rolu" mövzusunda çıxış edib.

Bununla yanaşı, Milli Aviasiya Akademiyasının eksperti Murad Orucov, eləcə də Papua Yeni Qvineya və Uqandanın nümayəndələri də mövzü üzrə öz baxışlarını təqdim ediblər.

Sessiya çərçivəsində hüquq-mühafizə orqanlarının fəaliyyətində texnoloji yeniliklərin, o cümlədən süni intellektlə bağlı olan texnologiyaların tətbiqi müzakirə edilərək bildirilib ki, bu texnologiyaların tətbiqi ilə çoxsaylı üstünlüklər əldə etmək mümkün olsa da, onlarla insan hüquqlarının pozulması riski də yüksəkdir. Bu səbəbdən sessiyada vurğulanıb ki, konstitusiyalar insan hüquqlarının əsas təminatçısı olmaqla korrupsiyaya qarşı mübarizə sahəsində texnologiyaların tətbiqi ilə insan hüquqlarının qorunmasını balanslaşdırmağa imkan yaradır.

Bundan başqa, tədbirdə süni intellekt və data analizi də daxil olmaqla qabaqcıl texnologiyaların hüquq-mühafizə orqanlarının fəaliyyətində tətbiqinin artan önəmi qeyd edilib. Vurğulanıb ki, korrupsiya cinayətləri törədən şəxslərin istifadə etdiyi sxem və mexanizmlər təkmilləşdikcə onlarla mübarizəni effektiv aparmaq üçün bu texnologiyalardan istifadə olunmalıdır. Əks halda, korrupsiyaya qarşı mübarizəni aparan dövlət orqanları korrupsiya cinayətləri törədənlərə münasibətdə hazırlıqsız olacaqlar.

Qeyd olunanlarla yanaşı, sessiyada konstitusiyanın ali hüquqi sənəd olmaqla qanunun aliliyini təmin etməsi vurğulanmaqla bu sənəddə təsbit edilmiş şəxsi həyatın toxunulmazlığı və ədalətli məhkəmə araşdırması hüquqları, ifadə azadlığı və ayrı-seçkiliyin qadağan olunması müddəalarının insan hüquqlarına olan istənilən müdaxilələr üçün meyarlar müəyyən etməklə sui-istifadələrin qarşısını alması və insanlara texnoloji yeniliklərdən istifadə edilməklə tətbiq edilən müdaxilələrə qarşı öz hüquqlarını müdafiə etmək və müdaxilələri məhkəmə qaydasında mübahisələndirmək imkanı yaratması qeyd olunub.

*"Azərbaycan"*

# GlobE Şəbəkəsinin 6-cı Plenar İclasında vəzifəli şəxslər tərəfindən törədilən ekoloji hüquqpozmalar müzakirə edilib

**Xəbər verildiyi kimi, 2025-ci il 19-23 may tarixlərində Bakı şəhəri Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - GlobE Network - çərçivəsində Altıncı Plenar İclasa evsahibliyi edir. Bu mötəbər tədbirdə 92 ölkəni təmsil edən 120-dən artıq dövlət qurumunun nümayəndələri, o cümlədən prokurorluqlar, müstəqil antikorrupsiya təşkilatları və beynəlxalq institutlar iştirak edir.**



Ümumilikdə 300-dən çox nümayəndə tədbirə fiziki olaraq qatılıb, 60-dan artıq iştirakçı isə onlayn formatda tədbiri izləyir. İclas çərçivəsində yüzdən artıq çıxışın təqdim olunması planlaşdırılır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun təşəbbüsü ilə Plenar İclas çərçivəsində "Hüquqi şəxslərin xeyrinə vəzifəli şəxslər tərəfindən törədilmiş ekoloji cinayətlərin qarşısının alınması və istintaqı" mövzusunda tədbir keçirilib.

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayevin sədrliyi ilə keçirilən həmin tədbirdə BMT-nin təşkilatçıları, xarici ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsində mütəxəssisləri, Azərbaycanın hüquq-mühafizə orqanlarının nümayəndələri, eləcə də elmi-tədqiqat institutlarının əməkdaşları da daxil olmaqla ümumilikdə 50-yə yaxın iştirakçı olub.

Sədrlik edən Elnur Musayev tərəfindən iclasın açılış nitqində 2020-2025-ci illər ərzində Azərbaycan Respublikası Prokurorluğu tərəfindən ölkənin digər hüquq-mühafizə orqanları ilə birlikdə görülmüş işlərin nəticələri səsləndirilib, o cümlədən ekoloji sahədə ixtisaslaşdırılmış qurum olaraq Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən 602 cinayət işinin başlandığı, 16 milyon manata yaxın vurulmuş ziyanın ödənildiyi, 229 inzibati xəta haqqında iş üzrə icraat başlanıldığı, qanun pozuntularını doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə 160 təqdimat verildiyi, qanun pozuntularından çəkindirmək məqsədilə 55 rəsmi xəbərdarlıq verildiyi bildirilib.

Qeyd olunub ki, ətraf mühitin mühafizəsi sahəsində ildən-ilə qanunvericiliyin təkmilləşməsi, vətəndaşların sayıqlığının artması, hüquq-mühafizə orqanlarının və bu sahədə ixtisaslaşmış qurumların əlaqələndirilmiş fəaliyyəti nəticəsində effektiv mübarizə gedir, ictimaiyyət daim məlumatlandırılır.

Bununla belə, bu qəbildən olan hüquqpozmaların qarşısının alınması sahəsində məsul qurumların, o cümlədən qanunla nəzarət və monitorinqin həyata keçirilməsinə cavabdeh olan vəzifəli şəxslərin fəaliyyətində qüsurlar mövcuddur. Bu da baş verən ətraf mühit əleyhinə olan cinayətlərin korrupsiya xarakterli olmasına işarə edir.

Sessiya çərçivəsində aparılan müzakirələrin gəldiyi əsas nəticələr ondan ibarət olmuşdur ki, insanların və canlıların həyat və sağlamlığı üçün əhəmiyyətli dərəcədə təhlükə törədən bu cinayətlər beynəlxalq miqyasda korrupsiya və transmilli cinayətlər kimi əhəmiyyətinə görə önə çəkilməli, bu sahədə əməkdaşlıq gücləndirilməlidir. Qabaqcıl ölkələrin təcrübəsinə əsasən hər bir ölkə miqyasında ekoloji pozuntulara və cinayətlərə qarşı mübarizə vahid strategiya şəklində həyata keçirilməli, iştirakçılar müəyyən edilərək effektiv əməkdaşlıq mexanizmləri formalaşdırılmalıdır.

Bununla yanaşı, qabaqlayıcı qurumlar, təhqiqat, istintaq və maliyyə kəşfiyyatı qurumlarının daimi fəaliyyət göstərən əlaqələndirmə qurumları qabaqcıl ölkələrin ən yaxşı nəticələrini göstərən nümunələrdir və bunlar beynəlxalq miqyasda öyrənilməlidir.

Tədbirdə ən əsası ətraf mühitin qorunmasının sosial cavabdehliyin təməlində durması vurğulanaraq, əhalinin və vətəndaş cəmiyyətinin bu sahədə biliklərinin artırılmasının vacibliyi xüsusi qeyd edildi.

*"Azərbaycan"*

# Bakı Baş Gömrük İdarəsində görüş keçirilib

**Mayın 21-də Dövlət Gömrük Komitəsi rəhbərliyinin iştirakı ilə Bakı Baş Gömrük İdarəsində görüş keçirilib.**





Görüşdə Baş İdarədə xidmətin təşkili ilə bağlı müzakirələr aparılıb, proseslərin asan və sürətli şəkildə həyata keçirilməsi, şəffaflığın təmin olunması məqsədilə görülən işlər barədə məlumat verilib.

Qeyd olunub ki, son illərdə inzibatçılığın təkmilləşdirilməsi, rəqəmsallaşmanın genişləndirilməsi istiqamətində atılan addımlar rəsmiləşdirilmə və gömrük nəzarəti proseslərinin sürətləndirilməsinə, xidmət səviyyəsinin yüksəldilməsinə, vətəndaş və sahibkar müraciətlərinin operativ qaydada cavablandırılmasına şərait yaradır.

Həmçinin görüş zamanı xidmətlərin əlçatanlığının, gömrük-biznes münasibətlərində qarşılıqlı etimadın artırılması, könüllü riayət prinsipinin gücləndirilməsi ilə bağlı tapşırıq və tövsiyələr verilib.

Sonda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müvafiq əmrləri ilə təltif olunmuş Bakı Baş Gömrük İdarəsinin xidmətdə fərqlənən bir qrup əməkdaşına təltiflər və fəxri fərmanları təqdim edilib.

*"Azərbaycan"*





# İtaliya nümayəndə heyəti Milli Müdafiə Universitetini və Hərbi Dəniz Qüvvələrini ziyarət edib

**Ölkəmizdə səfərdə olan İtaliyanın Milli Müdafiə Universitetinin Ali Araşdırmalar Mərkəzinin direktoru general-polkovnik Stefano Mannino və onun rəhbərlik etdiyi nümayəndə heyəti Milli Müdafiə Universitetində (MMU), Hərb Oyunları Mərkəzi, Heydər Əliyev adına Hərbi İnstitutda, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində olublar.**







Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə MMU-da keçirilən görüşdə universitetin rektoru general-mayor Gündüz Əbdülov qonaqları ölkəmizdə görməkdən məmnun olduğunu ifadə edib. Azərbaycan və İtaliya arasında hərbi təhsil sahəsində uğurla inkişaf edən əlaqələrin qarşılıqlı inam və etimada əsaslandığını vurğulayıb.

General-polkovnik S.Mannino da öz növbəsində göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Keçirilən görüşlərin hər iki ordunun hərbi təhsil sahəsi üçün səmərəli olacağını bildirən qonaq bu istiqamətdə görülən işlərin qarşılıqlı təcrübə mübadiləsi üçün faydalı olduğunu xüsusi qeyd edib.

Daha sonra italiyalı nümayəndə heyətinə MMU-nun yaranma tarixi, təhsil sistemi, elektron üsulla xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul qaydaları, eləcə də qarşıda duran məqsəd və vəzifələrindən bəhs edən brifinq təqdim olunub. Qonaqları maraqlandıran suallar cavablandırılıb.

General-polkovnik S.Mannino Xatirə kitabına ürək sözlərini yazıb.

Görüş başa çatdıqdan sonra İtaliya nümayəndə heyəti Hərb Oyunları Mərkəzini ziyarət edib. Burada qonaqlara mərkəzdə icra olunan fəaliyyətlərlə bağlı zəruri məlumatlar verilib.

Qonaqlar səfər çərçivəsində MMU-nun Heydər Əliyev adına Hərbi İnstitutu və Cəmşid Naxçıvanski adına Hərbi Liseyində olublar.

Ziyarət əsnasında qonaqlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin büstü və şəhidlərimiz üçün salınmış memorial kompleksin önünə gül dəstələri düzüblər. Daha sonra qonaqlar xüsusi təyinatlı təhsil müəssisələrində yerləşən Heydər Əliyev Muzeyinə gələrək Ulu Öndərin həyat və siyasi fəaliyyətini əks etdirən fotoguşə ilə tanış olub. Onlara Ulu Öndərin ordu quruculuğu sahəsində gördüyü işlər barədə məlumatlar verilib.

İtaliyalı nümayəndə heyəti Hərbi Liseydə və İnstitutda təhsil alan kursantlar üçün yaradılmış şəraitlə tanış olub, onların fikirlərini öyrənib, təklif və tövsiyələrini verib. Qonaqlar üçün hərbi orkestr tərəfindən italyan musiqi kompozisiyaları səsləndirilib, italiyalı nümayəndə heyəti kursantların nümunəvi çıxışlarını izləyib.

Daha sonra brifinq zalında keçirilən görüş zamanı tərəfləri maraqlandıran mövzular ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb.

İtaliya nümayəndə heyəti səfər çərçivəsində Hərbi Dəniz Qüvvələrinin (HDQ) "N" hərbi hissəsini ziyarət edib.

Qonaqları salamlayan HDQ komandanı 1-ci dərəcəli kapitan Şahin Məmmədov Azərbaycanın dünyanın aparıcı dəniz qüvvələrinə malik ölkələri ilə əməkdaşlığında İtaliya Respublikasının xüsusi yeri olduğunu qeyd edib.

Daha sonra qonaqlara hərbi hissənin tarixi, keçdiyi döyüş yolu və qarşıda duran məqsədləri ilə bağlı brifinq təqdim olunub. Qonaqları maraqlandıran suallar cavablandırılıb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ziyarət zamanı qonaqlara hərbi hissənin silahlanmasında olan bəzi hərbi vasitələr əyani olaraq göstərilib, onların taktiki-texniki xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

Qonaqlar həmçinin təlim meydanında dəniz xüsusi təyinatlılarının iştirakı ilə nümayiş olunan nümunəvi çıxışları izləyiblər.

# Ədalət təmin olundu

## İrandakı səfirliyimizə hücum edən terrorçu layiqli cəzasını aldı

**2023-cü il yanvarın 27-də Azərbaycanın Tehrandakı səfirliyinə edilən terror hücumu iki dövlət arasındakı münasibətləri daha da kəçkinləşdirmişdi. Həmin hadisə zamanı səfirliyimizin mühafizə xidmətinin rəisi Orxan Əsgərov şəhid olmuş, iki nəfər ağır yaralanmışdı. Onlardan biri - mühafizə xidmətinin əməkdaşı Vasif Tağıyev öz qorxmazlığı və fədakarlığı ilə terrorçunu tərksilah etmişdi.**



### Qətiyyətli və prinsipial mövqe

Terror hadisəsi baş verəndən dərhal sonra Prezident İlham Əliyev səfirliyin fəaliyyətinin dayandırılması və diplomatlarımızın geri çağırılması ilə bağlı tapşırıq verdi. Səfirliyimizin təxliyə edilmiş əməkdaşları və onların ailə üzvləri qısa müddətdə Bakıya gətirildilər. Şəhid Orxan Əsgərov yanvarın 30-da İkinci Şəhidlər xiyabanında dəfn edildi. Prezident İlham Əliyevin sərəncamı ilə terror aktının qarşısının alınması zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə Vasif Tağıyev 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif olundu. Orxan Əsgərov (ölümündən sonra) və Mahir İmanov isə "Vətən uğrunda" medalına layiq görüldülər.

Qeyd edək ki, səfirliyimizə qarşı xain hücum dünya ölkələrinin və beynəlxalq təşkilatların rəsmiləri, xarici işlər nazirləri, səfirlər, XİN təmsilçiləri, siyasətçilər və jurnalistlər tərəfindən qətiyyətlə pislənmiş və qəbuledilməz hesab olunmuşdu. Bəyanat, açıqlama və paylaşımlarda terror hadisəsinin tam araşdırılması və təqsirkarların cəzalandırılması tələbi ifadə edilmişdi. Əlbəttə ki, Azərbaycan dövlətinin tələbi terror hadisəsinin obyektiv şəkildə araşdırılması, terrorçunun və təşkilatçıların layiqli cəza alması idi.



Aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyev bu hadisə ilə bağlı fikirlərini bildirərək qeyd etmişdi ki, iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən və arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır: "Təkcə bu terror hadisəsini törədən şəxs deyil, onun arxasında dayananlar, onu Azərbaycan səfirliyinə göndərənlər də məsuliyyətə cəlb olunacaq. Bununla yanaşı, yeni administrasiya ilə bizim işgüzar əlaqələrimiz var, onlardan gözləntimiz bu məsələni həll etməkdir. Biz orada siyasi sistemin mürəkkəbliyini, icra hakimiyyətinin məhdud imkanlarını anlayırıq. Biz bunları bilirik, ancaq iki ölkə arasında əlaqələrin tam normallaşdırılması üçün bu terror hadisəsini törədən, onu təşkil edən və bu hadisənin arxasında dayanan hər kəs mühakimə edilməli və cəzalandırılmalıdır".

### Şəhidimizin qanı yerdə qalmadı

Ümumiyyətlə, bu məsələ ilə əlaqədar Azərbaycan Prezidenti ilk gündən prinsipial mövqe ortaya qoydu, hadisənin obyektiv şəkildə araşdırılmasını və hüquqi qiymətləndirilməsini tələb etdi. Sonda dövlətimiz öz haqlı istəyinə çatdı. İran KİV-nin yaydığı məlumata əsasən, dünən səhər saatlarında respublikamızın Tehrandakı səfirliyinə hücum edən şəxs İran qanunlarına əsasən edam edilib.

İranda Azərbaycan səfirliyinə qarşı terror törətmiş cinayətkarla bağlı məhkəmə qərarının icra edilməsi Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin ədalətin bərpa olunması üçün nümayiş etdirdiyi qəti və prnsipial mövqeyin nəticəsidir. Bütün bunların fonunda öz təsdiqini tapan başqa bir həqiqət isə ondan ibarətdir ki, Azərbaycan Prezidenti hər zaman öz vətəndaşının yanındadır. Harada olmasından və yaşamasından asılı olmayaraq, dövlətimiz hər zaman vətəndaşlarının arxasındadır.

Bu terror hadisəsinin hüquqi müstəvidə öz qiymətini alması Azərbaycan-İran münasibətləri baxımından da mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə rəsmi səfərindən sonra Bakı ilə Tehran arasında münasibətlərdə pozitiv dinamika müşahidə olunur. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində İrandan cəlb olunan heyətin iştirakı ilə keçirilən "Araz-2025" birgə təlimi də bu dinamikanın göstəricisidir. Əlbəttə, bu dinamikanın qorunub saxlanılması iki dövlət arasındakı münasibətlərin daha da inkişafı baxımından olduqca vacibdir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# İctimai-siyasi həyatın bütün sahələrində gender bərabərliyi təmin olunub



**Mayın 21-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib. Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Hicran Hüseynova iclasın gündəliyinə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2024-cü il üzrə məlumatının daxil edildiyini söyləyib.**

Komitə sədri vurğulayıb ki, 30 il əvvəl qəbul olunmuş, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Konstitusiyasında qadınların kişilərlə bərabər eyni hüquq və azadlıqlara malik olması öz əksini tapıb və bununla demokratik cəmiyyət quruculuğunda qadınların iştirakının hüquqi bazası yaradılıb, ictimai-siyasi həyatın bütün sahələrində gender bərabərliyi təmin olunub. O, Prezident İlham Əliyevin gender bərabərliyinin təmin edilməsi istiqamətində mühüm sənədlər imzaladığını xüsusi qeyd edib, Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahədə xidmətlərini yüksək qiymətləndirib.

Gender bərabərliyi sahəsində dövlət siyasətindən söhbət açan Hicran Hüseynova ölkəmizdə qəbul olunan qanunların qadınların istənilən sahədə fəaliyyət göstərməsini təşviq etdiyini deyib, bununla bağlı qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində, müasir çağırışlara uyğun atılan addımları, o cümlədən Ailə Məcəlləsinə, Əmək Məcəlləsinə, digər qanunvericilik aktlarına edilən müvafiq dəyişiklikləri diqqətə çatdırıb.

Hicran Hüseynova ölkədə gender bərabərliyinin təmin edilməsi sahəsində müsbət dinamikanın müşahidə edildiyini söyləyib. Qeyd edib ki, illik hesabatda bununla bağlı verilən məlumatda idarəetmə və qərar qəbuletmə sahəsində qadınların iştirakçılığının artması ilə bağlı göstəricilər əks olunub. Belə ki, inzibati vəzifələri icra edən, hüquq-mühafizə, prokurorluq orqanlarında xidmət edən, xüsusilə hakim qadınların sayının hər il artdığı müşahidə olunur. O, ölkədə əmək bazarında gender bərabərsizliyinin aradan qaldırılması istiqamətində bir çox işlərin görüldüyünü, bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edildiyini, həmçinin gender əsaslı və məişət zorakılığının aradan qaldırılması, zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsinin gücləndirilməsi üçün lazımi normativ-hüquqi aktların qəbul olunduğunu, bu sahədə qurumlararası əlaqələndirmə mexanizminin yaradıldığını bildirib. Habelə nikah yaşının azaldılması, qohum nikahlarının qarşısının alınması ilə bağlı atılan addımlardan danışıb.

Hicran Hüseynova illik məlumatı yüksək dəyərləndirərək, onun peşəkar səviyyədə tərtib edildiyini, bütün sahələr üzrə ətraflı təhlil aparıldığını, təklif və tövsiyələrin hazırlandığını, əldə edilmiş uğurlu nəticələrin və qarşıda duran vəzifələrin əks olunduğunu bildirib.

İclasda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova çıxış edib. O, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun icrası sahəsində görülən işlər barədə illik hesabatın hazırlandığı zaman qurumlararası əməkdaşlıqdan bəhs edib. Gender bərabərliyinin təmin edilməsinə dair bu sahəyə məsul şəxslər üçün seminarların keçirildiyini deyib. Hesabatda yer alan göstəricilərdə müsbət dəyişikliklərin olduğunu, o cümlədən qadınların yüksək vəzifələrə təyin olunması, hüquq-mühafizə, prokurorluq orqanlarında, digər qurumlarda iştirakçılıq faizinin artdığını söyləyib.

Məsələ ilə bağlı müzakirələrdə komitənin sədr müavini Jalə Əliyeva, üzvləri Müşfiq Məmmədli, İlham Məmmədov, Könül Nurullayeva, Sevinc Hüseynova, Ülviyyə Ağayeva, Səbinə Xasayeva, Mehriban Vəliyeva, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək illik məlumatı yüksək dəyərləndiriblər. Onlar gender bərabərliyinin təmin edilməsində qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyətini vurğulayıblar, bu sahəyə dövlət tərəfindən xüsusi diqqət yetirildiyini deyiblər. Çıxış edənlər ölkənin ictimai həyatında qadınların rolundan bəhs ediblər, gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində görülən işləri təqdirəlayiq hesab ediblər. Millət vəkilləri bir sıra qeyd və təkliflərini də səsləndiriblər.

Parlamentin komitə sədri Hicran Hüseynova, Dövlət komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxışlarda səsləndirilən fikirlərə münasibət bildiriblər, sualları cavablandırıblar.

Yekunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2024-cü il üzrə məlumatı müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

**22 May Beynəlxalq Biomüxtəliflik Günüdür**

# "Yaşıl dünya", süni intellekt və yeni reallıqlar

**Beynəlxalq Biomüxtəliflik Gününün qeyd edilməsində əsas məqsəd dünyanın diqqətini təbii və antropogen faktorların təsirinə məruz qalan biomüxtəlifliyin qorunmasına yönəltməkdir. Son illərdə gərgin səylərə baxmayaraq, planetin biomüxtəlifliyi azalmaqda davam edir və ekoloji tarazlıq dəyişir. Ekoloji sistemin təqribən 60 faizi deqradasiyaya uğrayıb. Bu, növbəti 50 ildə daha da pisləşərək ağır nəticələrə gətirib çıxara bilər.**



Ümummilli Lider Heydər Əliyev biomüxtəlifliyin qorunmasını Azərbaycanın ekoloji siyasətinin mühüm tərkib hissəsi kimi görürdü. O, təbiətin mühafizəsinə və ekoloji tarazlığın saxlanmasına böyük önəm verirdi. Ulu Öndər qeyd edirdi ki, təbiətə vurulan hər hansı zərər yalnız ekoloji fəlakət deyil, həm də milli sərvətə qarşı hörmətsizlikdir.

Danılmaz faktdır ki, iqlim dəyişiklikləri, ekoloji böhranlar və təbii resursların azalması bəşəriyyətin qarşısında duran ən ciddi problemlərdən biridir. Atmosferin korlanması, biomüxtəlifliyin azalması, su ehtiyatlarının çirklənməsi və iqlim dəyişiklikləri, sadəcə, statistik göstəricilər deyil. Bunlar bizim planetimizin tarazlığına birbaşa təsir edən faktorlardır.

Cənab Prezident İlham Əliyev COP29 çərçivəsində keçirilən konfransda "Qlobal ekoloji problemlər bəşəriyyətin mövcudluğu və gələcəyi üçün ciddi təhdidlər yaratmaqdadır" söyləyərək fikirlərini aşağıdakı kimi izah etmişdir: "Bu gün dünyamızın üzləşdiyi iqlim dəyişmələri, atmosferin və ətraf mühitin çirklənməsi, quraqlıq və səhralaşma, biomüxtəlifliyin itirilməsi, su qıtlığı, ərzaq çatışmazlığı və bu kimi digər qlobal ekoloji problemlər bəşəriyyətin mövcudluğu və gələcəyi üçün ciddi təhdidlər yaratmaqdadır. İqlim böhranı və ekoloji təhlükəsizlik məsələləri dünya dövlətlərinin birgə əməkdaşlığını, beynəlxalq ictimaiyyətin bütün səviyyələrdə səylərinin birləşdirilməsini zəruri edir".

Bu qlobal çağırışlara cavab vermək üçün yalnız texnoloji innovasiyalar kifayət etmir, elm adamlarının, alimlər və siyasətçilərin birgə əməkdaşlığı, elmi araşdırmalar praktik siyasətə çevrilməlidir. Elmi biliklər və siyasi qərarlar bir-birini tamamlamalıdır ki, ekoloji dayanıqlılıqlı inkişafa nail olunsun. Ancaq və ancaq alimlərin yenilikçi ideyaları ilə siyasətçilərin hüquqi və strateji yanaşmalarının vəhdəti ekoloji problemlərin həllində uğur qazanmağa imkan yarada bilər və bu əməkdaşlıq olmadan qlobal iqlim böhranının qarşısını almaq mümkün deyil.

"Yaşıl dünya", süni intellekt və yeni reallıqlar - bu üç anlayış bir-biri ilə sıx bağlıdır və bəşəriyyətin gələcək inkişafında mühüm rol oynayır. Hazırda dünyamız texnologiyanın sürətlə inkişaf etdiyi, eyni zamanda təbiətin müxtəlif təhlükələrlə üzləşdiyi bir dövrdən keçir. Bir tərəfdən, süni intellekt həyatımızın ayrılmaz hissəsinə çevrilir, digər tərəfdən isə, iqlim dəyişikliyi, su qıtlığı, hava çirkliliyi kimi problemlər bəşəriyyəti ciddi düşündürür. Bir-birinə zidd görünən bu iki məsələ - texnoloji inkişaf və ekoloji təhlükəsizlik məsələləri, əslində, bir-birinə qarşı deyil, əksinə, bir-birini tamamlayan anlayışlar kimi qiymətləndirilməlidir.

Yeni dövrdə əsas sual belə formalaşır: texnologiya, xüsusilə süni intellekt, təbiəti qorumağa necə kömək edə bilər? Süni intellekt artıq bir çox sahədə əvəzolunmaz vasitəyə çevrilib. Məsələn, "ağıllı enerji" şəbəkələri süni intellektin analitik gücündən istifadə edərək elektrik istehlakını optimallaşdırır və təmiz enerji mənbələrinə keçidi sürətləndirir. İqlim modelləşdirmə sistemləri bizə planetin gələcəyini proqnozlaşdırmağa kömək edir, beləliklə, daha effektiv ekoloji tədbirlər həyata keçirilə bilər.

Texnologiyanın sürətli inkişafı bizə təkcə yeni imkanlar təqdim etmir, həm də cəmiyyətin adaptasiyasını tələb edir. "Yaşıl infrastruktur" və smart şəhərlər konsepsiyaları artıq reallığa çevrilir. Süni intellektlə təchiz olunmuş ekoloji nəzarət sistemləri tullantıları azaldır, dayanıqlı həllər yaratmağa kömək edir. Aqrar sahədə süni intellekt torpağın keyfiyyətini analiz edir, hansı məhsulun harada əkilməli olduğunu müəyyənləşdirir, suvarma və gübrələmə sistemlərini optimallaşdırır. Bu da resursların israf edilməsinin qarşısını alır.

Nümunə üçün deyə bilərəm ki NASA-nın süni intellekt əsaslı iqlim modeli vasitəsilə 2020-ci ildə Avstraliyada meşə yanğınları əvvəlcədən proqnozlaşdırılmışdı. Bu, hökumətə qabaqlayıcı tədbirlər görməyə imkan yaratmışdı və ətraf mühitə ziyanı minimuma endirmişdi.

Beynəlxalq elmi tədqiqatlar göstərir ki, süni intellekt əsaslı iqlim modelləri ekstremal hava hadisələrinin proqnozlaşdırılmasında 90 faizə qədər dəqiqlik təmin edə bilir. Bu, hökumətlərə qabaqlayıcı tədbirlər görmək imkanı yaradır və ekoloji fəlakətlərin təsirini minimuma endirir.

Azərbaycan da bu qlobal tendensiyalardan kənarda qalmayıb. Prezident İlham Əliyev süni intellektin inkişafını Azərbaycanın rəqəmsal transformasiyasının əsas istiqamətlərindən biri kimi görür. Dövlətimizin başçısı "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nı təsdiq edib. Bu strategiya ölkədə süni intellekt texnologiyalarının inkişafını sürətləndirmək, tədqiqatları təşviq etmək və bu sahədə ixtisaslı kadr potensialını gücləndirmək məqsədi daşıyır.

Ölkəmizdə ekoloji təhlükəsizliyi təmin etmək və təbii sərvətlərdən ağıllı şəkildə istifadə etmək üçün rəqəmsal texnologiyaların tətbiqi genişlənir. Xüsusilə Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji zonası" elan olunması bu istiqamətdə mühüm addımdır. Burada günəş və külək enerjisi layihələrinin həyata keçirilməsi, "ağıllı kənd və şəhər" layihələri, rəqəmsal kənd təsərrüfatı və ekoloji monitorinq sistemləri tətbiq olunmağa başlanılıb. Belə yanaşma həm təbiətin qorunmasına, həm də insanların daha sağlam və təhlükəsiz mühitdə yaşamasına şərait yaradır.

"Yaşıl gələcək" yalnız texnoloji inkişafla deyil, həm də düzgün düşüncə və insanlıq dəyərləri ilə əlaqəlidir. Süni intellekt bizim güclü yardımçımız ola bilər, amma bu gücü necə və nə üçün istifadə etməyimiz ən azı texnologiyanın özü qədər vacibdir. Əgər texnologiya təbiətlə dost olarsa, gələcəyimiz də sağlam, sabit və bərəkətli olar. Hər zaman qeyd etməliyik ki, bütün proseslərin mərkəzində insan faktoru mühüm əhəmiyyət daşıyır.

Alimlərin apardığı tədqiqatlar ekoloji problemlərin həlli üçün əsas istiqamətləri müəyyənləşdirir və bu nəticələr siyasətçilər tərəfindən hüquqi çərçivəyə salınaraq qanunlar şəklində formalaşdırılır. Siyasətçilər ekoloji qanunvericiliyi tənzimləməklə karbon neytrallığına nail olmaq və qlobal iqlim dəyişikliyi ilə mübarizədə effektiv mexanizmlər yaratmaq üçün beynəlxalq sazişlərə rəhbərlik edirlər. COP29 kimi beynəlxalq ekoloji sammitlərdə qəbul edilən qərarlar "yaşıl iqtisadiyyat"a keçidi sürətləndirir və ekoloji siyasətlərin qlobal miqyasda təsirli olmasına şərait yaradır. Bununla belə, bu siyasətlərin uğurlu olması alimlərin elmi tədqiqatlarına əsaslanmalıdır, çünki yalnız elmi yanaşma ekoloji dayanıqlılığın təmin edilməsi üçün möhkəm təməl yarada bilər.

Nümunə üçün deyə bilərik ki, Avropa İttifaqının 2019-cu ildə qəbul etdiyi "Yaşıl saziş" çərçivəsində sənaye sektoruna ekoloji standartlar tətbiq olundu. Bu qərar fabriklərin karbon emissiyalarını 40 faizə qədər azaltmasına kömək etdi və ekoloji məsuliyyət prinsiplərinə uyğun istehsal proseslərini təşviq etdi.

Avropa İttifaqının "Yaşıl saziş"i çərçivəsində qəbul edilən ekoloji qanunlar alimlərin tədqiqatlarına əsaslanır. Bu siyasət nəticəsində 2030-cu ilə qədər karbon emissiyalarının 55 faizə qədər azaldılması hədəflənmişdir. Beləliklə, elmi əsaslı ekoloji siyasətlər qlobal ekoloji çağırışların həlli üçün əsas vasitədir. Təbiətin qorunmasını və davamlı inkişafı təmin etmək üçün alimlərin tədqiqatları ilə siyasətçilərin qəbul etdikləri qərarlar arasında balans qorunmalıdır.

Bu məqamda xüsusilə qeyd etmək istərdim ki, Azərbaycanın "yaşıl öhdəlik"ləri ekoloji dayanıqlılığı artırmaq, karbon emissiyalarını azaltmaq və bərpaolunan enerji mənbələrindən istifadəyə keçidi sürətləndirmək məqsədi daşıyır. Ölkəmiz bu sahədə bir sıra beynəlxalq və milli təşəbbüslərə qoşulub. Belə ki, Azərbaycan 2030-cu ilə qədər istilik effekti yaradan qaz emissiyalarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmağı hədəfləyir. Bu öhdəliklər Azərbaycanın ekoloji siyasətini gücləndirir və ölkənin "yaşıl iqtisadiyyat"a keçidini sürətləndirir.

Qarşıya qoyulan məqsədlərə çatmaq üçün Milli Məclisdə bu sahədə son dövrlər kifayət qədər əhəmiyyətli qanunlar qəbul edilib. Məsələn, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında", və digər Azərbaycan Respublikasının qanunlarını göstərə bilərik.

"Yaşıl dünya"nın qurulması artıq təkcə seçim deyil, zərurətdir. Texnologiya ilə ekologiyanın harmoniyasını qorumaq, yeni reallıqlara adaptasiya olmaq və hər birimizin bu prosesdə aktiv iştirak etməsi gələcəyimizi formalaşdıracaq. Gələcək isə bizim öz əlimizdədir!

*Sadiq QURBANOV,*
*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*

# XİN Azərbaycanın İrandakı səfirliyinə hücum etmiş terrorçuya qarşı edam hökmünün icrasını şərh edib

**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə hücum etmiş terrorçuya qarşı edam hökmünün icrasını şərh edib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

A.Hacızadə bildirib: "2023-cü il yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı terror hücumu həyata keçirmiş, səfirliyin bir əməkdaşını qətlə yetirmiş, iki əməkdaşını isə yaralamış Yasin Hüseynzadəyə qarşı 2024-cü il yanvarın 28-də çıxarılmış ölüm hökmü 2025-ci il mayın 21-i səhər saat 5-də icra olunub.

Edamın icra olunması prosesini səfirliyimizin iki nəfər əməkdaşı və məhkəmə prosesində Azərbaycan tərəfindən təyin edilmiş vəkil müşahidə edib.

Sözügedən terror aktını həyata keçirmiş şəxsin ən ağır şəkildə cəzalandırılması Azərbaycanın İran tərəfindən əsas gözləntiləri sırasında idi.

Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına uyğun olaraq, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin olunması və bu qəbildən əməllərin qarşısının alınması istiqamətində yerləşmə ölkəsi tərəfindən müvafiq tədbirlərin görülməsi hər zaman əhəmiyyət kəsb edir.

Qarşılıqlı hörmətə və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran əlaqələrinin inkişafı istiqamətində birgə səylərin davam etdirilməsini vacib hesab edirik".

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

## Azərbaycan-Macarıstan münasibətləri

### Müştərək tarix, strateji tərəfdaşlıq, qlobal dünyaya vahid baxış



**Macarıstan Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdən birini təşkil edir. Bizi bu ölkə ilə bağlayan vahid tarixi köklərimizlə yanaşı, Macarıstanla zəngin və dinamik müştərək siyasi, habelə iqtisadi gündəmimiz var. Macarıstan Azərbaycanın neft və qaz sektorunda təmsil olunur, eyni zamanda bizim Avropada mavi yanacaqla təmin etdiyimiz 10 ölkədən biridir. Bu ölkə bütün beynəlxalq platformalarda Azərbaycana fəal dəstək göstərir və bizimlə həmrəylik nümayiş etdirir. Macarıstanın Baş naziri Viktor Orbanın ötən il Şuşaya etdiyi tarixi səfər bu dəstəyin ən parlaq nümunəsidir.**

Dövlətlərimiz bir-biriləri üçün təmsil olunduğumuz coğrafiyalarda etibarlı və möhkəm geosiyasi körpü rolunu oynayırlar. Əgər Azərbaycan Macarıstan üçün zəngin Orta Asiya ölkələrinə çıxışdırsa, eyni qaydada Budapeşt də təmsil olunduğu Avropa strukturlarında, xüsusilə də Avropa İttifaqında (Aİ) Bakının maraqlarını səmimi formada dəstəkləyən dostdur.

#### Müstəqil siyasət yürüdən strateji tərəfdaşlar

Bakı-Budapeşt münasibətləri zəngin tarixə və bu günə malikdir. Bu gündəm özünün dinamik iqtisadi təmasları və siyasi münasibətləri ilə təzahür edir. Ancaq hər iki dövləti birbirilə bağlayan daha bir amil var: həm Macarıstan, həm də Azərbaycan müstəqil və heç kimdən asılı olmayan xarici siyasət yürüdürlər ki, bu kursun əsas xətti milli maraq və mənafelərin qorunmasıdır. Əgər Azərbaycan müstəqilliyinin ilk günlərindən balanslaşdırılmış xarici siyasətə üstünlük verirsə, Macarıstanın Aİ-də təmsilçiliyi beynəlxalq arenada baş verən hadisələrə fərqli və öz mənafelərini ifadə edən kursu həyata keçirməyə müəyyən maneələr yaradır. Çünki Aİ üzvləri xarici siyasət məsələlərində vahid cəbhədən çıxış etməlidirlər və bu da bir reallıqdır ki, Brüsseldən diktə olunan direktivlər bir çox hallarda üzv dövlətlərin fərdi maraqları ilə ziddiyyət təşkil edir.

Bu reallığın ən parlaq nümunəsi Macarıstan və Slovakiyadır. Hər iki dövlətin lideri maksimum şəkildə öz dövlətlərinin maraqlarından çıxış etmək üçün səylər göstərir və bu da Aİ tərəfindən onlara qarşı ədalətsiz yanaşma ilə müşayiət olunur. Təbii ki, bu cəsur davranış həm ölkə daxilində, həm də xaricdə müsbət reaksiyaya səbəb olur ki, bunu biz Viktor Orbanın təmsil etdiyi siyasi qüvvənin illərdir Macarıstana rəhbərlik üçün xalqın dəstəyini qazanmasında görürük. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə iştirak üçün Budapeştdə olan Prezident İlham Əliyevin Macarıstan lideri ilə mətbuata birgə bəyanat zamanı bu amilin üzərində xüsusi dayanması onu göstərir ki, dost dövlətin müstəqil və prinsipial xarici siyasəti Azərbaycanda da dərin rəğbət və hörmət mənbəyi kimi qəbul edilir: "Biz bilirik ki, Macarıstan müstəqil siyasət aparan nadir ölkələrdən biridir. Xüsusilə Avropa İttifaqı çərçivəsində müstəqil siyasət aparmaq kifayət qədər çətindir. Çünki bir çox qaydalar var, bir çox oturuşmuş prinsiplər var və Avropa İttifaqının vahid xarici siyasəti təbii olaraq prinsiplərdən biridir. Buna baxmayaraq, dostum Viktor Orban həmişə Macarıstanın dövlət və milli maraqlarını hər şeydən üstün tutub. Biz bunu alqışlayırıq. Hər zaman Macarıstanın maraqlarını qoruyub və Macarıstan üçün nə xeyir gətirirsə, o təşəbbüslərə qoşulub, nə xeyir gətirmirsə, o təşəbbüslərdən həmişə uzaq olub. Yenə də deyirəm, Avropa İttifaqının içində ola-ola bu siyasəti aparmaq, deyə bilərəm ki, doğrudan da, böyük qəhrəmanlıq tələb edir, siyasi iradə tələb edir və düşünülmüş siyasət tələb edir. Bütün bunlar da Macarıstanda var. Biz Macarıstanı çox sevirik, o cümlədən bu amillərə görə".

Macarıstanı Azərbaycana yaxın edən digər amil mənəvi xarakterlidir. Uzun illər boyu bu ölkənin əhalisini məxsus olduğu tarixi köklərdən ayrı tutublar. Macar xalqının türk dünyasına məxsusluğu və bu gerçəkliyin dərk edilməsi qeyri-rəsmi yasaq mövzusu olub. Məhz Viktor Orbanın hakimiyyətə gəlişi və ümumiyyətlə, onun siyasi fəaliyyəti Macarıstanın türk dünyası ilə əlaqələrinin genişlənməsi prosesinə təkan verib. Mühafizəkar platformada duran köklü "Fides" Partiyasının lideri kimi Orban xalqının keçmişinə və milli özünüdərkinə ciddi önəm verir ki, bu da ölkə ictimaiyyətinin öz rəhbərinə səmimi münasibətinə səbəb olub.

Orban eyni zamanda bu tarixi bağlılığı siyasi və iqtisadi maraqlarla unikal və səmərəli şəkildə birləşdirməyi bacaran liderdir. Məsələn, Macarıstan şirkətlərinin Azərbaycana sərmayə yatırımı, xüsusilə də enerji sektoruna maraq göstərmələri Budapeştin təkcə Bakı ilə deyil, bütün türk dünyası təmsilçiləri ilə möhkəm iqtisadi bazanın formalaşdırılması istiqamətində mühüm rol oynayır. Əgər nəzərə alsaq ki, qarşıdakı illərdə Orta Asiya və Cənubi Qafqaz dünya logistik proseslərinin mərkəzi rolunda çıxış edəcək, Budapeştin xarisi siyasətinin bu istiqaməti mənəvi və tarixi əhəmiyyət daşımaqla yanaşı, həm də praqmatik mahiyyət kəsb edir.

#### Vahid tarixə verilən dəyər

Macarıstan Türk Dövlətləri Təşkilatında müşahidəçi qismində iştirak edir. Ancaq Budapeşt keçirilən sayca ikinci olan qeyri-rəsmi Zirvə görüşünə evsahibliyi etməklə bir tərəfdən vahid tariximizə olan dəyəri nümayiş etdirir, digər tərəfdən isə Azərbaycana və dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsünə dəstəyini əməli addımı ilə göstərir. Çünki qeyri-rəsmi görüşlərin keçirilməsi təşəbbüsü məhz Azərbaycan liderinə məxsusdur və ilk belə bir Zirvə görüşü Şuşa şəhərində baş tutub. Bu, olduqca simvolik və rəmzi xarakter daşıyır. Çünki Azərbaycanın işğaldan azad etdiyi Qarabağ və Şərqi Zəngəzur türk dünyasının bu günü və sabahında olduqca vacib iqtisadi və siyasi proseslərin mərkəzi rolunda çıxış edir. Birincisi, torpaqlarımızın azadlığa qovuşması bu böyük coğrafiyanın həmrəyliyi prosesində keyfiyyətcə yeni mərhələnin əsasını qoyub. İkincisi isə bu bölgəmiz həyata keçirilən və keçirilməsi planlaşdırılan iri iqtisadi layihələrin mərkəzi bəndini təşkil edir. Dünya logistik əməliyyatlarının mərkəzi arteriyası olacaq Orta dəhliz layihəsinin bir istiqaməti də məhz işğaldan azad edilmiş bölgədən keçəcək ki, Azərbaycan burada tələb olunan infrastrukturun qurulması istiqamətində effektiv fəaliyyətini davam etdirir. Şübhəsiz ki, bir Avropa dövləti olaraq Macarıstanın dost və eyni köklərə malik olduğu türk dünyası təmsilçiləri ilə yaxınlığı ona ciddi siyasi və iqtisadi dividendlər qazandıracaq.

Şuşada keçirilən sayca birinci qeyri-rəsmi Zirvə görüşündə Viktor Orbanın iştirakı Azərbaycanın tarixi qələbəsinin dünyaya reallıq və ədalətin təntənəsi kimi qəbul etdirilməsi prosesində mühüm rol oynayıb. Birincisi ona görə ki, Orban bir Avropa dövlətinin lideridir. İkincisi və ən əsası isə Macarıstan Aİ-nin üzvüdür. Aİ o təşkilatdır ki, Azərbaycanın suverenliyini bərpa etməsi prosesində heç də hər zaman ədalətli mövqelərdən çıxış etməyib. Bütün bunlara rəğmən Macarıstan liderinin Şuşaya gəlməsi və siyasi qətiyyət nümayiş etdirməsi onun nə qədər prinsipial və xarizmatik dövlət başçısı olduğunu sübut edir. Macarıstan Cəbrayıl rayonunun Soltanlı kəndinin tam bərpasını həyata keçirir. Bu, Azərbaycan dövlətində və xalqında səmimi rəğbət yaratmaya bilməz. Hazırkı yaxın əlaqələrimiz və bu platformanın üzərində bərqərar olan strateji münasibətlərimiz məhz belə amillərdən ilhamlanır.

#### Siyasi münasibətləri qidalandıran iqtisadi potensial

Azərbaycan-Macarıstan gündəminin mərkəzi mövzularından biri təbii ki, iqtisadi əlaqələrdir. Bakı Avropanın 10 ölkəsini qazla təmin edir ki, onlardan səkkizi Aİ üzvləridir. Bu ölkələrdən biri də Macarıstandır. Ukrayna-Rusiya gərginliyindən ən çox iqtisadi zərər görən Avropa dövlətlərindən biri də Macarıstandır. Bu, həm onun Aİ üzvü olması, həm də Ukrayna ilə vahid sərhədinə görədir. Macarıstan Rusiya qazının sabit alıcısıdır. Hərbi əməliyyatlar mavi yanacağın etibarlı şəkildə Avropaya nəqlini mümkünsüz edir. Üstəlik, nəzərə almaq lazımdır ki, Ukrayna bu ilin əvvəlində öz ərazisindən keçən qaz kəmərlərinin fəaliyyətini dayandırıb. Bu gedişatdan ən çox əziyyət çəkən ölkələrdən biri də Macarıstandır və Viktor Orbanın dediyi kimi, belə bir reallıqda rəqabətədözümlü iqtisadiyyatın qurulmasından söhbət gedə bilməz.

Məhz bu baxımdan Azərbaycanın Macarıstana göstərdiyi enerji dəstəyi Budapeştdə yüksək qiymətləndirilir və birgə bəyanatın verilməsi mərasimində Viktor Orbanın bu məqam üzərində xüsusi dayanması olduqca əlamətdardır: "Cənab Prezident bizi əmin edib ki, ötən il olduğu kimi, bu il də Macarıstanın qaz təminatı təmin ediləcəkdir. Azərbaycan bizi əmin etmişdir ki, bizə lazım olan həcmdə qaz veriləcəkdir".

Azərbaycan Prezidentinin də mövzu ilə bağlı Macarıstanı əmin edəcək bəyanatla çıxış etməsi ikitərəfli münasibətlərin nə qədər möhkəm fundamentlər üzərində bərqərar olduğunu göstərir: "Biz keçən ildən etibarən Macarıstana təbii qazın ixracına başlamışıq. Mən bu gün qeyd etdim və Baş nazir burada qeyd etdi ki, biz Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə bilərik. Bizim qaz resurs bazamız kifayət qədər genişdir və genişlənir, yeni qaz yataqları istismara veriləcək. Biz bu gün 12 ölkəyə təbii qaz ixrac edirik. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Əgər biz qaz ixracının coğrafiyasına baxsaq, görərik ki, burada nəinki Avropa məkanında, dünya miqyasında boru xətti ilə nəql edilən qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir".

Azərbaycanla Macarıstanın enerji gündəmində daha iki məqam var. Bunlardan birincisi, macar şirkətlərinin Azərbaycanın neft və qaz yataqlarının istismarı prosesinə qoşulmalarıdır. Macarıstan şirkətləri Azərbaycanın əsas iki neft və qaz layihəsində pay sahibidir - "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında. Prezident İlham Əliyevin Budapeştdə bildirdiyinə görə, gələn ilin əvvəlində Macarıstanla növbəti kontrakt imzalanacaq. Macarıstan lideri bu məsələyə ciddi önəm verir: "Macarıstanın MVM və digər şirkətləri Azərbaycanda neft-qaz yataqlarında, boru kəmərlərində səhmlərini artıra bilər. Mən şadam ki, müəyyən həcmdə qaz ehtiyatları və neft barelləri bizim ixtiyarımızdadır. Ola bilər bu, Azərbaycan üçün çox böyük həcm deyil. Ancaq bizim üçün bu, çox vacib bir məsələdir ki, Azərbaycanın neft yataqlarında payçıyıq. Bu, təkcə iqtisadi baxımdan deyil, sırf mənəvi baxımdan da vacibdir. Bu dostluq sayəsində biz özümüzü daha az mürəkkəb vəziyyətdə, həssas vəziyyətdə hiss edirik".

İkinci məsələ isə modern dünyanın əsas iqtisadi trendlərindən biri olan "yaşıl enerji" sahəsindəki əməkdaşlıqdır. Macarıstan Azərbaycanda istehsal olunacaq ekoloji cəhətdən təmiz enerjinin Avropaya nəqlini təşkil edəcək beynəlxalq konsorsiumun dörd üzvündən biridir. Gürcüstan və Rumıniyanın da daxil olduğu bu işbirliyi əsasında Azərbaycanın bərpaolunan ekoloji cəhətdən təmiz enerjisi Qara dənizin dibi ilə Avropaya nəql ediləcək. Bu prosesin ilkin son ünvanı kimi Macarıstan göstərilir, ancaq şübhə yoxdur ki, tələbatın aktivliyi baxımından Budapeşt Avropa üçün bir qovşaq rolunda da çıxış edə bilər.

Beləliklə, Azərbaycan Prezidentinin Macarıstana işgüzar səfəri Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə toplantısı fonunda ikitərəfli münasibətləri müzakirə etmək üçün olduqca əlverişli zaman kəsiyinə təsadüf edir. Dünyanın qlobal problemləri bölgələrimizə və dövlətlərimizə də təsirsiz ötüşmür. Belə bir reallıqda ümumi maneələrə müştərək yanaşma və addımların konsolidasiyası həm Macarıstan, həm də Azərbaycan üçün olduqca vacibdir. Dövlətimizin maraqları və liderlərimizin prinsipial mövqeyi hər iki ölkə üçün optimal çıxış yollarının tapılmasının başlıca təminatçısıdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*



## Tarixi köklərə əsaslanan strateji tərəfdaşlıq

### Dostluğa söykənən Macarıstan-Azərbaycan əlaqələri uğurla inkişaf edir

**Azərbaycan və Macarıstan strateji tərəfdaşlıq əlaqələrinə malik dost ölkələrdir. Respublikamız türk dövləti Macarıstan ilə münasibətlərin inkişafına daim əhəmiyyət verir və iki ölkə arasında əməkdaşlığın bugünkü yüksək səviyyəsi Azərbaycan və macar xalqları arasında dərin köklərə malik sıx əlaqələrin təməlləri üzərində qurulub.**

Prezident İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban arasında olan səmimi dostluq münasibətləri əzəldən var olan Macarıstan-Azərbaycan əlaqələrini daha da dərinləşdirib, sarsılmaz edib. Hər iki ölkənin rəhbərlərinin şəxsi səyləri ilə bu gün Azərbaycanla Macarıstan istər siyasi, iqtisadi, istərsə də digər sahələrdə eyni mövqedə dayanaraq dünyanın yeni çağırışlarına adekvat reaksiya verirlər. Ən ümdəsi isə iki qardaş ölkənin hər zaman birbirlərinin yanında olması, bir-birilərinə dayaq-dəstək verməleridir.

"Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə - diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub", - deyə Macarıstanın Baş naziri Viktor Orbanın Budapeştdə Prezident İlham Əliyevlə birgə mətbuata bəyanatı zamanı dediyi kimi.

#### "Eyni çağırışlarla üz-üzəyik"

Azərbaycan və Macarıstan arasındakı diplomatik əlaqələr ölkəmizin yenidən müstəqilliyini bəyan etməsindən cəmi 1 il sonra - 27 aprel 1992-ci ildə qurulub. 2009-cu ildə Macarıstanın Azərbaycandakı, 2004-cü ildə isə Azərbaycanın Macarıstandakı səfirliyi açılıb. Ötən müddətdə iki ölkə arasında həm diplomatik, həm də digər sahələrdəki əlaqələr yüksək səviyyədə inkişaf edib. 2014-cü ildə imzalanmış Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm rol oynayıb. 2023-cü ilin yanvarında imzalanan Genişləndirilmiş Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoymasına mühüm zəmin yaradıb. Xüsusilə bu sənəd enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi sahəsində ortaq maraqları vurğulayaraq "Cənub qaz dəhlizi" (CQD) layihəsinin əhəmiyyətini, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində müstəsna rolunu göstərir.

Azərbaycan ötən ildən etibarən Macarıstana təbii qazın ixracına başlayıb. Qeyd edək ki, bu gün ölkəmiz 12 ölkəyə təbii qaz ixrac edir ki, onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır.

Macarıstan ilə Azərbaycan arasında təkcə enerji sahəsində deyil, digər sahələrdə də əlaqələr uğurla inkişaf edir.

Mayın 20-də Prezident İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Macarıstanda işgüzar səfərdə oldu. Həmin zaman sözügedən ölkənin baş naziri ilə mətbuata bəyanatlarla çıxış etdikləri zaman dövlətimizin başçısı vurğuladı ki, biz dost ölkələrik, strateji tərəfdaşıq.

Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar olduğunu və bu oxşarlıqların qarşılıqlı anlaşma üçün də gözəl zəmin yaratdığını bildirən ölkəmizin başçısı əlavə etdi: "Çünki biz demək olar ki, eyni çağırışlarla üz-üzəyik".

#### Milli maraqların keşiyində

Azərbaycan və Macarıstanı birləşdirən digər oxşarlıq isə hər iki ölkənin müstəqil siyasət yürütməsi və milli maraqlarını qətiyyətlə qorumasıdır. Danılmaz reallıqdır ki, həm Prezident İlham Əliyevin, həm də Baş nazir Viktor Orbanın öz dövlətlərinin və xalqlarının milli mənafelərini istənilən güclərə qarşı prinsipiallıqla müdafiə etmələri sayəsində Azərbaycan və Macarıstan dünyada sözükeçən ölkələrə çevriliblər. Azərbaycanın 44 günlük müharibədə və 23 saatlıq antiterror tədbirlərində zəfər qazanması sayəsində bölgədə tamamilə yeni reallıqlar yaratması ölkəmizin beynəlxalq arenadakı nüfuzuna nüfuz qatıb. Azərbaycan Prezidentinin qətiyyətli siyasətinin Cənubi Qafqazla bağlı qərəzli mövqedə dayanan xarici qüvvələrin planlarını pozması da bir başqa gerçəklikdir.

Prezident İlham Əliyevin təbirincə desək, Avropa İttifaqına daxil olan ölkə kimi Macarıstanın da öz milli maraqlarını qətiyyətlə qoruması əsl qəhrəmanlıqdır.

Məhz Baş nazir Viktor Orbanın yürütdüyü siyasət nəticəsində Macarıstan Aİ məkanında öz milli maraqlarına təhdid olan proseslərin qarşısına sədd çəkə bilib. Macar cəmiyyətinə yad, aşındırıcı cəhdlərin qarşısı hər zaman qətiyyətlə alındığı üçün bu ölkədə milli-mənəvi dəyərlər neqativ təsirlərdən qorunub.

Həmçinin Macarıstanın Baş naziri Viktor Orban hər zaman baş verən geosiyasi prosesləri düzgün dəyərləndirərək prinsipial mövqe sərgiləməsi və Aİ daxilində öz müstəqil siyasətini həyata keçirməyi bacarması ilə də diqqət çəkir, rəğbət görür.

Bununla bağlı yuxarıda sözügedən bəyanatında dövlətimizin başçısı İlham Əliyev söylədi ki, Macarıstan müstəqil siyasət aparan nadir ölkələrdən biridir. Xüsusilə Avropa İttifaqı çərçivəsində müstəqil siyasət aparmaq kifayət qədər çətindir. Çünki bir çox qaydalar var, bir çox oturuşmuş prinsiplər var və Avropa İttifaqının vahid xarici siyasəti təbii olaraq prinsiplərdən biridir.

"Buna baxmayaraq, dostum Viktor Orban həmişə Macarıstanın dövlət və milli maraqlarını hər şeydən üstün tutub...

...Yenə də deyirəm, Avropa İttifaqının içində ola-ola bu siyasəti aparmaq, deyə bilərəm ki, doğrudan da, böyük qəhrəmanlıq tələb edir, siyasi iradə tələb edir və düşünülmüş siyasət tələb edir. Bütün bunlar da Macarıstanda var. Biz Macarıstanı çox sevirik, o cümlədən bu amillərə görə", - deyə dövlətimizin rəhbəri əlavə etdi.

Azərbaycanın xüsusi səyləri ilə bu gün dünyada nüfuzlu mövqeyə yüksələn Türk Dövlətləri Təşkilatı da ölkələrimizi birləşdirən bir başqa mühüm platformadır. Macarıstan TDT-də müşahidəçi ölkədir və təşkilatın qeyri-rəsmi Zirvə görüşünə bu dəfə məhz bu ölkə evsahibliyi edir.

Bütün bunlar da göstərir ki, Macarıstan və Azərbaycan etibarlı tərəfdaş, dost, strateji müttəfiq olmaqla yanaşı, həm də yeni və ədalətli dünya nizamının qurulması istiqamətində çağırışlara birgə qoşulan məsuliyyətli ölkələrdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycanın dostu və tərəfdaşı

**Azərbaycanın Yaxın Şərq siyasəti yalnız müsəlman dünyası ilə bitmir. Respublikamız dövlət müstəqilliyini əldə etdikdən sonra münasibətlərini davamlı və qarşılıqı şəkildə inkişaf etdirdiyi ölkələrdən biri də İsraildir.**

İsrail böyük dövlətlər sırasına daxil olmasa da, beynəlxalq münasibətlər sistemində özünün xüsusi yeri, çəkisi, nüfuzu və dəst-xəti olan ölkədir. Bu baxımdan, İsrail dövləti ilə əlaqələrin inkişafına böyük önəm verilməsi ölkəmizin milli maraqlarının təmini baxımından müstəsna əhəmiyyətə malikdir.

### Münasibətlərin dinamik və hərtərəfli inkişafı məmnunluq doğurur

İsrail Azərbaycanın dövlət müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımış, 1992-ci ilin aprelindən isə iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. Ötən əsrin 90-cı illərindən bəri həyata keçirilmiş səfər mübadilələri, səmərəli əməkdaşlıq mexanizmlərinin qurulması ikitərəfli əlaqələrin yüksək səviyyəyə çatmasına gətirib çıxarmışdır. Hazırda iki dövlət arasında uğurlu siyasi, iqtisadi və hərbi əməkdaşlıq əlaqələri, eləcə də strateji dialoq mövcuddur. Ən əsas məsələlərdən biri də odur ki, İsrail Azərbaycanı daim dəstəkləyən dost dövlətlərdən biridir. Torpaqlarımızın işğal altında olduğu illərdə İsrail dövləti hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı da İsrailin dəstəyini hiss edib.

Azərbaycan və yəhudi xalqları arasındakı dostluq və qardaşlıq əlaqələrinin tarixi qədimdir. Yəhudilər Azərbaycanda əsrlər boyu əmin-amanlıq şəraitində yaşamış, digər azsaylı millətlər kimi heç bir ayrı-seçkiliyə və diskriminasiyaya məruz qalmamışlar. Ölkəmizdə yəhudilərə həmişə yaxşı münasibət bəslənilmiş və burada heç zaman antisemitizm halları olmamışdır. Azərbaycan ərazisində yaşayan yəhudilər də vaxtilə ermənilər tərəfindən soyqırımına məruz qalmışlar. Bu mənada Azərbaycan və İsrail arasında qarşılıqlı dostluq yalnız siyasi-iqtisadi əməkdaşlığa deyil, həm də tarixi köklərə əsaslanır. Hər iki ölkəni yaxınlaşdıran daha bir amil isə Azərbaycanda yəhudi diasporunun və İsraildə Azərbaycandan getmiş on minlərlə yəhudinin yaşamasıdır. Buna görə də Azərbaycan-İsrail dostluğunu təkcə siyasi və iqtisadi amillərlə səciyyələndirmək düzgün deyil.



Prezident İlham Əliyevin İsrail Dövlətinin milli bayramı - Müstəqillik Günü münasibətilə bu ölkənin Prezidenti İsxak Hersoqa ünvanladığı təbrik məktubunda deyilir: "Azərbaycan ilə İsrail arasında mövcud olan dostluq əlaqələrinin və əməkdaşlığın yüksək səviyyəsi xalqlarımızın tarixi bağlılığının, bir-birinə bəslədiyi hörmətin və rəğbətin bariz ifadəsidir. Qarşılıqlı etimad və dəstək kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-İsrail dövlətlərarası münasibətlərinin dinamik və hərtərəfli inkişaf etməsi məmnunluq doğurur".

### Hərbi sahədə əməkdaşlıq davam edir

Hazırda dünyada ksenofobiyanın, dini zəmində qarşıdurmaların kəskinləşdiyi bir dövrdə Azərbaycanla İsrail arasında olan münasibətlər bir növ model rolunu oynayır. Eyni zamanda bu əlaqələr multikulturalizm və tolerantlıq dəyərlərinin bəşəriyyətin firavanlığı naminə getdikcə daha da önəm kəsb etməsinin göstəricisidir.

2023-cü ildə İsraildə Azərbaycan səfirliyinin açılması ölkələrimiz arasında tərəfdaşlığın inkişaf etdiyini və münasibətlərin, strateji tərəfdaşlığın yeni mərhələyə yüksəldiyini göstərir.

Bu gün İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasındadır. İki dövlət arasında qarşılıqlı investisiya, həmçinin energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və digər sahələr üzrə səmərəli əməkdaşlıq mövcuddur. Bu ölkə idxal etdiyi neftin bir qismini Azərbaycandan alır. Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalardır.

Həmçinin Azərbaycan və İsrail etibarlı hərbi tərəfdaşlıq münasibətlərinə malikdir. Uzun illərdir iki dövlət arasında müdafiə sahəsində sıx əməkdaşlıq mövcuddur. Azərbaycanın hərbi sənayesinin formalaşmasında İsrail əhəmiyyətli müttəfiq kimi mühüm rol oynayır.

Azərbaycan-İsrail hərbi əməkdaşlığı yüksələn xətlə davam edir. Bu günlərdə Azərbaycan Müdafiə Nazirliyinin rəhbər heyətinin İsrailə rəsmi səfəri bundan xəbər verir. Səfər çərçivəsində Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun İsrailin müdafiə naziri İsrael Katz və Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Eyal Zamirlə görüşlərində hərbi əməkdaşlığın inkişaf perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılıb. Nümayəndə heyətinin səfəri zamanı hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər və perspektiv planlar müzakirə olunub.

Azərbaycanla İsrail arasında tarixin sınaqlarından çıxan əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf edir. Onu da vurğulamalıyıq ki, Azərbaycan-İsrail əlaqələri ikitərəfli xarakter daşıyır və heç bir dövlətlə münasibətlərə xələl gətirmir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycan müstəqil xarici siyasəti ilə milli maraqlarını uğurla təmin edir

**Mayın 16-da Albaniyanın paytaxtı Tiranada keçirilən "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısı Avropanın siyasi həyatında mühüm hadisə oldu. Prezident İlham Əliyevin bu sammitə dəvət olunması, dövlət başçısının Zirvə toplantısında iştirakı və keçirdiyi görüşlər ölkəmizin beynəlxalq nüfuzunun göstəricisidir.**



Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Mübariz Qurbanlı bildirib ki, dünya nizamının dəyişdiyi bir şəraitdə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısının keçirilməsi Avropanın siyasi və iqtisadi prioritetləri ətrafında dialoq və əməkdaşlığın gücləndirilməsinə xidmət edir: "Təsadüfi deyil ki, Zirvə toplantısında müzakirə olunan məsələlərdən biri Avropanın yeni dünya kontekstində lider mövqe tutması mövzusuna həsr olunmuşdu. Son dövrlərdə siyasi qütblər arasında ziddiyyətlərin kəskinləşməsi və ya onlar arasında münasibətlərin yeni məzmun alması Avropanı, xüsusən Avropa İttifaqını dərindən düşündürür və narahat edir. Avropanı təmsil edən 50-yə yaxın ölkədən dövlət və hökumət başçısının Zirvə toplantısında iştirak etmək üçün Tiranaya səfər etməsi bu məsələyə olan böyük maraqdan xəbər verirdi. Prezident İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə yanaşı, Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirakı göstərir ki, Azərbaycanın regional və qlobal proseslərdə iştirakı və ya bu proseslərə təsiri Avropa İttifaqı tərəfindən maraqla qarşılanır, eyni zamanda düzgün dəyərləndirilir".

Son bir neçə ildə Avropa İttifaqının Azərbaycanla münasibətlərin sərinləşməsinə gətirib çıxaran addımlar atdığını xatırladan deputat qeyd edib ki, xüsusən Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra bu qurumun Ermənistanı müdafiə edən mövqe ortaya qoyması, Ermənistan tərəfində müşahidə missiyası adı altında həyata keçirdiyi "binokl diplomatiyası" əlaqələrdə soyuqluq yaradıb. Bu məsələdə əsas rolu Avropa İttifaqının əvvəlki administrasiyasının Azərbaycana qarşı ədalətsiz münasibəti oynayıb.

M.Qurbanlı vurğulayıb ki, dəyişikliklərə məruz qalan dünya nizamı Avropa İttifaqını bu cür siyasi fəaliyyətdən imtinaya vadar edir: "Hazırda özünün iqtisadi və enerji təhlükəsizliyi ətrafında daha çox düşünməyə məcbur olan Avropa İttifaqının yeni administrasiyası bu məsələlərdə Azərbaycanla tərəfdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini, Ermənistanın isə Avropanın maraqları baxımından heç bir rol oynamadığını başa düşür. Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfərinin də əsas səbəbi bu idi".

Siyasətçi bildirib ki, Prezident İlham Əliyevin Tiranada Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə görüşündə də Azərbaycanla tərəfdaşlığa verilən önəm aydın ifadə olunub. Həm Antonio Koşta, həm də Ursula fon der Lyayen Azərbaycanın Avropa İttifaqının vacib və etibarlı tərəfdaşı olduğunu bildirərək, ölkəmizin, xüsusilə Avropanın enerjiyə ehtiyacı olan zaman göstərdiyi dəstəyi yüksək qiymətləndirdiklərini bildiriblər. Bununla yanaşı, Azərbaycanın Orta dəhlizdə aparıcı rolu, regionda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin olunmasında müxtəlif tərəflər arasında dialoqun aparılması üçün platforma rolu oynadığı da ifadə olunub. Bütün bunlar bir daha göstərir ki, Avropa İttifaqı Cənubi Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq siyasətinin həyata keçirilməsində Azərbaycanın etibarlı tərəfdaş olduğunu anlayır. Bundan çıxış edərək Avropa İttifaqı həm də Azərbaycanı regionun lideri, Prezident İlham Əliyevi isə həm Cənubi Qafqaz regionunda, həm də qlobal səviyyədə gedən proseslərə təsir edə bilən siyasi lider kimi qəbul edir. Cənab İlham Əliyevin Zirvə toplantısı zamanı Avropanın siyasi liderləri ilə səmimi görüşləri də deyilənlərin təsdiqi sayıla bilər. Bütün bu görüşlərdə Prezident İlham Əliyevə göstərilən yüksək ehtiramın şahidi olduq.

M.Qurbanlı qeyd edib ki, bütövlükdə, "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısı Azərbaycanın çoxvektorlu xarici siyasəti ilə beynəlxalq səviyyədə nüfuzlu və ehtiram göstərilən dövlətə çevrildiyini bir daha təsdiqlədi. Ona görə Avropa İttifaqı da özünün siyasi və iqtisadi arxitekturasında Azərbaycanla tərəfdaşlığa önəm verir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycan-İran münasibətləri möhkəm təməl üzərində inkişaf edir

### İki ölkə arasında əlaqələrin yüksəlməsi regionda sabitliyə, təhlükəsizliyə töhfə verir

**Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlar həm də region ölkələri arasında əməkdaşlığa geniş imkanlar açıb. Onsuz da qonşu dövlətlərlə münasibətlər hər zaman Azərbaycanın xarici siyasətinin prioritet istiqamətini təşkil edib. Bu baxımdan, Qarabağ zəfərinin yaratdığı gerçəkliklərin fonunda İran - Azərbaycan münasibətləri qabarıq şəkildə diqqət çəkir.**

Ortaq tarixi keçmişə malik iki ölkənin bir çox sahələrdə birgə əməkdaşlıqda maraqlı olmalarını və son dövrlər əməkdaşlıqlarını xüsusilə dərinləşdirmələrini müşahidə etməyimiz də onu deməyə əsas verir ki, İran - Azərbaycan əlaqələri qarşılıqlı etimad əsasında inkişaf edir. 28 apreldə İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfər etməsi də bunun əyani təsdiqidir.

Sözügedən tarixdə Prezident İlham Əliyev İranın Prezidenti Məsud Pezeşkian ilə geniş tərkibdə görüşü zamanı da vurğuladı ki, həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə əməkdaşlığın dərinləşməsi iki qardaş xalqın marağındadır.

Həmin görüşdə Prezident Məsud Pezeşkianın, "Sizin, Azərbaycanın və əziz Azərbaycan xalqının Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq. Biz inanırıq ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və buna hörmətlə yanaşırıq. Təbii ki, bizim burada olmağımız əlaqələrimizin və birliyimizin möhkəmlənməsinə imkan yaradacaq", - deməsi özlüyündə həm də İran - Azərbaycan əlaqələrinə daim kölgə salmaq istəyən qüvvələrə, - bu siyahının başında Ermənistan gəlir, - ismarışı kimi də dəyərləndirilməlidir.

### Yüksələn xətlə inkişaf edən əlaqələr

Elə bu günlərdə Azərbaycanda - işğaldan azad edilmiş ərazilərimizdə "Araz-2025" birgə təlimlərinin keçirilməsi də Azərbaycan - İran münasibətlərinin yeni mərhələsini və iki ölkə arasında xoşməramlı əlaqələri bir daha nümayiş etdirdi.

Azərbaycanın - İrana münasibəti həmişə xoşməramlı olub. Lakin maraqlı dairələrin mənfur planları nəticəsində əvvəllər bu iki ölkə arasında münasibətlərin gərgin keçdiyi dönəmlərin olduğu həqiqəti də ortadadır. Xüsusilə İrəvan İran - Azərbaycan əlaqələrinin hər zaman pis olmasında maraqlı olub və bu gün də bu istiqamətdə çirkin planlar həyata keçirir. Ancaq Azərbaycanın nümayiş etdirdiyi siyasi iradə sayəsində İran ilə Azərbaycan arasında əlaqələrin pozulması istiqamətində həyata keçirilən bütün maraqlı dairələrin mənfur planları suya salınıb. Yuxarıda vurğuladığımız kimi, Məsud Pezeşkianın Azərbaycana səfəri də göstərdi ki, İranla əlaqələrin möhkəmləndirilməsi və münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qalxması üçün hər hansı maneə yoxdur və hazırda bu əlaqələrin möhkəmləndirilməsi üçün tarixi imkan yaranıb. Bu həqiqəti İran Prezidenti Məsud Pezeşkianla birgə mətbuata bəyanatlarla çıxışı zamanı dövlətimizin başçısı İlham Əliyev də diqqətə çatdırmışdı: "Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıb. Bu gün dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində inkişaf edir. İran Prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür".






Qeyd edək ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu günlərdə İrana səfəri, Tehran Dialoq Forumu çərçivəsində keçirdiyi mühüm görüşlər də Azərbaycanla İran arasındakı münasibətlərin müsbət istiqamətdə inkişafından xəbər verir.

İran - Azərbaycan əlaqələrinin yüksələn xətlə inkişafı ümumilikdə regionda sabitliyə, təhlükəsizliyə, əməkdaşlığa geniş qapılar açır. İki ölkə arasında gerçəkləşdirilən "Araz dəhlizi" layihəsi də bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Bu layihə İran ərazisi vasitəsilə Azərbaycanın Şərqi Zəngəzur İqtisadi Rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək. Araz çayının üzərindən keçən və "Araz dəhlizi" adlanan Kəlalə-Ağbənd layihəsi - Kəlalə-Ağbənd-Cəbrayıl-Füzuli-Ağdam-Yevlax-Gəncə-Tbilisi-Batumi marşrutu Fars körfəzini Qara dənizlə birləşdirəcək.

### Hərbi əməkdaşlıq dərinləşir

Siyasi, iqtisadi və digər sahələrdə olduğu kimi, ölkəmizin İranla hərbi əməkdaşlığı da inkişaf etdirilir. Azərbaycanda İranla birgə "Araz-2025" birgə təliminin keçirilməsi də ölkələrin hərbi əməkdaşlığının tərkib hissəsidir. Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin verdiyi məlumata görə, İran hərbi qulluqçuları və digər iştirakçılar təlimlərdə iştirak etmək üçün Azərbaycana gəliblər. Təlimlərin rəhbərləri ilə hər iki ölkənin digər yüksəkrütbəli nümayəndələri arasında görüş baş tutub. İclasda ortaq təlimlərin məqsədi, onların ssenarisi və yeri, hazırlıq prosesi, təhlükəsizlik qaydaları, eləcə də müxtəlif mərhələlərdə yerinə yetiriləcək tapşırıqlar barədə brifinq təqdim olunub.

Birgə təlimin açılış mərasimində də Azərbaycan-İran hərbi əməkdaşlığının dərinləşməsində "Araz-2025"-in əhəmiyyəti qeyd olunub. Bildirilib ki, bu təlim ölkələrimiz və onların Silahlı Qüvvələri arasında qarşılıqlı etimadın artırılmasına xidmət edir.

"Araz-2025" birgə təlimi mayın 21-dək Azərbaycanın işğaldan azad edilmiş ərazilərində keçirilir.

Onu da vurğulamalıyıq ki, birgə təlimin işğaldan azad edilmiş ərazilərimizdə keçirilməsinin mühüm əhəmiyyəti var. Bu təlim Azərbaycan-İran hərbi əməkdaşlığının göstəricisi olmaqla yanaşı, ölkələrimiz arasında münasibətlərin yaxşı olmasını istəməyən mənfur qüvvələrə gözdağıdır. Həmçinin adıçəkilən birgə təlimin məhz Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın İranda səfərdə olduğu dönəmdə gerçəkləşməsi isə Tehranla "sarsılmaz" əlaqələrinə güvənərək təcavüzkar siyasətini davam etdirmək niyyətində olan İrəvana əsl həqiqətlərin necə olduğunu başa salmaqdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanla Macarıstanı həm də neft-qaz layihələri birləşdirir

**Azərbaycan-Macarıstan münasibətlərinin yüksələn dinamikası, qarşılıqlı rəsmi səfərlər, ali səviyyədə görüşlər və keçirilən tədbirlər iki ölkə arasında iqtisadi əlaqələrin də genişlənməsinə böyük təkan verir. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə bu dost ölkəyə rəsmi səfəri mühüm əhəmiyyət kəsb etdi. Bunu hər iki ölkə rəhbərinin mayın 20-də mətbuata verdikləri bəyanatlardan da aydın görmək olur.**

Əvvəla qeyd edək ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin də davamlı inkişafı müşahidə olunur. Azərbaycan və Macarıstan geniş iqtisadi potensiala malik ölkələrdir. İki ölkə arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə və bir sıra digər sənədlər iqtisadi əməkdaşlığın daha da genişlənməsində əhəmiyyətli baza rolunu oynayır. Ticarət əməliyyatları getdikcə artır. Ölkəmizdə Macarıstan investisiyalı çoxsaylı şirkətlər, əsasən, kənd təsərrüfat, nəqliyyat, ticarət, xidmət sahələrində fəaliyyət göstərirlər. Ölkələrimiz qarşılıqlı surətdə bir-birinin iqtisadiyyatına investisiya yatırıb.

Azərbaycanın ərazi bütövlüyünü ardıcıl surətdə dəstəkləyən Macarıstanın şirkətləri Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulmasına da maraq göstərirlər. Belə ki, KESZ Qrupu Cəbrayılın Soltanlı kəndini yenidən quracaq və bununla da təqribən 6 min nəfər üçün yaşayış təmin ediləcək.

Bütün bunlarla yanaşı, enerji sahəsində də sıx əməkdaşlıq əlaqələri var. Əslində, bu sahədə əlaqələr daha genişdir. Məsələn, keçən il Macarıstanın "MVM Group" şirkəti "Cənub qaz dəhlizi" QSC-dən "Şahdəniz" qaz yatağının işlənməsi layihəsində 5 faizlik və "Azerbaijan Gas Supply Company Limited" (AGSC) şirkətindən "South Caucasus Pipeline Company"də 4 faizlik pay alıb.

Macarıstanın MOL şirkəti isə "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda 9,57, BTC-də isə 8,90 faizlik payla iştirak edir. Gələn ilin əvvəlində növbəti kontraktın imzalanacağı gözlənilir. Belə ki, Azərbaycanın qurudakı neft yataqlarında daha bir Macarıstan şirkəti fəaliyyətə başlayacaq.

Azərbaycanın qaz ixrac etdiyi 12 ölkədən biri məhz Macarıstandır. Macarıstanın Beynəlxalq Əlaqələr və Ticarət İnstitutunun tədqiqatçısı Zolton Egeresi bu günlərdə jurnalistlərə açıqlamasında vurğulayıb ki, Macarıstan üçün Azərbaycan həm də çox önəmli bir enerji mənbəyidir: "Yəni enerji sahəsində Macarıstan və Azərbaycan son illərdə çox yaxın və əhəmiyyətli münasibətlər qurublar. Məsələn, son illərdə Azərbaycandan Macarıstana qaz nəqli başlayıb və bu, çox vacibdir, çünki Ukraynadakı müharibəyə görə rəsmi Budapeşt enerji məsələsində çox həssasdır. Azərbaycanla bu sahədəki əməkdaşlıq bizim üçün böyük fürsətdir. Digər tərəfdən, son illərdə bir sıra macar enerji şirkətləri Azərbaycana daxil olub. Məsələn, Macarıstanın neft şirkəti indi fəal şəkildə Azərbaycanda görünür".




Mayın 20-də Azərbaycanın və Macarıstanın rəhbərlərinin məhdud və geniş tərkibdə görüşlərində, eləcə də mətbuata bəyanatlarında bu məsələlərdən ətraflı bəhs olunub. Dövlətimizin başçısı bildirib ki, biz keçən ildən etibarən Macarıstana təbii qazın ixracına başlamışıq: "Biz Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə bilərik. Bizim qaz resurs bazamız kifayət qədər genişdir və genişlənir, yeni qaz yataqları istismara veriləcək. Biz bu gün 12 ölkəyə təbii qaz ixrac edirik. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Əgər biz qaz ixracının coğrafiyasına baxsaq, görərik ki, burada nəinki Avropa məkanında, dünya miqyasında boru xətti ilə nəql edilən qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Bizim gələcəkdə qaz ehtiyatlarımızın işlənilməsi nəzərdə tutulur".

Ölkələrimiz "yaşıl enerji" sahəsində də geniş əməkdaşlığa başlayıblar. Xatırladaq ki, 17 dekabr 2022-ci ildə Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Prezident İlham Əliyev bu məsələyə də toxunaraq deyib: "Azərbaycanın çox böyükmiqyaslı "yaşıl enerji" gündəliyi vardır. Biz növbəti beş il ərzində 6 min meqavat gücündə "yaşıl enerji" istehsal edəcəyik. 500 meqavat son iki il ərzində yaradıldı, 6 min meqavat beş il ərzində təmin ediləcək. Mən bütün bu rəqəmləri kontraktlar əsasında deyirəm, yəni bu, reallaşacaq layihələrdir. Beləliklə, təkcə bu layihələr bizə təqribən 3-4 milyard kubmetr qaza qənaət etmək üçün imkan yaradacaq ki, bunun da əsas istiqaməti təbii ki, Türkiyə və Avropa ölkələri olacaqdır".

Təsadüfi deyil ki, Macarıstanın Baş naziri Viktor Orbanın bəyanatının da böyük hissəsi enerji məsələlərinə həsr olunub. Etibarlı tərəfdaşlığa yüksək dəyər verən baş nazir deyib: "Türk ölkələri olmasaydı, bu gün macar əhali enerjiyə 3-4 dəfə daha çox pul sərf etməli olardı. Cənab Prezident bizi əmin edib ki, ötən il olduğu kimi, bu il də Macarıstanın qaz təminatı təmin ediləcəkdir. Azərbaycan bizi əmin etmişdir ki, bizə lazım olan həcmdə qaz veriləcəkdir".

Viktor Orban bu fikrini böyük inamla səsləndirib. Çünki ona vəd verən İlham Əliyevdir! İstər dar, istərsə də gen gündə Azərbaycanla sınaqdan çıxmış dostluğa və tərəfdaşlağa əsaslanaraq Macarıstanda da yaxşı bilirlər ki, bizim Prezidentimizin sözü də imzası qədər güvənli və etibarlıdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan Dağıstanda zeytun bağı salacaq

**İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Yevlax Pilot Aqroparkın rezidenti "İsfa" MMC ilə Dağıstan Respublikasının İxraca Dəstək Mərkəzi arasında Əməkdaşlıq Memorandumu imzalanıb.**

"İsfa" MMC-nin direktoru Samir Xeyirbəyov və Dağıstan Respublikasının İxraca Dəstək Mərkəzinin rəhbəri Ruslan Abasquliyev imzaladıqları memoranduma əsasən, birinci mərhələdə "İsfa" MMC Dağıstan Respublikasının Dərbənd rayonunda cari ilin payızında 100 hektarlıq ərazidə zeytun bağı salacaq. Bağın salınmasında Yevlax Pilot Aqroparkda yetişdirilən ümumilikdə 165 min tingdən istifadə olunacaq. Sözügedən bağın suvarma sisteminin qurulmasını da "İsfa" MMC həyata keçirəcək. İkinci mərhələdə isə günlük istehsal gücü 100 ton olacaq zeytun yağı emalı zavodunun qurulması nəzərdə tutulur.

Layihənin ümumi dəyəri 7 milyon manata yaxındır.

## Dövlət xətti ilə 3,5 milyard manatdan çox ipoteka krediti verilib

**İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.**

İKZF-nin yaydığı məlumata əsasən, fondun xətti ilə indiyədək 54420 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ isə 3,507 milyard manatdır.

Bundan başqa, zəmanət və subsidiyalar verilmiş kreditlərin məbləği də məlum olub - 549,443 milyon manat. Bu dövrdə kirayəçilərin istifadəsinə 7 mindən çox yaşayış sahəsi verilib.

## Dünya birjalarında neft bahalaşıb
### "Azeri Light" isə ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,98 dollar artaraq 66,36 dollar olub.**

Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 1 dollar artaraq 63,03 dollar təşkil edib.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti isə 0,45 dollar və ya 0,66 faiz ucuzlaşaraq 67,17 dollar olub.

## Əlilliyi olan 40 mindən çox şəxsə reabilitasiya xidmətləri göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu ilin yanvar-aprel aylarında əlilliyi olan 40,1 min şəxsi reabilitasiya xidmətləri ilə təmin edib.**



Onlardan 21,8 mininə ambulator, 9 mininə stasionar və icma əsaslı, digərlərinə səyyar və onlayn formada, sosial-psixoloji, ippoterapiya istiqamətləri üzrə reabilitasiya xidmətləri göstərilib.

Agentliyin reabilitasiya müəssisələrində ənənəvi üsullarla yanaşı, qabaqcıl dünya təcrübəsinə uyğun reabilitasiya metodları (robotik, sosial-psixoloji reabilitasiya, yoqa, hippoterapiya, rəqs terapiyası və s.) də tətbiq edilir.

Həmçinin stasionar və ambulator xidmətlərlə bərabər, icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətləri göstərilir.

## Sosial Xidmətlər Agentliyi himayədar ailələrlə görüş təşkil edib

**DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən görüşdə qonaqlar üçün master-klas da keçirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi himayədar valideynlər və onların himayəsinə verilən valideyn himayəsindən məhrum uşaqlarla görüş təşkil edib.**



Nazirliyin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən görüşdə iştirakçılarla "Himayədar ailə" qayğı modeli ilə bağlı fikir mübadiləsi aparılıb.

Uşaqlarla davranış qaydaları, onların sosial reabilitasiyası və ailə himayəsində böyüməsinin üstünlüklərindən bəhs olunub.

Ümumilikdə 14 himayədar ailənin iştirak etdiyi görüşdə qonaqların təklifləri dinlənilib. Onlara DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə bağlı məlumatlar verilib.

Mərkəzin təlimçiləri tərəfindən qonaqlar üçün dulusçuluq, floristika, xalçaçılıq, muncuqla toxuma və bədii tikmə istiqamətləri üzrə master-klas da keçirilib.

Sonda onlara agentliyin Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzinin benefisiarları tərəfindən hazırlanmış simvolik hədiyyələr təqdim edilib.

## Ölkəmizin AQEM-də iştirakı yeni iqtisadi əməkdaşlıqlara yol açır

**Bu gün dünyada heç bir ölkə təkbaşına təhlükəsiz və rifah içində yaşaya bilməz. İqtisadiyyatların bir-birinə sıx bağlı olduğu, sərhədlərin isə daha çox mənəvi xarakter daşıdığı indiki zamanda sabitlik, sülh və qarşılıqlı əməkdaşlıq uğurlu inkişafın əsas şərtidir.**

Asiya qitəsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Qitədə yerləşən bir sıra ölkələr həm təbii sərvət baxımından olduqca zəngindir, həm də strateji mövqeləri sayəsində qlobal nəqliyyat və ticarət marşrutlarının əsas iştirakçılarıdır. Bu da onların iqtisadi inkişafını sürətləndirməyə imkan verir.

Məlumdur ki, iqtisadi inkişaf təhlükəsizlik olmadan mümkün deyil. Məhz bu reallığı nəzərə alaraq, Asiya ölkələri 1992-ci ildə bir araya gəlib Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəni (AQEM) yaratdılar. Qurumun çağırılması haqqında ilk təşəbbüsü həmin il oktyabrın 5-də BMT Baş Assambleyasının 47-ci sessiyası zamanı Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayev irəli sürdü. Platformanın əsas məqsədi Asiyada sülhün, təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi, dövlətlər arasında qarşılıqlı etimadın artırılması uğrunda və terrorizmə qarşı mübarizə sahələrində əməkdaşlığın dərinləşdirilməsidir. Çin, Rusiya, Hindistan, İran, Türkiyə, Pakistan, Azərbaycan və digər Asiya ölkələri daxil olmaqla AQEM-in üzv dövlətlərinin sayı 28-dir. Təşkilata üzv olmayan 10 dövlət və 5 beynəlxalq təşkilat isə AQEM-də müşahidəçi statusunda yer alır.

Bu gün dünya əhalisinin üçdəikisinin - təxminən 4 milyarda yaxın insanın Asiya qitəsində yaşadığını nəzərə alsaq, bu beynəlxalq platformanın planetimizin gələcək təhlükəsizliyinin təmin olunması, qlobal sülhün bərqərar edilməsi, qarşılıqlı etimadın müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət daşıdığını görərik. Azərbaycan AQEM-in fəal üzvüdür və platformada öz maraqlarını, o cümlədən regional təhlükəsizlik və əməkdaşlıq məsələlərini irəli sürür.

AQEM Nazirlər Şurasının 2024-cü il 19 mart tarixli qərarı ilə 2024-2026-cı illər üzrə müşavirəyə sədrlik ölkəmizə keçmişdir. Azərbaycanın AQEM-ə sədrliyi çərçivəsində bu təşkilatın Biznes Şurasına sədrlik Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən həyata keçirilir. Təşkilata sədrlik çərçivəsində AQEM-in Biznes Şurasına və Gənclər Şurasına sədrliyin də həmin dövr üçün Azərbaycan tərəfindən həyata keçirilməsi nəzərdə tutulub. Qeyd edək ki, 2025-ci ildə Azərbaycanda AQEM-in etimad tədbirlərinin həyata keçirilməsi planına 44 tədbir daxil edilmişdir. Bunlardan təxminən 20-si Azərbaycan tərəfindən təklif olunmuşdur ki, bu da AQEM-in 5 əsas iş istiqamətini əhatə edir: iqtisadi, ekoloji, insani və hərbi-siyasi ölçülər, yeni çağırışlar və təhdidlər ölçüsü.




İki gün öncə KOBİA-nın və AQEM Katibliyinin təşkilatçılığı ilə AQEM Biznes Şurasının 8-ci Plenar İclası və 10-cu biznes-forumunun Bakıda keçirilməsi də həmin tədbirlər planına daxildir və təsadüfi xarakter daşımır. Forumda AQEM-ə üzv dövlətlər arasında sənaye sahəsində əməkdaşlıq, KOB-ların qlobal dəyər zəncirində iştirakı və "yaşıl keçid"i, rəqəmsallaşma, qadın sahibkarlığının inkişafı, sərhədlərarası ticarət və e-ticarət, biznes sahəsində çağırışlar və imkanlar müzakirə edilib. 250-dən çox rəsmi şəxsin və iş adamının iştirak etdiyi tədbirin məqsədi AQEM-ə üzv dövlətlər arasında sahibkarlıq sahəsində əməkdaşlığı gücləndirmək, xüsusilə kiçik və orta biznesin (KOB) dəstəklənməsi, dövlətlərarası tərəfdaşlıqların qurulması, habelə regionda dayanıqlı, innovativ və inklüziv iqtisadi artımın təşviqinə yönəlmiş təşəbbüsləri irəliyə aparmaq olub.

Bu gün Azərbaycan öz iqtisadi inkişafı ilə istər regional, istərsə də qlobal səviyyədə həyata keçirilən beynəlxalq iqtisadi layihələrin aparıcı iştirakçısıdır. İlk növbədə qeyd etməliyik ki, coğrafi baxımdan Asiya ilə Avropanın kəsişməsində yerləşən Azərbaycan ticarət yollarının inkişafı üçün öz infrastrukturunu tamamilə yeniləyib. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Cənub qaz dəhlizi", yaxın illərdə istifadəyə veriləcək Zəngəzur dəhlizi və Xəzər ilə Qara dənizi birləşdirəcək elektrik enerji ixracı kabeli, eləcə də daxildəki digər infrastruktur layihələri AQEM dövlətləri üçün mühüm fürsətdir, ümumi inkişafa verilən böyük töhfədir.

Bu gün Azərbaycanda kiçik və orta bizneslərin rəqəmsal texnologiyalarla təkmilləşdirilməsi və avtomatlaşdırılması prosesi sürətlə həyata keçirilir. KOB müəssisələri onlayn satış və onlayn təlim platformaları, rəqəmsal reklam alətləri, mühasibatlıq proqramları, elektron faktura və ödəniş sistemləri kimi innovasiyalardan geniş istifadə edir. Nəticə etibarilə bu da xərclərin azalmasına, daha sürətli iş prosesinə, müştəriyə çıxışa yol açır və biznes strukturuna rəqabət üstünlüyü qazandırır. Bu sadalananlar fonunda qadın sahibkarlığın inkişafına açılan yollar onları öz bizneslərini qurmağa aparır. Sirr deyil ki, qadın sahibkarlığı iqtisadiyyatda qadınların fəallığının artması və onların müstəqil gəlir mənbəyi qazanması baxımından çox önəmlidir. Sahibkar qadınların "ağıllı" kənd və "ağıllı" şəhər layihələrində rolu bu yeni inkişaf modelində onların iqtisadi, sosial və innovativ töhfələr verməsini ifadə edir. Bu cür layihələrdə qadın sahibkarlar həm istehsalçı, həm xidmət təminatçısı, həm də ictimai təşəbbüsçü kimi fəal rol oynayırlar.

Nümunə olaraq Zəngilan rayonunun "ağıllı" kəndi olan Ağalını misal çəkə bilərik. Burada qadınlar öz məhsullarını satışa çıxarmaq üçün onlara rəqəmsal bacarıqlar aşılayan təlimlərdə iştirak edərək innovativ yenilikləri öyrənirlər. Forumda məhz bu deyilənlər - KOB-ların rəqəmsallaşdırılması, qadın sahibkarlığı, "ağıllı" şəhər təşəbbüsləri və "yaşıl transformasiya" kimi mövzular üzrə müzakirələr aparılıb. Biznes-forumda həmçinin AQEM çərçivəsində qarşıdakı dövrdə həyata keçiriləcək tədbir və təşəbbüslərə, eləcə də AQEM-in Biznes Şurasının 2026-cı ildə keçiriləcək 9-cu Plenar İclasına dair fikir mübadiləsi aparılıb.

Bakıda keçirilən biznes-forum bir daha diktə etdi ki, AQEM Asiya regionunda təhlükəsizliyin və əməkdaşlığın təmin edilməsində mühüm rol oynayan strateji platformadır. O, yalnız təhlükəsizlik və siyasi dialoq platforması deyil, həm də Asiyada iqtisadi əməkdaşlığın genişlənməsi üçün mühüm zəmin yaradan çoxtərəfli qurumdur. AQEM vasitəsilə üzv dövlətlər arasında ticarət, sərmayə, enerji, nəqliyyat və texnologiya sahələrində əməkdaşlıq imkanları ilbəil artırılır. Bu, həm regional iqtisadi inteqrasiyanın sürətlənməsinə, həm də dayanıqlı inkişafın təmin olunmasına dəlalət edir. Azərbaycanın bu platformadakı fəal iştirakı ölkəmizin həm iqtisadi maraqlarının qorunması, həm də Asiya bazarlarına inteqrasiya imkanlarının genişlənməsi baxımından strateji əhəmiyyət daşıyır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Burada Qarabağı və Şərqi Zəngəzuru yenidən quranlar yetişir

**44 günlük savaş Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazılmışdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli sərkərdə məharəti və Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində Ermənistan silahlı qüvvələri darmadağın edildi, düşmən diz çökdürüldü.**











Ərazilərimizin 20 faizini 30 il işğal altında saxlayan, cənnət ərazilərimizi odlara qalayıb xarabaya çevirən Ermənistan silahlı qüvvələri sonuncu əsgərinədək ölkəmizdən qovuldu.

Bu müqəddəs savaşda çox sayda igid oğullarımız sinələrini düşmən gülləsinə sipər edib həlak oldu, şəhidlik zirvəsinə ucaldı. Neçə-neçə cəsur övladımız döyüşlərdə yaralanıb sağlamlığını itirdi. Vətən sevdalı oğulların canı, qanı bahasına şanlı qələbə qazanıldı.

Beləcə barıt qoxulu Qarabağa və Şərqi Zəngəzura azadlıq günəşi doğdu. İnsanlığın üz qarası olan erməni vandallarının daş üstə daş qoymadığı yaşayış məntəqələrimiz indi bərpa və quruculuq dövrünü yaşayır. Kəndlər, şəhərlər min bir həvəslə yenidən qurulur. Doğma ocağa ata-baba yurduna qovuşan insanların sevinci hədsizdir.

Tarixi qələbənin, möhtəşəm quruculuğun baş memarı Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" bu gün uğurla həyata keçirilir. Proqramda bütün incəliklər nəzərə alınmışdır. Dövlət doğma yurda qayıdan hər bir gəncin müəyyən peşəyə sahiblənməsinə, quruculuq və bərpa işlərində yaxından iştirakının təmin olunmasına böyük önəm verir. Elə həmin məqsədlə də peşə təhsili mərkəzlərinin qarşısına konkret vəzifələr qoyulur. Bu istiqamətdə əldə edilən ilk nəticələr fərəhlidir. Ölkədə fəaliyyət göstərən 8 peşə təhsili müəssisəsində 42 ixtisas üzrə təlimlər keçirilir. Keçən il 215, bu il isə 526 nəfər təlimlərə cəlb olunub.

Bərdə Dövlət Peşə Təhsil Mərkəzi öz uğurları ilə hər zaman diqqət çəkib. Bu günlər təhsil mərkəzində maraqlı tədbir reallaşıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Bərdə Dövlət Peşə Təhsil Mərkəzində qisamüddətli təlimləri uğurla başa vuran müdavimlərlə görüş keçirilib. Görüşdə çıxış edən Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov müvafiq Dövlət Proqramının əhəmiyyətini vurğulayıb, yeni peşələrə yiyələnmiş gənclərə uğurlar arzulayıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Fatma Yıldırım bu gün Qarabağ və Şərqi Zəngəzurda vüsət alan tikinti, abadlıq, bərpa-quruculuq işlərindən ətraflı danışıb. Natiq yeni peşə vərdişləri qazanmış gəncləri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması prosesində fəal iştirak etməyə çağırıb, bunun dövlətimiz üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Bərdə Dövlət Peşə Təhsili Mərkəzinin direktoru Samir Nəcəfov isə söhbət zamanı deyib ki, bizim mərkəzdə güclü maddi-texniki baza yaradılmışdır: "Bütün gücümüzü, imkanlarımızı səfərbər edərək çalışırıq ki, qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsinə nail olaq. Qısamüddətli təlimlərin növbəti mərhələsi uğurla başa çatıb. Aqronom-texnik, qazanxana maşinisti, aşpaz və bərbər ixtisasları üzrə təlimləri uğurla başa vuran 61 müdavimə sertifikatlar təqdim olunub".

Samir müəllimin söhbətindən onu da öyrəndik ki, Bərdə Dövlət Peşə Təhsil Mərkəzində aqronom-texnik, aşpaz, avtomobil diaqnostikası və təmiri ustası, baytar köməkçisi, bərbər, elektrik-qaz qaynaqçısı, geniş profilli traktorçu, mühasib, qazanxana maşinisti, bağban-dekorator, isitmə-soyutma havalandırma sistemləri və avadanlıqları üzrə qısamüddətli təlimlər keçirilir. Cari ildə Bərdə şəhərində keçmiş məcburi köçkünlər də bu təlimlərə cəlb ediliblər. Təlimlərin müddəti proqramlara uyğun olaraq 1 aydan 3 ayadək müəyyən olunur.

Bərdə Dövlət Peşə Təhsil Mərkəzində baş tutan görüş maraqlı bir sonluqla yekunlaşıb. "Qarabağa peşənlə qayıt" videoçarxının təqdimatı tədbir iştirakçılarına xoş ovqat bəxş edib. Videoçarxın qəhrəmanı - elektrik avadanlıqlarının quraşdırılması və istismarı ixtisası üzrə təhsil almış və hazırda Qarabağda elektrik kimi fəaliyyət göstərən Toğrul Dadaşzadə qazandığı uğurlardan aldığı sevinci gənc həmkarları ilə paylaşıb.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Tovuzda Ulu Öndər Heydər Əliyevin təhsil sahəsindəki xidmətlərindən danışılmışdır

**Tovuz Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyasının rayon təşkilatı və Qazax-Tovuz Regional Təhsil İdarəsinin Tovuz rayonu üzrə Təhsil Sektorunun birgə təşkilatçılığı ilə "Azərbaycan təhsilinin inkişafında Ulu Öndər Heydər Əliyevin tarixi xidmətləri" mövzusunda tədbir keçirilmişdir.**

Ulu Öndərin abidəsini ziyarətlə başlayan tədbirdə çıxış edən YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov diqqətə çatdırmışdır ki, Ulu Öndər Heydər Əliyev hər zaman təhsili dövlətin və xalqın inkişafı üçün prioritet sahə kimi qiymətləndirib və onun təhsil sahəsində atdığı məqsədyönlü addımlar bu gün ölkəmizin uğurlu təhsil sisteminin əsasını təşkil edir. Nihad Pənahov əlavə etmişdir ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar, yeni təhsil müəssisələrinin yaradılması və təhsilin keyfiyyətinin artırılması istiqamətində atılan addımlar Ulu Öndərin ideyalarının davamı olmaqla gənc nəslin yüksək səviyyədə yetişməsinə böyük töhfə verir.

Sonra rayon icra hakimiyyəti başçısının müavini Təranə Bayramova çıxış edərək bildirmişdir ki, Ulu Öndər Heydər Əliyevin təhsil sahəsində gördüyü işlər ölkəmizin müasir inkişaf modelinin əsas sütunlarından biridir. "Təhsil cəmiyyətin rifahı və davamlı inkişafı üçün vacib sahə olduğu üçün bu sektorda çalışanların üzərinə böyük məsuliyyət düşür. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən təhsil proqramları və layihələr ölkəmizin dünya təhsil məkanında layiqli yer tutmasına hesablanıb və təhsil sisteminin müasirləşdirilməsində xüsusi əhəmiyyət kəsb edir".

Digər çıxış edənlər də Ulu Öndərin təhsil sahəsində gördüyü işlərin ölkəmiz üçün əhəmiyyətini qeyd etmiş və vurğulamışlar ki, Heydər Əliyevin xidmətləri müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, gənc nəsildə vətənpərvərlik və milli dəyərlərə hörmət hissinin formalaşması üçün möhkəm zəmin yaratmışdır.

Tədbirin sonunda bir qrup təhsil işçisinə təşəkkürnamələr təqdim olunmuş və YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri verilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ağdam Sənaye Parkında istehsal olunan divar kağızlarının Özbəkistana ixracına başlanılıb

**Ağdam Sənaye Parkının rezidenti "Mister Decor" MMC tərəfindən Özbəkistana divar kağızlarının ixracına başlanılıb. Bu ölkəyə ilkin mərhələdə 1,36 milyon manatlıq məhsulun göndərilməsi nəzərdə tutulub.**



Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan "Mister Decor" MMC Ağdam Sənaye Parkının 1,6 hektar ərazisində divar kağızlarının istehsalını həyata keçirir. İnvestisiya həcmi 8 milyon manat olan müəssisə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. Müəssisə il ərzində 2,1 milyon ədəd rulon divar kağızı istehsal etmək gücündədir.

## Voleybol turnirinin final mərhələsi keçirilib

**Yardımlı İdman Kompleksində Lənkəran- Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə ümumtəhsil məktəbləri arasında voleybol üzrə rayon turnirinin final mərhələsi keçirilib.**

28 May Müstəqillik Gününə həsr olunmuş yarışlardan öncə Azərbaycan Voleybol Federasiyasının prezidenti Şahin Bağırov, Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə və digər rəsmi qonaqların iştirakı ilə keçirilən tədbirdə çıxış edənlər ölkəmizdə idmanın inkişafına göstərilən diqqət və qayğıdan danışmış, bölgələrimizdə, o cümlədən Yardımlıda idman infrastrukturunun yüksək səviyyədə qurulduğu barədə tədbir iştirakçılarına məlumat vermişlər.

Turnirdə 8 komanda mübarizə aparmışdır. Gərgin mübarizə şəraitində keçən görüşlərdə I yerə Yardımlı şəhər V.H.Məmmədov adına 2 nömrəli tam orta ümumtəhsil məktəbinin "İstiqlal", II yerə Horavar kənd tam orta ümumtəhsil məktəbinin "Uğur", III yerə Sırıq kənd tam orta ümumtəhsil məktəbinin "Hilal" komandaları çıxmışlar. Qalib komandalar kubok, diplom və medallarla təltif olunmuşlar.

***"Azərbaycan"***

## 15 işəgötürəndən 90 vakansiya

**Neftçala Rayon İcra Hakimiyyətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin (DMA) Şirvan-Salyan Regional Məşğulluq filialının təşkilatçılığı ilə əmək yarmarkası keçirilib.**



Yarmarkada rayon icra hakimiyyətinin başçısının müavini, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Burcalı Ağayev, Şirvan-Salyan Regional Məşğulluq filialının müdir müavini Vüsal Əhmədov, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin Azərbaycandakı nümayəndəliyinin icma ilə əlaqələr üzrə mütəxəssisi Yaşar Qocayev, tərəfdaş şirkətlərin rəhbər şəxsləri, əməkdaşları və vətəndaşlar iştirak ediblər.

B.Ağayev tədbiri giriş sözü ilə açaraq Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayanmasını, vətəndaşların sosial durumu, rifahı və məşğulluğunun təmin edilməsinin dövlət idarəçiliyində əsas prioritet istiqamətlərdən biri olmasını diqqətə çatdırıb. Dövlət başçısının bu istiqamətdə verdiyi tapşırıqların, tövsiyələrin ardıcıl icra edildiyini, o cümlədən regionlarda əmək yarmarkalarının keçirilməsinin bu sahədəki silsilə tədbirlərdən biri olduğunu deyən RİH rəsmisi bu əmək yarmarkasının işaxtaranlar üçün faydalı olacağını söyləyib.

Yarmarkada 15 işəgötürən tərəfindən 90 vakansiya (əməkhaqqı 450-2000 manat aralığında) təqdim olunub. Filial tərəfindən təqdim edilən vakansiyalara dair tələblər təhlil olunaraq işsiz və işaxtaran şəxs kimi qeydiyyatda olan 450 nəfərə yaxın vətəndaşla iş aparılıb, tələblərə uyğun namizədlər yarmarkaya cəlb edilib. Cəlb edilən şəxslər sırasında müharibə iştirakçıları, qazilər və sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər yer alıblar.

İşəgötürənlər tərəfindən vakansiyalara müraciət edən şəxslərin CV-ləri qəbul olunaraq nəzərdən keçirilib, uyğun namizədlər növbəti mərhələyə dəvət ediliblər.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## Xəzərin Neftçala sahili təmizliyə çıxdı

**Neftçalada rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "22 May Biomüxtəliflik Günü" ilə əlaqədar Şirvanlı kəndi yaxınlığında Xəzər dənizinin sahilboyu çimərlik sahəsinə yaxın ərazidə təmizlik aksiyası keçirilib.**



Rayon icra hakimiyyətinin, aidiyyəti idarə, müəssisə və təşkilatların məsul şəxsləri, rayonun bir neçə inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri və bələdiyyələrin əməkdaşları, eləcə də Mənzil Kommunal Təsərrüfat İstehsalat Birliyinin işçiləri və gənc könüllülərin iştirak etdikləri aksiyada müəyyən edilmiş ərazi plastik qablardan, sellofan torbalardan, şüşə və digər əşyalardan təmizlənmiş, toplanmış tullantılar xüsusi nəqliyyat vasitəsilə ərazidən kənarlaşdırılaraq poliqona daşınmışdır.

***"Azərbaycan"***

## Şirvanda məskunlaşmış Qərbi Azərbaycan kökənli ziyalılar bir araya gəldilər

**Şirvanda "Qərbi Azərbaycanın maarif xadimləri" mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının Şirvan şəhəri üzrə nümayəndəsi Barxudar Barxudarov bildirib ki, XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlərlə yanaşı, İrəvan da Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olub.**

B.Barxudarov deyib ki, Azərbaycanın elm və mədəniyyət tarixinə "İrəvani" təxəllüsü ilə daxil olmuş və öz önəmli töhfələrini vermiş xeyli alim, ədəbiyyat və incəsənət xadimi var: "Mirzə Qədim İrəvani (1825-1875), Mirzə Məhəmməd İrəvani (1718-1799), Fazil İrəvani (1782-1885), Mirzə Müslüm İrəvani (1755-1823), Dəlil İrəvani (1763-1817), Əbdülqasım İrəvani (1774-1823) və digər görkəmli şəxsiyyətlərin yaradıcılığı bunu bir daha təsdiq edir. İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində, ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun təsiri bu gün də ədəbi-mədəni prosesdə hiss edilir".

İrəvanda ilk qəza məktəbinin 14 yanvar 1832-ci ildə açıldığını deyən natiq bu məktəbin bütövlükdə bölgədə qabaqcıl maarifçilik ideyalarının yayılmasında əhəmiyyətli dərəcədə rol oynadığını diqqətə çatdırıb: "XIX əsrin 70-ci illərindən başlayaraq, yeni üsulla tədris həyata keçirən dünyəvi məktəblərin sayı ildən-ilə artmağa başlayıb. Belə Azərbaycan məktəbləri İrəvanda (1880), Uluxanlıda (1881), Böyük Vedidə (1883), İmanşalıda (1883), Sürməli qəzasının Aralıx Baş kəndində (1884), Basarkeçərin Zod kəndində (1885), Çobankərədə (1890) və başqa bölgələrdə də açılaraq fəaliyyət göstərməyə başlamışdır. Dünyəvi məktəblərin getdikcə artması həmin təhsil müəssisələrində müəllim kadrlarına olan tələbatı daha da artırmışdır. Bunu nəzərə alaraq Rusiya Dövlət Şurasının 1880-ci il 20 oktyabr tarixli qərarına əsasən, İrəvan Müəllimlər Seminariyası yaradılmışdır".

B.Barxudarov daha sonra qeyd edib ki, 1988-1989-cu illərdə Qərbi Azərbaycanda tədrisi Azərbaycan dilində aparılan 155 məktəb və 38 beynəlmiləl məktəblərdəki Azərbaycan bölmələri bağlanmış, 48681 şagird və 3992 müəllim Ermənistandan zorakılıqla deportasiya edilmişdir.

Tədbirdə çıxış edən Şirvan Dövlət İqtisadiyyat və Numanitar Kollecin direktoru Xatirə Məlikova isə bildirib ki, Qərbi Azərbaycan məsələsi Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründən başlayaraq, bu günəcən dövlət siyasətinin vacib tərkib hissəsidir: "2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Azərbaycan xalqının tarixində dönüş nöqtəsi olmuşdur. Bu müharibə nəticəsində Azərbaycanın qazandığı Zəfər bölgədə yeni reallıq yaratmış və bu reallıq Qərbi Azərbaycandan zaman-zaman deportasiya edilən azərbaycanlıların öz tarixi vətənlərinə qayıtmaq arzusunun reallaşması üçün hüquqi zəmin formalaşdırmışdır".

Qərbi Azərbaycan İcmasının Şirvan şəhəri üzrə nümayəndəsinin müavini Əziz Abbasov, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin əməkdaşları Aidə Əsədova, Yeganə Müslümova, Gülnarə İbrahimova, Günel Abdullayeva, 21 nömrəli tam orta məktəbin direktoru Səadət Quliyeva çıxışlarında Şirvanda məskunlaşan Qərbi Azərbaycan ziyalılarının Şirvan təhsilinə verdikləri töhfələrdən danışıblar.

Sonra Sevda Həsənovanın rəhbərliyi ilə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollec tələbələrinin hazırladıqları bədii hissə təqdim olunub və tədbir iştirakçıları Qərbi Azərbaycanla bağlı hazırlanmış sərgiyə baxıblar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Daşkəsən təhsilindən nümunəvi addım

**Daşkəsəndə rayonun ümumtəhsil məktəbliləri arasında "28 May - Müstəqillik Günü" mövzusunda esse müsabiqəsi keçirilmişdir.**

Məktəblilərin vətənpərvərlik ruhunda tərbiyəsi, tarixi yaddaşın möhkəmləndirilməsi, dövlətçilik prinsiplərinə bağlılığın artırılması, hüquqi biliklərin və konstitusion dəyərlərin təbliği məqsədilə keçirilən müsabiqədə şagirdlər "28 May Azərbaycan Xalq Cümhuriyyətinin əbədi izi", "Müstəqillik - millətin iradəsi", "Suverenlik - milli kimliyimizin əsası", "Azərbaycan Konstitusiyası: hüquqlarımızın və azadlıqlarımızın təminatçısı", "Tariximizi tanıyaq, dövlətimizi qoruyaq" və s. mövzularda esselər yazmışlar. Yazıların əsas ideyası Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, dövlətçilik tariximizdəki rolu, Konstitusiyamızın mahiyyəti, ölkəmizin suverenliyi, müstəqilliyimizin qorunması və bu dəyərlərin yaşadılması kimi məsələlər ətrafında olmuşdur.



Münsiflər heyəti esseləri qiymətləndirərkən şagirdlərin mövzuya yanaşması, bilik səviyyəsi, analitik düşüncə qabiliyyəti və yazı mədəniyyətinə xüsusi önəm vermişdir.

Müsabiqənin sonunda fərqlənən bir qrup istedadlı şagirdə fəxri fərman və xatirə hədiyyələri təqdim olunmuşdur.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

# Məktublar: problemlər, rəylər, təkliflər...



MİNNƏTDARLIQ

## Suvarma suyu ilə təminat yaxşılaşdı

**Qarqucaq Goranboyun kiçik kəndlərindəndir. Burada əhali əsasən heyvandarlıq və əkinçiliklə məşğul olur. İnsanlar əkin sahələrini "Çəkil arxı" adlanan su arxı ilə suvarır. Arxın uzunluğu 1200 metrdir.**



Lakin son vaxtlar təmizlənmədiyindən arxdan gələn suyun xeyli hissəsi itkiyə gedir, əkin sahələrinin suvarılmasında problem yaranırdı. Kənd sakinləri məcbur olub rayon rəhbərliyinə müraciət etdilər. Rayon icra hakimiyyətinə ünvanladıqları müraciət əsasında Goranboy Rayon Suvarma Sistemlərinin İstismarı İdarəsi tərəfindən həmin arx lil və kol-kosdan təmizləndi. İndi əkin sahələrinin suvarılmasında heç bir problem yaşanmır.

Hörmətli redaksiya! Xahiş edirik, kənd sakinləri adından problemimizin həllində əməyi olan hər kəsə bizim minnətdarlığımızı çatdırasınız.

*Dilqəm DADAŞOV,*
*Goranboy rayon Qarqucaq kəndinin sakini*

TƏBİƏT

## Meşələrə yeni nəfəs qatanlar

**Lerik meşələri öz əsrarəngiz gözəlliyi, özünəməxsus zəngin faunası və florası ilə seçilir. Hətta dünyanın heç yerində rast gəlinməyən ağac növləri burada bitir. Nə yaxşı ki, bunları qoruyub saxlayanlar, eləcə də yaşıllıqları artırmaqla təbiətə yeni nəfəs gətirənlər vardır.**

Bunlar 1 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşlarıdır. Meşəçilərin öz işlərinə bağlılığı, sonsuz həvəsi indi yeni salınan, cərgə-cərgə boy verən körpə fidanlardan da görünür. Mərkəzin əməkdaşları vaxtaşırı ağacəkmə aksiyaları təşkil edirlər. Qısa zamanda meşəçilər tərəfindən Vizəzəmin meşəbəyiliyinin 13 saylı dolayında 1 hektar ərazidə vələs cinsindən meşə əkini aparılıb. Həmçinin Lerik meşəbəyiliyinin 6 saylı dolayında 40 bəzəkli gül kolu, 445 cökə, 1165 göyrüş ağacları əkilib və onlara aqrotexniki qulluq göstərilib. Bu, təqribən yaxın gələcəkdə 1 hektardan çox zümrüd donlu meşə deməkdir. Növbəti ağacəkmə kampaniyası isə 10 saylı meşə dolayında keçirilib. Əvvəlcə 1 hektar ərazidə olan bitkilərə qulluq göstərilib, yaşıllıq zonasında təmizlik işləri görülüb. Sonra torpağa müxtəlif növ ağac tingləri əkilib. Onların suvarması təmin edilib, qorunması, normal böyümələri üçün yanlarında dirəklər basdırılıb.

Mərkəzin əməkdaşı Habil Əliyev deyir ki, belə aksiyaların müntəzəm təşkilində məqsəd ekoloji tarazlığın bərpası, ətraf mühitin qorunmasına kömək etmək, zümrüd donlu meşələrə, eləcə də atmosferin oksigeninə zənginlik qatmaq, ictimaiyyətin diqqətini təbiətin yaşıl donunun qorunmasına yönəltməkdir.

*Zəfər ORUCOĞLU,*
*Lerik rayon sakini*



AZƏRBAYCAN-a cavab verirlər

## "İctimai nəqliyyatda işləyən köhnə avtobuslar mərhələli şəkildə dəyişdirilir"

**Sizin "Azərbaycan" qəzetində dərc edilən "İctimai nəqliyyat sarıdan əziyyət çəkirik" sərlövhəli məqalə barədə 21 aprel 2025-ci il tarixli məktubunuza Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində baxılmışdır.**

Bildiririk ki, xidmət keyfiyyətinin artırılması məqsədilə tərəfimizdən marşrutlar üzrə təhlillər aparılır. Müntəzəm marşrut xətləri Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli qərarı ilə mərhələli şəkildə müsabiqəyə çıxarılır. Tələblərə cavab verməyən daşıyıcılar, o cümlədən onlara məxsus nəqliyyat vasitələri daşımalardan kənarlaşdırılır.

*Vəli MƏMMƏDOV,*
*AYNA Kommunikasiya Departamentinin direktoru*

## "Layihələr hazırlanmışdır"

**Sizin Abşeron Rayon İcra Hakimiyyətinə ünvanladığınız qəzetinizin 19 aprel 2025-ci il tarixli sayında Hökməli qəsəbəsinin Natəvan küçəsində yaşayan vətəndaşların küçənin abadlaşdırılmasına və kanalizasiya sisteminin quraşdırılmasına kömək göstərilməsi barədə dərc olunmuş "Şikayətimizə baxan yoxdur" başlıqlı oxucu məktubuna tərəfimizdən baxılmışdır.**

Bildiririk ki, rayonun yaşayış məntəqələrində, eləcə də Hökməli qəsəbəsində küçə və yollar yerli bələdiyyənin balansındadır.

Son dövrlərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında rayonun yaşayış məntəqələrində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə vəsait ayrılmış və işlərin icrası həyata keçirilmişdir.

Rayonun bütün kənd və qəsəbələrində, o cümlədən Hökməli qəsəbəsində əsas problem mərkəzləşdirilmiş su və kanalizasiya şəbəkələrinin olmamasıdır.

Hazırda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən rayonun hər bir yaşayış məntəqəsində su və kanalizasiya şəbəkələrinin qurulması məqsədilə layihələr hazırlanmışdır. Bu işin sürətləndirilməsi məqsədilə tərəfimizdən həm agentliyə, həm də aidiyyəti dövlət orqanlarına rəsmi müraciətlər ünvanlanmışdır.

*İlkin ƏSƏDOV,*
*Abşeron Rayon*
*İcra Hakimiyyəti başçısının müavini*

## Sahibsiz itlərə sahib çıxaq

**Şəhərimiz sahibsiz itlər problemi ilə uzun illərdən bəri qarşı-qarşıyadır. Küçələrdəki sahibsiz itlər həm insanlar, həm də heyvanların özləri üçün problemlər yaradır. Baytarlıq nəzarətindən kənarda qalan bu heyvanlar çox vaxt quduzluq kimi infeksiyalar daşıyırlar ki, bu da insanlar üçün ciddi təhlükədir.**

Son illər sahibsiz itlərə olan münasibət ölkəmizdə köklü şəkildə dəyişib. Artıq onlar təkcə küçədə qalan, görməzlikdən gəlinən varlıqlar deyil, insanların mərhəmətini qazanan, qayğı göstərilən canlılar kimi qəbul olunurlar. Bir vaxtlar qorxu və laqeydliklə qarşılanan bu canlılara indi daha çox anlayış və mərhəmət göstərilir. Artıq insanlar küçə itləri üçün məsuliyyət hiss etməyə başlayıblar. Bu dəyişimin arxasında həm cəmiyyətin artan həssaslığı, həm də fəaliyyət göstərən təşkilatların əməyi dayanır.

Bu baxımdan, IDEA Heyvanlara Qayğı Mərkəzinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Küçədən toplanan itlər mərkəzdə ilk olaraq tibbi müayinədən keçirilir, sağlamlıq problemləri aradan qaldırılır, sterilizasiya olunur, peyvəndləri vurulur və psixoloji adaptasiya prosesinə daxil edilirlər. Hər bir it fərdi olaraq izlənilir, peyvəndlənən itlərin qulaqlarına nömrələnmiş birkalar vurulur, onların ehtiyaclarına uyğun şəkildə baxım göstərilir.

Mərkəzin əsas məqsədi bu canlıların təhlükəsiz bir mühitdə yaşamasını təmin etməklə yanaşı, onlara yenidən həyat qazandırmaq və sevgi dolu evlərə sahibləndirməkdir. Bunun üçün mütəmadi olaraq sahibləndirmə kampaniyaları təşkil olunur, sosial şəbəkələrdə onların fotoları və hekayələri paylaşılır. Bir çox itlər bu yolla yeni ailələrinə qovuşur, küçə həyatı onlar üçün artıq keçmişdə qalır.



Cəmiyyətdə də bu istiqamətdə ciddi dəyişikliklər müşahidə olunur. İnsanlar sahibsiz itlərə münasibətdə daha anlayışlı və diqqətli davranmağa başlayıblar. Küçələrdə su qabları, qida qutuları qoyulur, insanlar gündəlik həyatlarında bu canlılara yardımçı olmaq üçün təşəbbüs göstərirlər. Xüsusilə uşaqlara və gənclərə heyvanlarla mərhəmətli davranmaq vərdişi aşılanır.

Bütün bu təşəbbüslər bir məqsədə xidmət edir - sahibsiz heyvanlara sahib çıxmaq, onları cəmiyyətin sevgi və qayğı dolu bir hissəsinə çevirmək. Bu gün küçələrdəki səssiz canlara göstərilən diqqət və qayğı cəmiyyətimizin nə qədər inkişaf etdiyini, insani dəyərlərə nə qədər önəm verdiyini göstərir. Bu dəyişikliklər insanların mərhəmətli bir gələcəyə doğru addımladığını sübut edir.

Əlbəttə, bütün problemlər hələ də tam həll olunmayıb. Sahibsiz itlərin sayı hələ də çoxdur, bəziləri insanlara yaxınlaşmaqdan qorxur, bəziləri isə hələ də zorakılığa məruz qalır. Amma ən önəmlisi odur ki, artıq bu məsələyə göz yumulmur. İnsanlar bu canlıların da yaşamaq haqqı olduğunu, acı çəkməyə layiq olmadıqlarını qəbul etməyə başlayıblar.

İctimai təşəbbüslər də bu dəyişimin bir hissəsidir. Müxtəlif sosial qruplar, könüllülər, tələbələr tərəfindən təşkil edilən qida toplama kampaniyaları, sahibləndirmə çağırışları və sosial mediada paylaşılan hekayələr daha geniş kütlələrin diqqətini çəkir. İnsanlar bir dəfə bir itin gözlərinə baxanda onun da qorxu, ümid və sevgi hiss edə bildiyini görür və bu da kifayət edir ki, münasibətlər kökündən dəyişsin.

Bu yaxınlarda Nazirlər Kabinetinin qərarı ilə Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" publik hüquqi şəxs yaradılmışdır. Belə bir qurumun fəaliyyətə başlaması problemin həllinə ciddi kömək olacaq. Xüsusən də ona kifayət qədər vəsaitin ayrılması problemin həllinə uğurlu töhfədən xəbər verir.

İnanırıq ki, "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" ilk günlərdən məsələnin çözülməsinə ciddi yanaşacaq, sahibsiz itlərə sahib çıxaraq insanları təhlükəsiz və qorxusuz gəzib dolanmalarına köməyini göstərəcəkdir.

Sahibsiz itlərə göstərilən qayğı, münasibətdəki dəyişiklik, əslində, cəmiyyətin öz daxili dəyişiminin əksidir. Bu, sadəcə heyvan sevgisi deyil, bu həm də insanlıqdır. Nə qədər ki bir cəmiyyət ən zəif, ən müdafiəsiz canlılara sahib çıxır, deməli, o cəmiyyət güclü və sağlam bir yoldadır.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

ŞİKAYƏT

## "Azəriqaz" bizi qazsız qoyub

**Artıq xeyli vaxtdır ki, kartla işləyən qaz sayğacının əziyyətini çəkirəm. Kart tez-tez bloka düşür, ödədiyimiz məbləğ sayğaca oturmur. Çıxış yolu kimi məcbur olub hər həftəbaşı "ASAN xidmət"ə üz tuturam ki, kartı blokdan çıxarsınlar.**



Bu əziyyəti təkcə mən deyil, yüzlərlə insan çəkir. Kommunal xidmət də şəhərin mərkəzində yerləşdiyindən ətraf qəsəbələrdən ora gedib-gəlmək çətindir.

Dəfələrlə Binəqədi Rayon Qaz İdarəsinə texniki sayğac qoyulması ilə bağlı xahiş etsəm də, "sayğacın ili tamam olmayıb..." - deməklə boyun qaçırırlar. Onları ancaq "il" düşündürür. Qazsız qalan uşaqlar, qocalar, xəstələr isə veclərinə də deyil. Mən pulumu ödəyib qaz işlədirəm, niyə bu əzabı çəkməliyəm?

Bilmirik dərdimizi kimə deyək. Bizə bu problemin həll olunmasında kömək etsəniz çox məmnun olarıq. Qaz idarələri bizi başqa yola əl atmağa məcbur edirlər. Yəni bizim sayğacları qırıb atmaqdan başqa çarəmiz qalmayıb. O halda isə cərimə olunacağıq. Belə vəziyyətdə abunəçi nə etməlidir?!

*İman MİRZƏZADƏ,*
*Binəqədi qəsəbə sakini,*
*(Ramazanov küçəsi, ev 86)*

GİLEY

## Qoyun sürülərimizi yaylaqlara çıxara bilmirik

**Bizim ata-babalarımız əli iş tutandan qoyunçuluqla məşğul olublar. İndi bu peşəni biz davam etdiririk. Hələ sovet dövrü - kolxoz zamanı yayı Kəlbəcər yaylaqlarında, qışı isə doğma Bərdədə keçirərdik. Varımız, dövlətimiz aşıb-daşırdı, bərəkət, bolluq ölçüyə gəlməzdi.**

Namərd qonşularımızın xəyanəti hesabına 30 il yaylaqlara həsrət qaldıq. Şükür Allaha, Ali Baş Komandan İlham Əliyevin, şanlı ordumuzun qəhrəmanlığı nəticəsində düşmən məğlub edildi. Qələbəyə hamıdan çox sevinən bəlkə də biz olduq. Axı 30 ildən sonra doğma yurd yerlərimizə, gül-çiçəkli yaylaqlarımıza qovuşmuşduq.

Hörmətli redaksiya, indi arzumuzu gözümüzdə qoyublar. Yüz bəhanə gətirib bizi yaylaqlara buraxmırlar. Uzun illər boyu sürülərimizi yay mövsümündə Kəlbəcərin Keti, Sarı yer, Qara arxac, Pişikli, Çəlik qayası, Əyri qar, Taxta düzü deyilən ərazilərində bəsləmişik. Bu yerlərin hər qarışına, hər addımına bələdik. O dağlarda qəbiristanlıq da salmışıq. Yaylaq mövsümündə dünyasını dəyişən əzizlərimizi daha Bərdəyə gətirməyib elə orada torpağa tapşırmışıq. Çünki oranı da yurd bilmişik.

Dəfələrlə Kənd Təsərrüfatı Nazirliyinə, əlaqədar dövlət qurumlarına müraciət etmişik. Amma bir nəticə yoxdur, bizi müxtəlif bəhanələrlə dağa-daşa salırlar. Biz çobanıq, istədiyimiz odur ki, bizə şərait yaradın, qayğı, diqqət göstərin, biz də əvəzində bolluq yaradaq. Nəyə görə xaricdən ət, yağ, pendir almalıyıq? Vallah, işləri yaxşı təşkil etsələr, əngəllər yaratmasalar, kiməsə möhtac olmarıq, süfrəmizin ehtiyacını özümüz ödəyə bilərik.



Hörmətli redaksiya, xeyli vaxtdır yaylaq mövsümü başlayıb. Biz isə hələ də arandayıq. Səlahiyyət sahibi olan məmurlardan xoş xəbər gözləyirik. Xahiş edirik, bizə köməyinizi əsirgəməyəsiniz, səsimizi həmin məmurlara çatdırasınız.

*Bərdə rayon sakinləri:*
*Məmmədov Əfqan Əli oğlu*
*Məmmədov Ağamməd Süleyman oğlu*
*Əmralıyev Fariz Bəşir oğlu*
*Nadirov Hilal Ədil oğlu*
*Əhmədov Telman Süleyman oğlu*
***Cəmi: 30 imza***

RAZILIQ

## Kəndimizin ictimai nəqliyyat problemi də həll olundu

**Vaxtilə, elə yaxın keçmişdə, xüsusən dağ kəndləri əhalisinin hansı çətinliklərlə qarşılaşdığı hamıya bəllidir. Kəndlərdə qaz yox idi, işıqlar tez-tez sönərdi, içməli su üçün qız-gəlin bəzən xeyli məsafə qət etməli olurdu. Yollar təmirsiz, nəqliyyat yox dərəcəsində idi.**

İndi bütün bunlar arxada qalıb. Məsələn, bizim Aşağı Atucda əhalinin normal yaşayışı üçün bütün kommunal məsələlər həllini tapıb. Bu da təbii ki, dövlətimizin, rayon rəhbərliyinin atuclulara diqqətinin nəticəsində mümkün olub.

Son vaxtlara qədər bircə problemimiz qalmışdı ki, bu da kəndi rayon mərkəzi ilə bağlayan ictimai nəqliyyatın olmaması idi. Aşağı Atuc Quba rayonunun əhali baxımından böyük kəndlərindən olduğu üçün belə bir nəqliyyat marşrutuna ehtiyac böyük idi.

Rayon rəhbərliyinin kənd sakinləri ilə səyyar görüşü zamanı problemimizi bildirdik. Tez bir zamanda kəndimizin daxilində bir neçə yerdə dayanacaqlar quraşdırıldı. Sonra kənd əhalisinin rayon mərkəzinə gediş-gəlişi üçün marşrut avtobusu ayrıldı. İndi kənd camaatı rayon mərkəzinə rahat gedib-qayıda bilir.



Deməli, insanları rahatsız edən hər bir çətinliyin həlli mümkündür. Bunun üçün sadəcə diqqət, qayğı və bir də istək lazımdır.

*Bəxtiyar RÜSTƏMOV,*
*Quba rayon Aşağı Atuc kəndinin sakini*

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 21 may (Çərşənbə günü) tarixli 185-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Çaharşənbə, 20 şabanül-müəzzəm sənə 1337.
21 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## MƏŞİXƏTİ-İSLAMİYYƏ TƏRƏFİNDƏN MÜSƏLMANLARA ƏXZİ-ƏSGƏRƏ DAİR MOİZƏDİR

*"İnfiru xifafən və siqalən və cahidu biəmvalikûm və ənfusikum fi səbilillahi zəlikûm xeyrün ləküm in küntüm tə'ləmunə."*

"Tövbə" surəsi 41-ci ayə.

Tərcüməsi:

*"Ey əhliiman! Cavan, qoca, fəqir, dövlətmənd, sağlam, xəstə, silahlı, silahsız, evli, evsiz... Hamınız çıxın da Allah yolunda dinin (vətənin) mühafizəsi üçün mücahidə edin. Bu hal üzrə dini (vətəni) mühafizə etmək əgər bilərsəniz, sizin üçün, durmaqdan xeyirlidir."*

Bu ayeyi-kərimədə "xifafən" və "siqalən" kəlmələri bu mövqedə öylə müdhiş bir məna ifadə edirlər ki, bunların yerinə hər hanki bir kəlmə gətirilərsə, o mənanı ifadə etməyə qabil deyildir. Bu cəhətə, müfəssirlər bunların ehtiva etdiyi mənayi-cəlilələni [böyük mənanı] təyin etmək xüsusunda böyük müşkülata düşüblər. Bəziləri "cavan, qoca" deyə təfsir edir, bəziləri "fəqir, dövlətmənd" deyə, bəziləri də "atlı və piyada" ilə, bir qismi "nişat və qeyri-nişat [şad və kədərli], sağlam və məriz" deyə təfsir etmişlərdir. Buna binaən [buna əsasən] anlaşılır ki, hər bir halda, din və vətən yolunda ümum [bütün] müsəlmanlar can və mal ilə çalışmalıdırlar.

Məlumdur ki, bu ayeyi-kərimə Təbük müharibəsində nazil olmuşdur. Müharibə zamanı, doğrudan da, islam əhli böylə olmalıdırlar. Lakin bihəmdülillah [Allaha şükür olsun] yerin üzü neçə illər fitnə və fəsad ilə xaraba olduqdan sonra indi sülh və asayiş bərpa olub, camaat əmin-amanla dolanırlar. Və bu cəhətə, bu halda əhli-islama ayeyi-kərimədə məzkur [deyilən] keyfiyyətlə ümumən hərəkət etmək lazım gəlməz. Lakin vətəni mühafizə üçün hökumətə lazım olan qədər əsgər toplamaq ən əvvəlinci vəzaifi-diniyyədəndir [dini borclardandır]. Zira bir millətin vətəni məhv olduqdan sonra, yavaş-yavaş dini də əldən gedər. Bunun üçün Həzrəti-Peyğəmbər əleyhissəlavat vəssəlam baxınız nə buyurur: "Hübbülvətən minəliman." Yəni vətəni sevmək imandandır, imandan bir cüzdür [bir hissədir].

Ey camaati-islam! Fəqət vətənə məhəbbət etmək ağızdan "vətənimi sevirəm" deməklə olmaz. Quru-quruya "vətənə məhəbbətim var" deməklə hübbi-vətən olduğu təsdiq olunmaz. Çünki məlum olduğu üzrə iman "lisanla iqrar [etiraf] və qəlblə təsdiq"dən ibarətdir. Binaənileyh [ona görə], qəlbində iman olmayan kimsənin lisanən [diliylə] kəlmeyi-şəhadət gətirməsində əhəmiyyət yoxdur. Madam ki, Rəsuli-əkrəm əleyhissəlavat vəssəlam vətənə məhəbbəti də imandan cüz qılır, öylə halda vətəni sevmək yalnız lisanən və "vətənimə və məmləkətimə məhəbbətim var" deməklə olmaz. Bəlkə, qəlbən vətənə qarşı məhəbbət bəsləmək, vətən hissini qəlbinin ən dərin guşəsində mühafizə və bu surətlə vətəni hər növ təərrüzdən [təcavüzdən] himayə etmək, hər nə surətlə olursa-olsun, quldurların və zalımların təcavüzlərinə meydan verməmək və bunun üçün hər növ müdafiə tədarükləri hazırlamaq lazım gəlir.

Müsəlman qardaşlar! Bizim üçün imandan daha əziz, imandan daha böyük, ondan daha qiymətli bir şey varmı? Zənn edirəm "var!" deyəcək bir müsəlman təsəvvür olunmaz. Çünki, həqiqətən, müsəlman olan kimsə dünyada ancaq dini, irzi, namusu üçün yaşar, onun yolunda hər növ fədakarlığı, ölümü gözünə alar, dininə, irzinə, namusuna bir tük qədər ləkə gəlməmək üçün həyati-şəxsiyyəsini, öz övladlarını, qiymətli mallarını fəda edər də, yenə qəlbi şad və məsrur [sevincli] olar. Buna binaən [buna əsasən], vətənə məhəbbət etmək dəxi bu nisbətdə olmaq lazımdır. Çünki Cənabi-Peyğəmbər vətəni o qədər təqdis etmişlər [müqəddəsləşdirmişlər] ki, "Vətənə məhəbbət etmək imandan cüzdür" demişlər. Vətənə məhəbbət etmək dinin əzəm rüknü [ən böyük dirəyi, istinadgahı] olan imandan cüz olduğunu sevgili peyğəmbərimiz bizə xəbər verirsə, müsəlman olanlar, qəlbində iman qüvvəti, Allah, peyğəmbər eşqi olanlar vətəni quldurlardan, zalımlardan mühafizə etmək üçün mallarını, övladlarını, həyatlarını fəda etməkdən nə üçün çəkinsinlər?!

Ey şövkətli Azərbaycan hökumətinə tabe olan müsəlmanlar! Ən qiymətli olan dinimizi, irzimizi, namusumuzu mühafizə edəcək bir şey varsa da, o da ancaq vətəndir. Vətən səlamət olarsa, hər şeydən qiymətli olan dinimiz də səlamət olar, irz və namusumuz da möhtərəm və müqəddəs qalar. Keçən mart ayının faciəsi bu mətləbə şahiddir. İslam əhlinə şayəstə olmayan [yaraşmayan] fəlakət və rəzalətləri cümləmiz gördük. Bu halda hökumət sizdən əsgər istəyir. Hökumət əsgəri nədən ötrü toplayır? Sizin balalarınızı və pərdeyi-ismətdə yaşayan analarınız və bacılarınızı himayə etmək üçün, məscidlərinizi və müqəddəs olan Qurani-kərimi ehtiramla saxlamaq üçün... Zənn edirəm bu mətləbin haqq olmağında bir kimsənin şübhəsi yox. Məəttəəssüf [təəssüf ki], əxzi-əsgərə [hərbi çağırışa] dair zəruri əmri nizamla aparmaqda sizlərdən növbənöv kəsalət [süstlük] və müsamihə [səhlənkarlıq], xəyanət və müzayiqə [əsirgəmə, qıymama] zühur və büruz etməkdədir.

Qəflət və cəhalət bəsdir! Oyanınız, ibrət götürünüz və biliniz ki, Azərbaycan Hökumətinə lazım qədərdə əsgər verməmək dini-islamı, həzrəti-Quranı ayaqlar altına alıb parça-parça etmək deməkdir. Çünki hökumətin münzəm [nizamlı] əsgəri olmazsa, əhl və əyallarınız yenə də olar ki, düşmənlər əlinə əsir düşələr, məscidlərinizi topa tutalar, necə ki, keçən sənədə vaqe oldu.

Binaənileyh [ona görə], Allah eşqinə, din və vətən hörmətinə, qanun iqtizası ilə kim ki, əsgərliyə dəvət olunur, əlbəttə, müzayiqə etməsin və əlbəttə, elmən və ürfən bu barədə öz vəzifələrini doğruluqca ifa etsinlər ki, böylə neməti-üzma [böyük bir nemət] olan hökumət əlimizdən getməyib, şan və şərafətlə yaşamağa qabiliyyətimiz və imkanımız olsun. Amin!

*Şeyxülislam*
*Molla Ağa Ağaəlizadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşevik məlumatı**

Daşkənd - Əfqanıstanda vaqe olan inqilab xüsusunda verdiyimiz məlumata əlavə olaraq, Buxara vasitəsilə rəsmən bildirilir ki... (Burada cümlə buraxılmışdır.) Qətl edilmiş əmirin qardaşı yeni əmir Nəsrulla xan Hindistana qaçmışdır. Onun müridləri təqib edilirlər. Buxara sərhədində Süvari-Şərif denilən yerdə yeni əmiri qəbul etməyən qoşun hissəsindən yüz nəfər həbs edilmişdir. Bunların həbsi müsadimə [toqquşma] ilə nəticələnmişdir. Yeni əmir Əmanulla xan bir fərman sadir edərək [fərman verərək], yeddi illik vergidən camaatı azad eyləmişdir. Orduya da əmr vermişdir ki, müharibə halında qışlalarda [kazarmalarda] hazır olsunlar. Süvari-Şərifdən qoşunlar geriyə çağırılaraq, əvəzinə yenisi göndərilmişdir. Süvari-Şərif valisi həbs edilərək qaraqol altında Kabilə göndərilmişdir. Onun bütün əmlakı müsadirə edilmişdir.

**"Məğlublar İttifaqı"**

Bu axır vaxt Almaniyada məğlub dövlətlər, yəni Rusiya, Almaniya və Avstriyanın bir hissəsi "Məğlublar İttifaqı" amalı müvəffəqiyyətli bir hal kəsb etmişdir [qazanmışdır]. Bu yolda böyük təşviqat yapılmaqdadır. Bundan əlavə, Almaniya öz məmurları vasitəsilə Almaniyada könüllü əsirlərdən ibarət rus ordusu vücuda gətirilməsinə böyük müavinət göstərməkdədir. Bu işdə Kiyevdən gələn zabitlər də iştirak edirlər. Bu işin başında alman mühibbi [alman dostu, almanları sevən] rus komitəsi sabiq Duma üzvü Deryuqin və Tuqan-Baranovski dayanmışdır. Tuqan-Baranovski Pskov quberniyasında general Keylerin Şimal ordusunu təşkil edirdi. Təzə təşkil edilən ordu "Şimali Könüllü ordu" adındadır. Ordunu təşkil edənlər general Yudeniç ordusu səflərinə qarışacaqlarına ümidvardırlar.

**Alman nümayəndələrinin əziməti**

Mayın 15-də Liondan xəbər verirlər ki, iki nəfər alman nümayəndəsi təlimat almaqdan ötrü Berlinə əzimət etmişlərdir [getmişlər].

## SÜLH ƏTRAFINDA

Türklərə və bolqarlara sülh şəraiti verildikdə, Amerika heyəti isbati-vücud [iştirak] edəcəkdir. Fəqət zənn edilməyir ki, bu müahidə [saziş] müzakiratında Amerika nümayəndələri iştirak etsinlər. Zira Amerika bu dövlətlərə müharibə elan etməmişdir. Böyləliklə, amerikalıların konfransda iştirak etmələri yalnız nemes və Avstriya müahidələri xüsusunda idi. Nemeslərə verildiyi kimi, avstriyalılara 15 gün möhlət verilməyəcəkdir. Yalnız bir həftə, ya on gün möhlət veriləcəkdir. Çünki Avstriyaya veriləcək müahidə müxtəsərdir. Böyləliklə, Avstriya ilə Almaniya bir vaxtda Müttəfiqlərə cavab verməlidirlər. Rəisi-cümhur Vilson türk və Bolqariya müahidələri müzakirəsinədək Parisdə qalmayacaqdır. Fəqət ümumiyyətlə müahidələrin məzmununa vaqif olacaqdır. Bu müahidələrin müzakirəsi Yunanıstan üçün çox əhəmiyyətlidir. Hələlik nemeslərlə şifahi danışıq davam edir. Müttəfiqlər komitəsinin bəyannaməsi hər iki tərəfin mütəxəssislərinin iclasında baxılacaqdır. Deyirlər ki, bu barədə heç bir müzakirat olmayacaqdır. Ancaq müfəssəl izahat veriləcəkdir. Müttəfiqlərin nemeslərlə olan müahidəsi bir çox mühüm məsələləri həll edir. Bununla bərabər, bəzi məsələlər Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] həll ediləcəkdir.

Paris - Fransa Ticarət Nəzarətində mayın 12-də mühüm bir iclas olmuşdur. Almanlar sülh əhdnaməsini [müqaviləsini] imza etməyəcəkləri təqdirdə, nasıl iqtisadi təzyiqatda bulunmaq məsələsi müzakirə edilmişdir. İclasda qərar qoyulmuşdur ki, bu kimi hal üz verərsə, yəni Almaniya müahidəni imza etməzsə, şiddətli abluka vəz edilsin [blokada tətbiq edilsin]. Bu qərar Dördlər Şurasına veriləcəkdir ki, icab etdiyi [lazım gəldiyi] zaman vücuda gətirilsin.

İspaniya iskələlərində [limanlarında] olan alman təhtəlbəhrlərinin [sualtı gəmilərinin] Müttəfiqlərə təslim edilməsi işlərini İspaniya Hökuməti öz öhdəsinə götürmüşdür.

Şeydeman Almaniya Milli Məclisində sülh müahidəsinə dair bir nitq irad eyləmişdir. Mümaileyh [adı çəkilən şəxs], müahidəni tənqid etmişsə də, müahidənin imza edilib-edilməyəcəyindən danışmamışdır. Bu hal Məclis üzvlərini məmnun etməmişdir.

**Türkiyə və sülh**

İstanbulda çıxan "Axşam" qəzetəsindən:

Avropadan son gələn haizi-əhəmiyyət zəvat ilə [önəmli şəxslərlə] İstanbuldakı əcnəbi məhafilində [dairələrində], bilxassə son 10-15 gündən bəri haqqımızda cərəyan etməkdə olan müzakiratın almış olduğu şəkilin fövqəladə mövcibi-qənaət və məmnuniyyət [qənaətbəxş və məmnunedici] olduğu izhar edilməkdədir. Gərək Anadolu şərqi, gərək rum əqəliyyətlərinin [azlıqlarının] bulunduğu ərazi haqqındakı müfrit müddəiyyat [ifrat iddialar] suya düşmüşdür. Rusiyada təşəkkül edən Ermənistanın məmləkətimizə aid vilayətlərdə yalnız təshihi-hüdud [sərhədlərin dəqiqləşdirilməsi] surəti ilə qismən tövsi edə biləcəyinə [genişləndiriləcəyinə] qəti olaraq hökm edilə bilər. Bu səlahı müsbət iki təsirə mədyunuz [Bu yaxşılığı iki müsbət təsirə borcluyuq]: Biri əski hərb zehniyyətinə millətin filhəqiqə [doğrudan da] müariz [müxalif, qarşı] və zidd olduğunun get-gedə və tamamilə təəyyüd etməsi [aşkar olması], digəri müəyyən ünsürlərin mütarikədən [atəşkəsdən] bəri göstərdikləri ifratkaranə hərəkatın əks-təsiri.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Post və Teleqraf nazirinin şimdiki əhvala görə Azərbaycana idxal ediləcək əşyanın siyahısını artırmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Post və Teleqraf, Maliyyə, Ticarət və Sənaye və Ərzaq nazirlərindən mürəkkəb [ibarət] komisyona tapşırılsın ki, gətirilməyə mümaniət [maneçilik] olan əşyanın siyahısı tərtib verilsin.

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Bakıda pud vergisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə və iqtisadiyyə komisyonuna tapşırılsın, Azərbaycan şəhərləri üçün pud vergisi qanun layihəsi tərtib versin.

- Post və Teleqraf nazirinin Gürcüstan, Ermənistan və Məvərayi-Bəhri-Xəzərlə pul bəratını qəbul etməmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Gürcüstan və Ermənistanla pul bəratı əlaqəsi aparılsın. Fəqət məbləğ 10 min manatadək məhdud edilsin və hesab hər ayın axırında təmizlənməlidir.

2) 10 min manatdan ziyadə pul örtülü zərflərdə posta ilə göndərilməlidir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] müsəlman darüleytamına [yetimxanasına] 3000 rublə ianə etmiş Hüseyn Məlikova öz təşəkkürünü izhar edir.

- İrəvana, möhtac müsəlmanlara mü-avinət üçün Ədliyyə naziri müavini [Teymur bəy] Makinski sədarəti ilə əzimət etmiş [yola düşmüş] heyət Tiflis Dövləti Bankından bir milyon manatdan qalmış 349 860 manatı ala bilməmişdir. İşbu məbləğ keçən sənədə Seym tərəfindən İrəvan qaçqınları üçün buraxılmışdı. Müsəlmanların əhvalını nəzəri-etibara alaraq heyət Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən rica etmişdir ki, hələlik 200 000 manat buraxılsın.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şimali nahiyə müfəttişinə müraciətən rica etmişdir ki, qaçqınlara məxsus bir çox əşyanı Daxiliyyə Nəzarəti əmri mövcibincə [əmrinə əsasən] öz ixtiyarına alsın. Əşya Şamaxı şəhərindədir.

- "Müsavat" firqəsi Məsai [Əmək] Nəzarətinə müraciətən məlum etmişdir ki, tətil zamanı iştirak etməmiş bir çox mədənlərin müsəlman fəhlələrinə tətil günləri məvaciblərini verməkdən imtina edirmişlər. Bir çox mədənlərdə də quyuları bağlayıb fəhlələri xidmətdən əzl [kənar] edirlər. Əlavə, firqə təklif etmişdir ki, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Kəsbkarlar İttifaqından [Həmkarlar İttifaqından] işsizlərin siyahısını istəmişdi; lazım gələrsə, "Müsavat" işsizlərin siyahısını verə biləcəkdir.

**Ticarət Nəzarətində**

Qəzetə səhifəsində bir xəbərdə Nəzarətin bütün qulluqçularının sui-hərəkətlərini təsvir etmək mümkün deyildir. Zira işbu müəssisə xidmətçiləri sui-hərəkətlərində böyük məharət göstərmişlərdir. Sübutdan ötrü iki şeyi göstərəlim: sabiq Nəzarət dövründə heç bir Nəzarətdə xidmət etməyən bir nəfərə necə olubsa da, bütün körpülərdəki anbarları təftiş etmək üçün rəsmi təsdiqnamə verilmişdir.

Bir də gerbovı marka əvəzində Nəzarət möhürü ilə möhürlənmiş xırda kağızlar satılmaqda imiş. Böylə əldə qayırılmış markalar Nəzarətlərə gələn kağızlara vurulmaqla bərabər, başqa yerlərdə də satılmaqda imiş. Bu vaxtadək nə qədər satılmışsa məlum olmadığından, mədaxilin miqdarı və nə yerə getdiyi də məlum olmayacaqdır.

Ağa Əminov ilə onun müavini Yusifəli Əliyevin üzərinə böyük bir iş düşmüşdür. Fəqət bu iki zat mətanət ibrazıyla [mətanət göstərməklə], öz fəaliyyətlərində davam edə durmuşlardır. Bunun sayəsində mənfəətli nəticələr görüləcəkdir. Cavan cümhuriyyətdən ötrü sadiq zatlar vücudu lazımdır.

Ağa Əminov həzrətlərinin müştərək Ticarət və Sənaye və Ərzaq Nazirliyi vəzifəsinə şüruundan [başlamasından] sonra sabiq Nəzarətlərdə başsızlıqlar araya çıxmışdır. Birinci qədəmdə həman Nəzarətlərdəki bətalət [durğunluq, fəaliyyətsizlik] aradan çıxarılmışdır.

Bir çox kağızlar siyahı edilməyərək belə qalmışdır. Bir çox mal mübadiləsinə məxsus müqavilənamələr tapılmışdır ki, qaydasız olaraq əqd edilirmiş [bağlanırmış].

Bir çox müqavilənamələr də vardır ki, əqddən sonra qalmışdır. Vaxtı keçəndən sonra heç bir şey iddia edilməmişdir. Halbuki iddia ediləcək maddələr də görülməkdədir. Müqavilə miyanından [arasından] bir səğir [kiçik] adam ilə əqd edilmiş bir müqavilə, imzasız bir müqavilə və vəqti-müəyyənsiz [tarixsiz] bir müqavilə də tapılmışdır. Bir çox müqavilələr də xəzinənin zərərinə belə əqd edilmişdir.

Bir çox zəvat [şəxslər] vəzifələrində belə xəyanət etdiklərindən, Xüsusi Təftiş Komisyonu nəzdində məsuliyyətə cəlb etmək üçün iqdamatda bulun[ul]muşdur. İşlər hələ qurtarmamışdır. Hər günkü təftiş böylə işlərin çox olduğunu göstərir.

## İSTANBULDAN SON XƏBƏRLƏR

İki gün bundan əvvəl İstanbuldan varid olmuş [gəlmiş] mötəbər bir zat ilə müsahibədə bulunduq. Müsahibimiz bizə böylə məlumat verdi:

**İstanbulun vəziyyəti**

İstanbulun vəziyyətini üçə bölmək olar. Biriminci dövr Müttəfiqlər qoşunlarının İstanbula ilk varid olduğu günlərdir. Türklərin halı bu zamanlar pərişan idi. Bu günlərdə rum qoşunları və ermənilər özlərini qayət fəna aparırdılar. Müttəfiqlər də bunlara heç bir söz deməyirdi. Fransız qoşunları türklərin Hərbiyyə Məktəbini tutmaq istəyirdi. Türklər səbəbini sual etdikdə, artıq sizin qoşununuz olmayacaq, ona görə də sizə məktəb də lazım deyildir, cavabını verirlərdi. Bu zamanlar yunanlılar (rumlar) özlərini İstanbula ağa hesab edirdilər. Hətta rumların cəsarəti bir dərəcəyə çatmışdı ki, Ayasofiya üzərinə təntənəli surətdə xaç tikmək istəyirdilər. Bunların böylə ədəbsizlikləri türkləri qızdırdı. Həman saat şəhərin hər yerinə pulemyotlar qoyuldu. Ayasofiya üzərinə yürüş ediləcəyi təqdirdə pulemyotlar, şübhəsiz, işləyəcəkdi. Bu halı görən rumlar bir arvad dəstəsi düzəldib, türklər arvadlara atəş açmazlar deyə bunları qabaqca göndərmək istədilər. Türklər bunun da çarəsini gördülər. Dərhal böyük çənlərdə isti su və nasoslar hazırladılar. Arvadları su ilə qovmaq istədilər.

Londondan gəlmiş olan xəbərlər bu vəziyyəti dəyişdirdi. Londondan nim-rəsmi [yarı-rəsmi] surətdə xəbər verilirdi ki, İstanbul, İzmir və sair vilayətlər qəti surətdə türklərin əlində qalacaqdır. Yalnız İstanbulda Amerika kontrolu olacaqdır. Bu xəbərlər bir dərəcə vəziyyəti dəyişdi. Rumların iştahaları yatdı.

İtalyanlar, ingilislər türklərə çox kömək edirlər. İtalyanların türklərə kömək etməsi də səbəbsiz deyildir. Bu son günlərdə Parisdən ikinci bir xəbər də gəldi. İstanbul, İzmir və sair vilayətlər türklərdə qalacağı bildirildi. Bu münasibətlə general Franşe D'Esperi sultan həzrətlərini ziyarət etmək istədisə də, sultan mümaileyhi [adı çəkilən şəxsi] qəbul etmədi.

Bosfor, Dardanel türklərin əlindədir. Son vaxtlarda oralar təhkim edilir. Yalnız buralarda ingilis kontrolu vardır.

**Türklər və ermənilər**

Son vaxtlarda ermənilərlə türklərin müamilələri [rəftarları] o qədər də gözəl deyildi. Ermənilər özlərini qayət fəna aparırdılar. Ermənilərin iddiası da çox böyük idi. Lakin bunların da son günlərdə vəziyyəti dəyişmiş. Zira ermənilərin iddia etdikləri yerlərdə müsəlmanların əksəriyyət qazandıqları Konfransa da məlumdur. Ermənilərin tərəfdarı olan və erməni məsələsi ilə ziyadəsi ilə məşğul olan amerikalı Kullec Türkiyədə olan ermənilərin hesabını tutmuş və sonra Londona, Parisə gedib məlum etmişdir ki, ermənilərin iddia etdikləri yerləri ermənilərə vermək böyük səhv olar. Öyləliklə, müsəlmanları erməni boyunduruğu altına salmış olarız. İstanbulda böylə şayiat var ki, indiki Ermənistan Cümhuriyyəti təsdiq ediləcək. Urmiyə, Xoy və Türkiyədən də Van, Bitlis, Bayəzid onlara veriləcəkdir. Əlbəttə, bu da təsdiq edilməmiş bir xəbərdir.

**Yunanlar Sülh Konfransında**

Yunanilərin iddiaları ermənilərin iddiasından daha ziyadədir. Yunan baş naziri Venizelos, Klemansoya Yunanıstanın tələbnaməsini təqdim eyləmiş. Venizelos İstanbul və Türkiyənin bir çox yerlərindən, Rusiyadan da Odessa və Sevastopolu istəyirmiş. Guya bu yerlər bir vaxtda Yunanıstanın imiş. Klemanso tələbnaməni alıb oxuduqdan sonra Venizelosun yanına gəlib məzədən ötrü demiş:

*"Mən Fransa Hökuməti namından sizə təşəkkürlər edirəm və çox sağ olunuz ki, bizim Marseli istəməmişsiniz. Ola bilər, Marsel də bir vaxt Yunanıstan müstəmləkəsi imiş."*

Hər halda, yunanilərin başından artıq İstanbul xülyası çıxmış və anlamışlar ki, İstanbul əsil sahibi olan türklərin əlində qalacaqdır.

**Azərbaycan nümayəndələri**

Azərbaycan nümayəndələri İstanbula varid olduğu gündən bəri İstanbulda yunan və ermənilər tərəfindən nəşr edilən qəzetələr Əhməd bəy Ağayev haqqında yazmağa başladılar. Onu erməni qırğınında iştirak etdiyi iftirası ilə təqsirləndirirdilər. Müharibə zamanı Əhməd bəyin Müttəfiqlər əleyhinə yazmış olduğu məqalələri bu qəzetələr yenidən çap edib Müttəfiq komandanlığının nəzərini cəlb edirdilər. Nəhayət, fransız komandanlığı Ağayevin həbs edilməsinə qərar verib də mümaileyhi [haqqında danışılan şəxsi] həbs etdirir. Şimdi Ağayev fransızların nəzarətindən türklərin ixtiyarına keçmiş, bu günlərdə türklər mümalieyhi azad edəcəkdirlər. Azərbaycan sülh nümayəndələrindən Əlimərdan bəy Topçubaşovu da Parisə buraxmaq istəməyirdilər. Bu xüsusda çox zəhmətlər çəkildi. Axirüləmr [nəhayət], bunların Parisə əzimət etmələrinə [yola düşmələrinə] müsaidə verildi. Bunlar İtaliya paroxodunda Neapol təriqi [yolu] ilə əzimət etmişlərdir. Vəkillərimizdən Məhəmmədhəsən Hacınski, Əkbər ağa Şeyxülislamov və Ceyhun bəy Hacıbəyli Parisə, Əlimərdan bəy Topçubaşov, Miryaqub Mehdiyev və [Məhəmməd] Məhərrəmov Londraya əzimət etmişlərdir. Mən Tiflisdə ikən Parisdən Çxeidzedən Gürcüstan Hökumətinə bir məktub gəlmişdi. O məktubda Qafqaz cümhuriyyəti məsələlərinin ümidbəxş olduğunu bildirdi. Bunu da söyləməliyəm ki, italyanlar türklər və azərbaycanlılara artıq hüsn-təvəccöh göstərirlər. Bizim nümayəndələr İstanbulda ikən İtaliya nümayəndələri ticarət müqavilənamələri bağlamaq istəmişlərdir. Nümayəndələrimiz böylə bir müahidə bağlamağa səlahiyyətləri olmadığını bildirərək, onlara Bakıya getmələrini tövsiyə eyləmişlərdir. Bu günlərdə mühəndis Simens İtaliya tüccar heyəti ilə Bakıya varid olaraq Azərbaycan Hökuməti ilə ticarət müqaviləsi əqd edəcəkdirlər.

## İSTİQLAL BAYRAMI

**Məşixətin teleqrafları**

Məşixət İdarəsi [Şeyxülislamlıq İdarəsi] qazılara böylə bir teleqraf göndərmişdir:

Keçən May ayının 28-də Azərbaycan istiqlalının elanı münasibətilə şükranəlik babından həman günü bayram etmək və bu barədə Haqtaala dərgahından hökumətimizin daimi olmağını istida [xahiş] qılmaq ümum əhli-islama fərz və vacib olduğuna görə, cənabınıza müqərrər olur [bildirilir] ki, kənd və şəhər ruhanilərinə və başqa üləmaya işbu May ayının 28-ci gününü əzəmətli və möhtərəm saxlamaq üçün əmr verəsiniz. Məsacidi [məscidləri] hər nə qədər mümkün isə fərş edib [döşəyib], xaricini və daxilini müzəyyən qılasınız [bəzəyəsiniz] və məscidlər üstə çırağan edəsiniz. Camaat kamali-təntənə ilə məsacidə cəm olub o günün şərəfinə nitq demək, məktəb uşaqlarını azad etmək dəxi lazımdır. Və bu barədə artıq səy və hümmət etmək cənabınıza tövsiyə olunur.

*Azərbaycan Məşixəti-İslamiyyə İdarəsi naminə*
*şeyxülislam: Axund Ağa Ağaəlizadə*

## İSTİQLAL BAYRAMI

Keçən il təzə qayda ilə May ayının 28-də Tiflisdə Azərbaycan Cümhuriyyəti və istiqlaliyyəti elan ilə, simsiz teleqraf vasitəsilə ümum cahana bildirilmişdi. Bu il may ayının 28-də istiqlaliyyət elanının birinci səneyi-dövriyyəsi münasibətilə Məclisi-Məbusan və hökumət tərəfindən həman günün təntənəli bir surətdə olaraq ümumi bayram və şənlik edilməsi təhti-qərara alınıb və bayram günü tərtib etmək üçün xüsusi bir komissiya təşkil edilmişdir.

Srağagün Məclisi-Müəssisan binasında axşam saat 5 radələrində Məclisi-Məbusan Ləvazim heyəti müdiri Mehdi bəy Hacıbababəyovun təhtisədarətində [başçılığı altında] olaraq məzkur [adı çəkilən] komissiyanın iclası vaqe olmuş və bayram üçün zeyldəki [aşağıdakı] məramnamə tərtib edilmişdir:

Mayın 28-də ümum hökumət və camaat müəssisələri, dükan, bazar və Bələdiyyə İdarəsi tətil və xidmətçilərini bu gün azad edəcəklərdir. Bələdiyyə İdarəsi və onun şöbələri şəhər bağını, bulvarı və şəhərin bir çox yerlərini bəzəyib və çıraqban edəcəkdir. Dənizin içərisində və şəhərin hündür bir yerində elektrik işığı ilə böyük bir "İstiqlal" kəlməsi göstəriləcəkdir. Ümum məktəblər və mədrəsələr tətil edəcək, mütəallimlər [şagirdlər] isə musiqi dəstələri ilə nəğmə oxuyaraq şəhərin küçələrini gəzəcəklərdir. Şeyxülislam və müftü həzrətləri tərəfindən Azərbaycan Cümhuriyyəti qazılarına teleqraflar çəkilib, hər bir şəhər və kəndlərdə camaatı məscidlərə cəm edib ayini-dua icra etmək əmr edilmişdir. Şəhər məscidlərində hər məhəllə ruhanisi öz məhəlləsi əhalisini məscidə cəm edib ayini-dua icra etməklə bərabər, xütbələr, moizələr və nitqlər irad olunacaqdır. Şəhərin bütün evləri milli Azərbaycan bayraqları və xalılarla bəzənib, axşam çıraqban olunacaqdır. Bundan əlavə, şəhər məscidlərində 5000 nəfər fəqirə ehsan veriləcəkdir. Həman gün qəzetələr yaşıl və qırmızı haşiyələrlə çap edilib çıxacaqlardır. Gündüz saat 11 radələrində Məclisi-Məbusanın fövqəladə və təntənəli iclası və saat 1 radələrində Hürriyyət meydanında Azərbaycan qoşunlarının rəsmi-keçidi vaqe olaraq, 21 ədəd şadyanalıq topları atılacaqdır.

Rəsmi-keçiddə ümumi hökumət və camaat müəssisələri ilə qeyri dövlət [başqa dövlətlərin] siyasi nümayəndələri hazır olacaqlardır. Rəsmi-keçidi Hərbiyyə naziri və Rəisi-vükəla [Baş nazir] qəbul edəcəklərdir. Axşam saat 6-da klubun zalında məclisi-ziyafət tərtib edilib qonaqlara çay və şirniyyat təqdim ediləcəkdir. Hacıbəyov Qardaşları Müdiriyyəti tərəfindən müxtəlif mütəhərrik əkslərlə [hərəkətli şəkillərlə] tarixi dəstələr tərtib və təşkil edilərək, küçələrdə böyük tamaşalar və təntənəli nümayişat yapılacaqdır. Qız qalası üzərində elektrik işığı ilə böyük bir tarixi şəkil və yazılar göstəriləcəkdir.

Kəndlərdən tərəkəmə köçləri gəlib, küçələri gəzərək şəhərdən keçib gedəcəkdir. Axşam şəhərin küçələrində səyyar elektrik əksləri göstərilərək təntənəli surətdə gəzişlər olacaqdır. Axşam şəhərin hər tərəfi rəngarəng işıqlarla çıraqban və müzəyyən ediləcəkdir [bəzənəcəkdir]. Məscidlərin həyətləri və özləri milli bayraqlar və xalılar ilə bəzənib, axşam isə rəngarəng işıqlarla çıraqban olunacaqdır. Ümum dəstələr Parlaman qarşısına gəlib orada məşhur natiqlər tərəfindən istiqlaliyyət haqqında müfəssəl və mühüm nitqlər irad olunacaqdır.

Məramnaməyə bir çox şeylər dəxi əlavə olunacaqdır ki, bu barədə gələcək nömrəmizdə təfsil məlumat verəcəyiz.

## BAKI XƏBƏRLƏRİ

**Bakı müsəlmanlarına**

Bu axır günlərdə Nəcəfi-əşrəfdə müctəhidi-məşhur məlcaülənam [xalqın pənahı] Ağa Seyid Kazım Yəzdi cənablarının rəhməti-ilahiyyəyə vüsul ilə tərkidari-fəna buyurduqları [fanilik evini tərk edərək Allahın rəhmətinə qovuşması] xəbəri-dəhşət-əsəri məsmumuz olub [dəhşət verici xəbəri qulağımıza çatıb], bu xəbər bütün əhli-islamın yə's və kədərini mövcib olduğu kimi [matəm və kədərinə bais olduğu kimi], üləmaya [ruhani alimlərinə] dəxi artıq dərəcə təsir etdiyindən, həmin may ayının 21-i olan çaharşənbə [çərşənbə] günü İçərişəhər cameyi-şərifində və Hacı Qasım bəy məscidində tərhim [yas] məclisi tərtib edilməyinə qərar verilmişdir.

Müctəhidi-mərhumun mərtəbeyi-diniyyə və elmiyyəsinə və sadati-səniyyədən [böyük seyidlərdən] olmaq şanına ehtiramən, ümum əhli-islamın yövmi-məzkurda [deyilən gündə] ticarət və sair işlərini tətil etmək[l]ə, məzkur məscidlərdə təziyə məclisinə iştirak etmələri rica olunur.

*Məşixət sədri şeyxülislam: Ağaəlizadə*

**Hökumət İdarəsinin xüsusi şöbəsi**

Hökumət Şurası tərəfindən edilən binagüzarlığa [sərəncama] görə, Hökumət İdarəsinin xüsusi bir şöbəsi açılıb və "Metropol" mehmanxanasında dəftərxana açmışdır. Məzkur [deyilən] şöbənin fəaliyyəti hökumət və Məclisi-Məbusan tərəfindən sadir olan [verilən] qərardadları və qəbul edilən qanun layihələri və həmçinin hökumətin əmrləri və hökmlərini intişar etməkdən [yaymaqdan] ibarət olacaqdır. Bundan əlavə, hökumətin naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan həftəlik bir məcmuə təb [çap] etdiriləcəkdir. Şöbənin rəisliyində sabiq Rusiya müsəlmanlarının Hərbi Şurası müavini-sədri dava vəkili Osman Tokumbet dəvət edilmişdir.

Şöbə srağagündən etibarən kəndi vəzifələrini ifaya şüru etmişdir [başlamışdır].

**Məhbusların qaçması**

Bakı Mərkəzi Həbsxanasında saxlanan Ağabala Almaz oğlu və Mirələkbər Miribrahim oğlu adlı məhbuslar həbsxanadan müstəntiq idarəsinə apardıqda yolda fərar etmişlərdir. Onları axtarmaqdan ötrü ciddi tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Bəxşiş ətası**

Bakı qalabəyisi [komendantı] qubernatora müraciətən rica etmişdir ki, axır vaxtlar öz xidmətlərində böyük ciddiyyət və fəaliyyət göstərmiş olan məmurlara bəxşiş verilməkdən ötrü 50 000 manat təxsis edilsin [ayrılsın].

**Balaxana-Sabunçu dairəsində**

Balaxana-Sabunçu qalabəyisi [komendantı] Bakı qubernatoruna məlum etmişdir ki, fevral, mart və aprel aylarında məzkur [deyilən] dairənin polis idarələrində 200 min manata qədər məxaric olmuşdur.

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşı-sında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğu-na mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müa-licə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi M. B. Şternin**

Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə. Süni dişlər qayırır. Qızıl ənglər və damaqlar qayırır. Dişləri ağrısız çəkir.

*8757*

Doktor **M.M.Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Elan**

Ticarət və Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, bu günə qədər xarici məmləkətə köhnə dəmir aparmaqdan ötrü verilmiş icazələr bir ay etibarlıdırlar. Həmin elan edilməmişdən əvvəl icazə almış olanların icazələri isə bir həftə etibarlıdırlar.

Ticarət, Sənaət və Ərzaq naziri müavini (imza)

*T-118*

**Maliyyə Nəzarəti elan edir ki:**

Bu son zamanlarda anlaşıldığına görə, güclü bir surətdə sərhəd xaricinə bir çox gizli mallar, xüsusilə özümüzün birinci dərəcədə ehtiyacı olan yük, ərzaq aparılır. Buna binaən [buna görə], Nəzarət kəndisinə tərəttüb edən [üzərinə düşən] vəzifənin ifası üçün pişəzvəqt [qabaqcadan] əhalini xəbərdar edir ki, Cümhuriyyət xaricinə aparılan gizli mallar tutulduğu kimi tamamilə hökumət hesabına həcz [müsadirə] ediləcəkdir. Göndərən və aparan əşxas [şəxslər] isə qanunun (1910-da müntəşir Məcəlleyi-Qanunun 6-cı hissəsi) 1054[-cü] maddələri ilə təhti-məsuliyyətə [məsuliyyət altına] alınacaqdır.

*T-175*

**Elan**

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, Nəzarət tərəfindən Hidayət Səlimova 20 fevralda verilmiş 996 nömrəli kontrolluq şəhadətnaməsi ondan alınıb və bu gündən onun kontrolluq vəzifəsini ifa etməyə ixtiyarı yoxdur.

Ticarət, Sənaət, Ərzaq naziri müavini (imza)

*T-129*

**Elan**

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, Nəzarətdə qerbovı markalar əvəzində balaca kağızlar üzərində Nəzarətin möhürü olan kağızlar qanuni olmadığından, ərizələr həmin kağızlarla qəbul edilməyib sərəncamsız buraxılacaqdır. Ərizələrə qerbovı marka yapışdırılmalıdır.

*Müavini-nazir: (imza)*
*Əslinə mütabiqdir: (imza)*
*19 mayıs 1919*
*T-130*

Ticarət, Sənaət və Ərzaq Nəzarəti bununla elan edir ki, Azərbaycandan keçən mal sahibləri üç günün müddətində xarici məmləkətlərdən mallarının gəlmələrinə dair Bakı gömrükxanasından şəhadətnamələrini aldıqdan sonra Nəzarətə mallarının göndərilmələrinə dair icazə almaqdan ötrü müraciət etməlidirlər. Hərgah təyin olunmuş vaxtın müddətində mal sahibləri mallarının göndərilməsi üçün icazə vəsiqəsi almaq təşəbbüsatında bulunmazlarsa, onlarda olan malın vəsiqəsi batil hesab olunur.

*Müavini-nazir: (imza)*
*Əslinə mütabiqdir: (imza)*
*T-131*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Məşixəti-İslamiyyə tərəfindən müsəlmanlara əxzi-əsgərə dair moizədir***

"Təbük müharibəsi": Bizans ordusu ilə savaşmaq üçün 630-cu ildə müsəlmanların 30 min nəfərlik ordu ilə indiki Səudiyyə Ərəbistanının şimal-qərbində yerləşən Təbük şəhərinə səfəri nəzərdə tutulur.

***Teleqraf xəbərləri***

"Deryuqin": qəzetdə təhrif edilmişdir.
"Keller": qəzetdə təhrif edilmişdir.

***Nəzarətlərdə***

"gerbovı marka": rəsmi sənədlərə yapışdırılan və xüsusi vergi ödənişini göstərən marka.

***İstanbuldan son xəbərlər***

"sultan həzrətlərini": Osmanlı imperiyasının sonuncu sultanı VI Məhməd Vəhidəddin nəzərdə tutulur.

"ticarət müqaviləsi əqd edəcəkdirlər": qəzetdə "ticarəti müqaviləsi əqd edəcəkdirlər" getmişdir.

***Bakı xəbərləri***

"Ağabala Almaz oğlu": qəzetdə səhvən "Ağabala Olmaz oğlu" getmişdir.

***Ticarət, Sənaət və Ərzaq Nəzarəti...***

"T-131": qəzetdə "T-31" getmişdir.



# Mədəniyyət



● Mənəvi dünyamız



# Birdəqiqəlik sükut

**İçində ömrümüzün anlarını, dəqiqələrini gilə-gilə əritdiyimiz, ruhumuza dinclik və rahatlıq hopduran sükut nədir? Bu sükut, bu sakitlik, bu səssizlik özündə nəyi birləşdirir, nəyi ayırır, nəyi ifadə edir? Bizə nə verir, nəyi qazandırır, bizlərdən nəyi alır? Ürəyimizdən, qəlbimizdən, könlümüzdən nəyi qoparıb aparır?**

Bəs aralığa sükut çökəndə səs-küy hara çəkilir, harada özünə yer tapır? Əlbəttə, sükut, hər şeydən əvvəl, səssizliyə qapılmaqdır, onunla baş-başa qalmaqdır, qarşısında səcdə edib ona tabe olmaqdır. Əslində, sükut insanlardan müəyyən zaman kəsiyində danışmamağı, susmağı və səssizliyi dinləməyi istəyir. Biz danışmağa başlayan kimi sükut pozulur, səssizliyin ipi qırılır. Sükut səssizlikdən yaranmış, səssizlikdən doğulmuş və sakitliyə bürünmüş anlardır. Sakitliyin içində yaşadığımız anlarda ruhumuza, qəlbimizə, ürəyimizə rahatlıq və dinclik çökür. Buna görə də həyatımızın bəzi anlarında sükuta bürünmüş sakitliyə can atırıq. Sükutla, səssizliklə, təklikdə, yalqızlıqda qalmaq istəyirik.

Bəzən düşdüyümüz vəziyyətdən asılı olaraq sükut və səssizlik ən yaxın dostumuza, sirdaşımıza çevrilir. Səssizliklə təklikdə qalanda içimizdə onunla asta-asta danışırıq da, pıçıldaşırıq da, söhbətləşirik də, hələ dərd-sərimizi cümlə-cümlə bölüşürük də. Həmin anlarda ömrümüzün dəqiqələri sanki lal sular kimi hiss olunmadan sakit-sakit keçmişə doğru axıb gedir. Sükut yalnız və yalnız səssizliyi sevir, səs-küyü yaxınına belə buraxmır, ondan uzaq qaçır. Çünki səs oyanan kimi sükutun ömrü sona çatır. Amma sükut əbədi də deyil, nə qədər cəlbedici, xoşagələn olsa da, onun ömrünün uzun olmasını da istəmirik.

### Əbədiyyətə qovuşanların xatirəsinə ehtiram

Sükutun elə anları var ki, o anda sakitcə ayağa qalxır, lal-dinməz dayanırıq. Dayanmalıyıq da! Bu, daha çox tədbir və mərasimlərdə elan edilən birdəqiqəlik sükut anında baş verir. Həmin an dünyadan köçmüş yaxınlarımızın, doğmalarımızın, torpaqlarımızın azadlığı uğrunda şirin canlarından keçmiş, xalqımıza Zəfər sevinci yaşatmış şəhidlərimizin əziz xatirələrinin birdəqiqəlik sükutla yad edilməsidir. Düşüncəyə qapıldığımız bu birdəqiqəlik sükut ölənlərin xatirəsinə dirilərin ehtiram və hörmətinin ifadəsidir.

Bəzən birdəqiqəlik sükut bizə bir saat, bir gün, bir il, bir əsr kimi gəlir. Bir dəqiqənin içində bütün keçmiş və gələcək həyatımız ardıcıllıqla sıralanıb gözlərimiz önündən keçir.

Bəs bu, birdəqiqəlik sükut ilk dəfə harada, nə vaxt yaranıb, ilk dövrlərdə nəyi ifadə edib? Yəqin ki, oxucuda maraq doğuran suallardır? Bəzi mənbələrdə göstərilir ki, kvakerlər 300 ildən çoxdur ki, yığıncaqlarında birdəqiqəlik sükut da daxil olmaqla, səssizliyin qoynuna çəkilib dua edirlər. Kvakerlər, "Dindar Dostlar Cəmiyyəti"nə aid olan, xristianlığın protestant məzhəbinə aid insanlar idi. Onlar bir-birilərinə "Dostlar" deyə müraciət edirdilər. Lap əvvəllər isə başqaları onlara "Kvaker"lər (titrəyənlər) deyirdilər. Çünki bu hərəkatın banisi Corc Foks bir vaxtlar söhbət zamanı hakimə "Allahın hakimiyyəti qarşısında titrəməli olduğu"nu söyləmişdi.

### Müxtəlif ölkələrdə birdəqiqəlik sükuta fərqli münasibət

Çox da uzaq olmayan tarixdə insan vəfatına həsr olunmuş ilk rəsmi sükut 13 fevral 1912-ci ildə Portuqaliyada qeydə alınıb. Bu ölkənin Senatı 10 dəqiqəlik sükutu üç gün əvvəl - fevralın 10-da dünyasını dəyişmiş Rio-Brankonun baronu, Braziliyanın xarici işlər naziri Joze Mariya da Silva Paranyosanın xatirəsinə həsr olunacağını elan etmişdir.

Bəzi məlumatlara görə, Rusiya məkanında bu akt ilk dəfə Birinci Dünya müharibəsində həlak olanların xatirəsini yad etmək məqsədilə keçirilib. 1918-ci ilin noyabrında həlak olanlar 1919-cu ilin həmin ayında sükut dəqiqələri ilə ehtiramla xatırlanıb. Sükutun zamanının nə üçün bir dəqiqə çəkməsi ilə bağlı məlumat da maraqlıdır. Sən demə, əvvəllər sükuta ayrılan vaxt 5 dəqiqə olub. Sonralar "The Times" qəzetinin əməkdaşı, avstraliyalı jurnalist Edvard Corc Han 5 dəqiqənin böyük zaman ölçüsü olduğunu deyib və sükutun bir dəqiqəyə qədər azaldılmasını təklif edib. Bu dəfə də bir dəqiqə az hesab olunub və sükutun iki dəqiqə olmasına qərar verilib. Amma sonralar sükutun müddəti bir dəqiqəyə endirilib.

Dünyanın müxtəlif ölkələrində birdəqiqəlik sükut aktına müxtəlif yanaşmalar mövcuddur. Kanada və Cənubi Afrikada 11-ci ayın 11-ci günü, saat 11-də Birinci Dünya müharibəsində həlak olanların xatirəsi sükutla yad olunur. MDB-nin bəzi ölkələrində dualar oxunduqdan sonra sükut elan edilir. Bəzən sükut anları ilə eyni vaxtda həmin ölkələrin himni də səsləndirilir. Ona görə də bu mərasimlər təkcə yadetmə kimi deyil, həm də bu ölkələrin müharibə şərəfinin qorunması vasitəsi kimi də dəyərləndirilir.

Avstraliyada 11 noyabrda keçirilən Anım Günündə gənclərin vətənpərvərlik təbliğatına böyük önəm verilir. Ənənəyə görə, həmin gün ali və orta məktəblərdə vurulan zəngin səsi daha ucadan eşidilməlidir. Anım Günü müxtəlif şəhərlərdə müharibə zamanı həlak olanların abidələri də ziyarət olunur.

Anım Günü Kanadanın bir sıra əyalətlərində ictimai mərasim kimi qeyd edilir. Bu zaman birdəqiqəlik sükutla yanaşı, ölənlərin ruhuna dualar oxunur, maşın və gəmilərin siqnal və fitləri səslənir. Bu mərasimlərdə dövlət rəsmiləri də iştirak edirlər.

Böyük Britaniyada keçirilən anım mərasimlərində Kral Qvardiyası da iştirak edir. İtaliyada isə Birinci Dünya müharibəsində həlak olanların xatirəsi noyabrın 4-də yad edilir. Hollandiyada Anım Günü mayın 4 və 5-də keçirilir. Hindistanda, Şimali İrlandiyada, Fransada, İndoneziyada, Keniyada, Yeni Zelandiyada da Anım günləri keçirilir.

Ölkəmizdə isə Anım Günü ildə iki dəfə keçirilir. Hər il yanvar ayının 20-də saat 12:00-da 20 Yanvar faciəsi qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilir. Həmin an avtomobillər hərəkətlərini dayandıraraq səs siqnalı, Xəzərdəki gəmilər isə fit verirlər. Fevral ayının 26-da saat 17:00-da isə erməni qəsbkarlarının 1992-ci ildə Xocalı şəhərində azərbaycanlılara qarşı törətdikləri soyqırımında şəhid olanların xatirəsi birdəqiqəlik sükut və dərin ehtiramla anılır.

Onu da qeyd edək ki, dünyamızda sükut adı ilə bağlı ərazilər də var. Everest zirvəsi, Lhotze yamacının ətəyində yerləşən geniş, bir az düz, bir az da dalğalı buzlaq vadisidir. Everestin yuxarı hissələrini tədqiq edən İngilis İstiqlal Ekspedisiyasının tərkibində olan Corc Mallori vadini 1921-ci ildə gördüyü zaman onu "Sükut dərəsi" adlandırmışdı. Yüksəkliklərin vurğunu olan alpinistlər "Sükut dərəsi" vasitəsilə Everestin zirvəsinə qalxırlar. Sanki arzu və istəklərinə sükut içində, səssizliyin, sakitliyin köməyi ilə çatırlar. Adından da göründüyü bu yerlərdə daim sükut hökmranlıq edir, sakitlik dumanı sürünür. Bura ilk qədəmlərini basan insanlar ərazidə hökm sürən sükutla, səssizliklə baş-başa qalırlar.

### Sükutun saat əqrəbləri arasında eşidilən səsi

Yaxşı xatırlayıram, hərbi hissələrin birində tədbir keçirilirdi. Həmişəki kimi yenə də birdəqiqəlik sükut elan olundu. Bu ritualı yerinə yetirmək üçün hamı ayağa qalxıb sükutla baş-başa qaldı. Birdəqiqəlik sükut anı başlayan kimi mikrofonda saatın əqrəblərinin hərəkətinin, tərpənməsinin səsini eşitdik. Əqrəblərin səsi bir dəqiqənin içində sanki iştirakçılara ürək döyüntüsünü xatırladırdı. Bu ahəngli, ritmik səsdən həm də iştirakçılar vaxtın su kimi necə həzin-həzin axdığını hiss etdi. Sanki bu anlarda insanlar vaxtın, zamanın səsini eşidirdilər.

Özümüzə sual veririk ki, görəsən, bu birdəqiqəlik sukutun icra olunmasının tərbiyəvi əhəmiyyəti nədən ibarətdir? Bu sükut, bu anım onların mənəvi dünyasına necə təsir edir? Tədbir və mərasimlərdə birdəqiqəlik sükutun elan olunmasının insanlara, insanlığa faydası varmı?

Suallarımıza aydınlıq gətirmək üçün müxtəlif peşə adamları ilə həmsöhbət olduq, onların bu məsələ ilə bağlı fikirlərini öyrəndik. Verdiyimiz suallar eyni olsa da, cavablar bir-birinə oxşamadı, fikirlər üstə-üstə düşmədi. Birdəqiqəlik sükut aktının icra olunmasına fərqli yanaşmaları özündə əks etdirən müxtəlif cavablar verildi.

Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, sosiologiya üzrə fəlsəfə doktoru Elnur Əzimli sualımızı cavablandıraraq dedi ki, birdəqiqəlik sükut və ya bir müddət ayaq üstə durub səssizcə gözləmək dünyasını dəyişən qəhrəmanların və önəmli şəxslərin xatirəsinə hörmətin ifadəsidir. Birdəqiqəlik sükutun dinlə heç bir əlaqəsi yoxdur. Bu aktı, əsasən, modern dünyada yaşayan sekulyar insanın məna axtarışı olaraq ifadə edə bilərik. Beləcə, insanlar dünyasını dəyişmiş qəhrəman şəxslərə olan təşəkkürlərini bu şəkildə göstərməyə çalışırlar. Məsələyə dini çərçivədən baxsaq, deyə bilərik ki, dinlər ölən şəxslərin hər zaman yad olunmasını, qəbirlərinin ziyarət olunmasını, ruhlarına dualar oxunmasını tövsiyə edir. Birdəqiqəlik sükutun dinlə əlaqəsi olmasa da, ona qarşı bir hal olmadığını da söyləyə bilərik. Çünki önəmli şəxslər və böyüklər üçün hörmət əlaməti olaraq ayağa qalxmaqda heç bir günah yoxdur. Bu davranışı Hz.Peyğəmbərin (s.a.v) həyatında bəzən böyüklər, gələn qonaqlar, ailə üzvləri və cənazə üçün hörmət əlaməti olaraq ayağa qalxması və bu davranışı tövsiyə etməsi ilə açıqlaya bilərik. Dinin qadağan etdiyi xüsus, bir şəxsi ucaltmaq, ona təzim etmək niyyəti ilə yanında ayaq üstə gözləməkdir.

Elnur Əzimlinin fikrincə, məsələyə ictimai tərəfdən baxsaq, deyə bilərik ki, birdəqiqəlik sükut cəmiyyətin bütün fərdlərini, qısa müddət üçün də olsa, birləşdirib eyni hərəkəti etməyə sövq edən bir aktdır. Bu xüsusda insanlar cəmiyyətin ən çox ehtiyac duyduğu, həmrəylik hissini inkişaf etdirə bilər. İdeologiyasından, dini düşüncəsindən asılı olmayaraq, cəmiyyətin fərdlərinin eyni bir hərəkətdə ortaq birləşməsi, öz qəhrəmanlarını yad etməsi, cəmiyyət üçün ictimai baxımdan əhəmiyyətli və faydalı bir hal olduğunu qeyd edə bilərik.

"Azərbaycan" jurnalının məsul katibi, yazıçı-rejissor Vüsal Nuru bu mövzuda fikirlərini bizimlə bölüşərək dedi ki, birdəqiqəlik sükut saygı duruşudur. Müharibələrdə itirilmiş, həlak olmuş insanların xatirəsinə hörmət və ehtiramın ən bariz əlamətidir. Mənəvi tərəfi isə itkini anlamaq, yoxluğu duymaq, faciə qurbanlarıyla empatiya qurmaqdır. Faciənin ağırlığını anlamaq və duymaq üçün verilən vaxt bir fürsətdir. Bir dəqiqədə dil sussa da, beyin daha sürətlə işləməyə, araşdırmağa, düşünməyə, dərk eləməyə başlayır. Əslində, bir dəqiqə heç də qısa vaxt deyil, dəqiqəni dolduran hər saniyədə dünyada milyonlarla müxtəlif şəkilli hadisələr baş verir. Yəni bu birdəqiqəlik sükut insan olaraq özünü dərk eləməyə kifayətdir.

### İnsan mənəviyyatını təmizləyən, paklaşdıran birdəqiqəlik sükut

İslam dinində sükutdan, əsasən, insanların nəfsinin tərbiyəsindəki faydalarından ətraflı söz açılır, dəyərli fikirlər səsləndirilir. Adlı-sanlı islam alimləri söyləyirlər ki, özünütərbiyə yollarından biri də sükut etməkdir. Ən gözəl fikirlərin sükutdan doğulduğunu da gərək unutmayaq. İnsan yalnız zəruri olan hallarda danışsa, daha yaxşı və hörmətli olar. Ondan nə soruşulursa, nə tələb olunursa, o haqda danışmalıdır.

Hansısa tədbir zamanı birdəqiqəlik sükut elan olunan anlarda insanların sifətindəki kədəri görməmək, sezməmək mümkün deyil. İstər-istəməz anım zamanında mərasimdə iştirak edənlərin çöhrəsindəki sevinc ərşə çəkilir, üzlərə, gözlərə duman kimi qəmgin ifadə çökür. Bəzən birdəqiqəlik sükutun hökm sürdüyü anlarda doluxsunanları da görürük, hıçqırtı səslərini də eşidirik. Deməli, belə sükut anlarında doğmalarımız və əzizlərimiz yada düşüb xatırlanır.

Ömrümüz boyu müxtəlif tədbirlərdə ayaq üstə dayanaraq, nəfəsimizi, səsimizi içimizə çəkib birdəqiqəlik sükuta dalırıq. Görəsən, bu birdəqiqəlik sükutları üst-üstə toplasaq, nə qədər edər? Bir həftə, iki ay, bir il. Kim bilir, bəlkə də daha çox, daha az. Susub başımızı sinəmizə endirdiyimiz həmin bir dəqiqələri ömrümüzün sükut və ehtiram anları kimi də qəbul etmək olar.

Söylənilən fikirlərdən, verilən rəylərdən aydın görünən və duyulan odur ki, birdəqiqəlik sükut ətrafında müxtəlif fikirlər səslənsə də, bütövlükdə çoxluq bu ənənəni məqbul hesab edir. Özündə kədərli anları birləşdirən bu ritualın davam etməsini dəstəkləyir. Bu da təbiidir, çünki sükut dəqiqəsində insanlar ətrafdakı bütün səs-küydən, qayğılardan ayrılaraq dünyanı, həyatı daha dərindən dərk edirlər.

Birdəqiqəlik sükut anında sanki insanlar mənəvi cəhətdən təmizlənir, paklanır, müdrikləşir, kamilləşirlər. Ovqatımıza ovqat qatan bütün bu mənəvi keyfiyyətlər isə insanın, insanlığın adını, şərəfini daha yüksəkliklərə, ilahi ucalıqlara qaldırır. Hamını və hər kəsi mehribanlığa, həmrəyliyə və birliyə səsləyir. Bu əbədi-əzəli bir yol, heç vaxt unudulmayacaq bir ənənədir. Necə deyərlər, bizdən əvvəl bu yolla gediblər, indi də biz gedirik, gələcəkdə də gediləcəkdir...

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Musiqi xadimlərimiz

# Böyük hörmət və ehtiramla xatırlanan ustad sənətkar

**Mansurovlar soyadı xalqımıza yaxşı tanışdır. Bu nəslin yetirmələri zaman-zaman bacarıq və istedadları ilə musiqi mədəniyyətimizi daha da zənginləşdirmiş, xalqımıza və dövlətimizə layiqli xidmət göstərmişlər. İçərişəhərin köklü nəsillərindən olan Mansurovlar bu gün də musiqi mədəniyyətimizin ocağını gur yandırır.**



Bakı xanları dövründə Mansurovlar həmişə rəhbər vəzifələrdə çalışmışlar. Həmin dövrlərdə onların mülkləri, xeyli sayda mal-qaraları, neft quyuları, gəmiləri, dükanları, meyvə və zəfəran bağları olmuşdur. Şöhrəti hər yerə yayılmış səmimi, ürəyi açıq, qəlbi geniş Ağa Hacı Mansur bəyin xatirəsinə hörmət əlaməti olaraq övladları onun adını soyadlarında əbədiləşdirmişlər. Beləcə, Mansurbəyovlar soyadı yaranmışdır. Sonrakı illər dövranın dəyişməsi ilə əlaqədar "bəy" sözü soyaddan çıxarılaraq Mansurov kimi yazılmışdır.

Bu məşhur nəslin nümayəndələri arasında xeyirxahlığı, xalqa gərəkliyi ilə seçilən Ağa Salah bəy də olub. O, öz puluna İçərişəhərdəki artıq ömrünü başa vurmaqda olan evləri alaraq, söküb yerində meydanlar salırmış, faytonların rahat hərəkət etməsi üçün küçələri genişləndirirmiş. Belə xeyirxah əməlinə görə şəhər rəhbərliyi Ağa Salah bəyi "Bakı şəhərinin fəxri nəsilli vətəndaşı" adına layiq görüb. Xalq isə İçərişəhərdəki meydanların birinə onun adını verib.

12 fevral 1911-ci ildə Mansurovlar ailəsində bir oğlan uşağı dünyaya göz açdı. Körpənin adını Bəhram qoydular. Onun atası Süleyman bəy nəslinin sayılıb-seçilənlərindən biri idi. İlk təhsilini mədrəsədə alan Süleyman bəy sonra rus-tatar məktəbində oxuyub, bir çox Şərq və Avropa dillərini öyrənib. Dövrünün qabaqcıl ziyalısı olan Süleyman bəy fars, ərəb, türk dilləri ilə yanaşı, rus, fransız, alman, ingilis və bir az da italyan dilində danışmağı bacarırmış. Süleyman bəy həm də musiqi vurğunu imiş. O, atasının başlatdığı Bakı muğam məclislərini davam etdirirmiş. Həm də icarədar və sahibkar olan Süleyman bəy Qara Şəhərdəki torpaq sahələrini boru kəmərlərinin çəkilməsi üçün yerli və xarici neft şirkətlərinə icarəyə verirmiş.

Süleyman bəyin kiçik qardaşı Mirzə Mansur bəy Azərbaycan muğamlarının mükəmməl bilicisi idi. O, peşəkar tarzən kimi Sadıqcan məktəbinin ənənələrini uğurla davam etdirmişdir. Azərbaycan musiqisinin banisi Üzeyir bəy Hacıbəyli onun ifaçılıq istedadına çox yüksək dəyər vermişdi. Mirzə Mansur tar alətində rekonstruksiyalar da etmişdir. Onun rekonstruksiya etdiyi 4 tardan biri hazırda Ermitajda, biri Luvrda, biri də İstanbuldakı muzeylərdə qorunur. Sonuncusu isə onun şəxsi tarı idi.

Mansurovlar ailəsində 12 fevral 1911-ci ildə dünyaya göz açmış tarzən Bəhram Mansurov böyüyüb yaşa dolduqca nəslinin musiqi ənənələrini layiqincə davam etdirdi. Gələcəyin böyük sənətkarı olacaq balaca Bəhram tar çalmağı atası və əmisi Mansur Mansurovdan öyrənmişdi. 19 yaşına çatanda Müslüm Maqomayev onu Xalq Çalğı Alətləri Orkestrinə, sonra isə Opera və Balet Teatrına solist-tarzən kimi dəvət edir. O, 1929-cu ildən Azərbaycan Dövlət Şərq, sonralar Azərbaycan Televiziya və Radiosunun Xalq Çalğı Alətləri orkestrlərində fəaliyyət göstərir. Çox keçmir ki, Azərbaycan Dövlət Filarmoniyasının solisti olur. Görkəmli tarzən Bəhram Mansurov zaman-zaman Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Hüseynqulu Sarabski, Həqiqət Rzayeva, Zülfi Adıgözəlov və digər görkəmli xanəndələri müşayiət edir.

Böyük ustad tarın bədii-texniki vasitələrindən məharətlə istifadə edib, mizrabi-dəstikari - tarın qrifində sol əllə çalmaq üsulunun nadir ifaçılarından olub. O, Sadıqcan, Mirzə Mansur, Məşədi Süleymanın tar ifaçılığının davamçısı olaraq bir çox texniki üsulları, mürəkkəb çalğı texnikasını yaşadıb və uğurla davam etdirib. Tarzən ailəsində dünyaya gəlməsi Bəhram Mansurovun sənətkar kimi püxtələşməsində əvəzsiz rol oynayıb. Mahir tarzən olan atası Məşədi Süleyman oğlunun tara meylini görüb deyərdi: "Sən tarı çalmağı tez öyrənəcəksən. Muğam sənin qanındadır". Çox keçmədi ki, Bəhram Mansurov bacarığı və istedadı ilə ona bəslənən ümidləri doğrultdu.

Görkəmli tarzən Bəhram Mansurov uzun illər Dövlət Opera və Balet Teatrında çalışıb. Adları musiqi tariximizə böyük hərflərlə yazılmış xanəndələri müşayiət edib. Bəhram Mansurov 1941-ci ildən müəllim kimi Azərbaycan Dövlət Musiqi Məktəbində fəaliyyətə başlayıb. Gənc tarzənlərin ustad kimi yetişməsində böyük əməyi olub. UNESCO kimi böyük beynəlxalq təşkilat müxtəlif illərdə görkəmli tarzən Bəhram Mansurovun ifasında 10 muğamı - "Rast", "Mahur-hindi", "Bayatı-İsfahan", "Çahargah", "Hümayun", "Bayatı-Şiraz", "Bayatı-kürd", "Çoban bayatı", "Şüştər" və "Nəva-Nişa-pur"u qrammafon valına yazdırıb. Sonralar bu təşkilat böyük sənətkarın ustalıqla ifa etdiyi Azərbaycan muğamlarını val, kaset, SD şəklində bütün dünyaya yayıb. "Musiqi atlası" silsiləsindən olan bu albomu məşhur Hollandiya firması "Filips" kütləvi tirajla istehsal edərək Azərbaycan musiqisini dünyaya tanıdıb. Hazırda həmin muğamlar müxtəlif ölkələrin radiostansiyalarında səslənməkdə və dinləyicilərin zövqünü oxşamaqdadır.

1967-ci ildən başlayaraq, UNESCO-nun qərarı ilə Qərbi Berlində, Parisdə, Bağdadda, Karakasda, Brnoda çağırılmış "Birləşmiş millətlər günü", "Xalqlar birliyi", "Dünya islam festivalı" və digər beynəlxalq musiqi həftələrinə, musiqi simpoziumu və konqreslərinə B.Mansurov da dəvət edilmişdir. 1978-ci ildə Şərq xalqlarının Səmərqənddə keçirilmiş beynəlxalq muğam simpoziumunda Bəhram Mansurov böyük uğur qazanmışdır. Bu, təkcə onun deyil, Azərbaycan musiqisinin uğuru idi.

1971-ci ildə tanınmış Azərbaycan musiqiçisi, tarzən Bəhram Mansurova həsr olunmuş "Çalır Bəhram Mansurov" sənədli televiziya filmi çəkilib. Film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. 1978-ci ildə isə görkəmli tarzən musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərinə görə Xalq artisti fəxri adına layiq görülüb. İstedadı, tarda ifa etdiyi muğam və mahnıları ilə xalqımızın yaddaşında dərin iz salmış böyük sənətkar 1985-ci il mayın 14-də - ömrünün 75-ci ilində dünyasını dəyişib.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2011-ci ildə Bəhram Mansurovun anadan olmasının 100 illiyi böyük təntənə ilə qeyd edilib. Heydər Əliyev Fondu tərəfindən buraxılan "Mansurovlar" kitabı Bəhram Mansurovun anadan olmasının 100 illiyinə ithaf olunur. Sənətkarın oğlu, tanınmış və sevilən bəstəkar Eldar Mansurov atasının 100 illiyinə həsr etdiyi bu kitabda nəslin keçdiyi şərəf dolu 300 illik yolunu ətraflı şəkildə qələmə alıb.

Dünyaşöhrətli bəstəkar Fikrət Əmirov görkəmli tarzən Bəhram Mansurov sənətindən söz açarkən demişdir: "O, muğamların ən gözəl ustadlarından biri sayılır. Azərbaycanda demək olar ki, heç kəs özünü Azərbaycan muğamları ilə bu qədər üzvi vəhdətdə bilmir. O, zəngin musiqi folklorumuzu olduqca dərindən, ən kiçik detallarına qədər bilir. Haqlı olaraq onu tarda müasir tipli üslubda çalmağın atası sayılan görkəmli Sadıqcanın ləyaqətli ardıcılı hesab edirlər".

Görkəmli tarzən Bəhram Mansurov bir zamanlar özünün yaradıcılığı haqqında bunları demişdir: "Mənim tarzən kimi tanınmağıma xalq musiqimizin və muğam operalarımızın təsiri çox böyük olub. Mən fəxr edirəm ki, böyük bəstəkarımız Ü.Hacıbəylinin həmişəcavan "Leyli və Məcnun" operasını 50 ilə yaxındır ki, öz tarımda müşayiət edirəm".

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Milli Xalça Muzeyində "Zamanın ilmələri" layihəsi təqdim olunacaq




**Mayın 26-da Azərbaycan Milli Xalça Muzeyində "Zamanın ilmələri" adlı layihənin təqdimatı keçiriləcək.**

Muzeydən bildirilib ki, 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan tədbirdə Xalq rəssamı, görkəmli qrafika ustası, professor Arif Hüseynovun yeni layihə çərçivəsində yaratdığı əsərlərdən ibarət sərgi açılacaq.

Burada sənətkarın 2024-2025-ci illərdə çəkdiyi, mövzu baxımından biri digərini ardıcıl şəkildə tamamlayan, xalçanın yaranma mərhələlərini əks etdirən əsərləri nümayiş olunacaq. Arif Hüseynovun xalça sənətinə, milli adət-ənənələrə sevgisini, bağlılığını tərənnüm edən, maraqlı süjet xəttinə malik 20-dən artıq silsilə rəsm əsəri kətan üzərində qarışıq texnikada çəkilib.

Sərgidə yer alan əsərlər süni intellektin köməyi ilə canlandırılaraq süjet xəttinə uyğun hazırlanmış videoçarx vasitəsilə də təqdim olunacaq.

Eyni zamanda xalçanın hazırlanması ilə bağlı bütün mərhələləri uşaqlar üçün yaddaqalan etmək və onların milli irsimizə marağını artırmaq məqsədilə muzeyin Uşaq şöbəsi tərəfindən yeni ustad dərsi keçiriləcək. İlk dəfə təşkil olunan "Xalça necə yaranır?" ustad dərsində uşaqlar qoyunun qırxılması, yunun daranması, əyrilməsi, xalçanın toxunması kimi proseslərin şahidi və iştirakçısı olacaqlar.

# İlahiyyat İnstitutu Anlaşma Memorandumu imzalayıb

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyənin Doqquz Eylül Universiteti arasında Anlaşma Memorandumu imzalanıb.**

Anlaşma Memorandumunda balanslaşdırılmış iştiraka yönəlmiş tələbə mübadiləsi proqramları, təhsil və tədqiqat əməkdaşlığını inkişaf etdirmək üçün akademik heyət mübadiləsi, dərs materialları, elmi nəşrlər və digər tədris resurslarının paylaşılması, birgə tədqiqat layihələrinin araşdırılması, tədris və tədqiqat metodologiyalarının inkişafı, bilik və təcrübə mübadiləsi üçün akademik tədbirlərin təşkili nəzərdə tutulub.



Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunun qarşısına qoyduğu məqsədlərdən biri də ali təhsil müəssisəsinin beynəlxalq miqyasda tanınmasına, eyni zamanda dünya təcrübəsindən istifadə edərək yüksəkixtisaslı kadrlar hazırlanmasına nail olmaqdır. Bu istiqamətdə - institut ilahiyyat sahəsində tanınmış dünya universitetləri ilə əlaqələr yaradır, ikitərəfli əməkdaşlığa dair memorandumlar və müqavilələr imzalayır. Hazırda əməkdaşlıq müqavilələri çərçivəsində Aİİ-nin tələbələri xarici ölkə universitetlərində ilahiyyat sahəsi üzrə təhsillərini davam etdirirlər.

*"Azərbaycan"*

# ÜST pandemiyalarla mübarizə üzrə tarixi saziş qəbul edib

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) pandemiya hallarında fəaliyyət haqqında saziş qəbul edib. Sənəd COVID-19 pandemiyası fonunda başlayan üçillik danışıqlardan sonra razılaşdırılıb. Nəticədə sazişi 124 ölkə dəstəkləyib. Daha 11 ölkə səsvermədə tərəfsiz qalıb.**



Razılaşma Ümumdünya Səhiyyə Assambleyasının Cenevrədə keçirilən 78-ci sessiyası zamanı təsdiq edilib. Sənəd pandemiyaların qarşısının alınması, onlara hazırlıq və cavab tədbirləri ilə bağlı bərabərsizlikləri aradan qaldırmağa yönəlib və xüsusən dərmanların, peyvəndlərin və tibbi ləvazimatların hazırlanmasına aiddir. ÜST-nin saytında verilən açıqlamaya görə, sazişin bir məqsədi də ölkələr, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti, özəl sektor və digər maraqlı tərəflər arasında əməkdaşlığı gücləndirməkdir.

ÜST-nin Baş direktoru Tedros Adhanom Gebreyesus bildirib ki, "bununla dünyanın hər yerində hökumətlər ədaləti təşviq edəcək, sağlamlığı inkişaf etdirəcək, habelə ölkələrini və qlobal ictimaiyyəti pandemiya potensialı olan patogenlər və virusların yaratdığı təhlükələrdən qoruyacaq" .

Təşkilatın üzvü olan 194 ölkənin üçdə ikisi bu qərara səs verməli idi. Amma səsvermə zamanı saziş layihəsinin əleyhinə səs verən ölkə olmayıb. Yalnız Rusiya, İran, İsrail, Polşa, İtaliya və Slovakiya da daxil olmaqla 11 ölkə tərəfsiz qalıb. Bununla belə, "Röyter" agentliyinin qeyd etdiyi kimi, sazişin qüvvəyə minməsi iki ilə qədər çəkə bilər. Ölkələr əvvəlcə patogenlərin mübadiləsinə dair razılığa gəlməli, bundan sonra sazişi ratifikasiya etməlidir.

Müqavilə layihəsinə əsasən, ölkələr pandemiya potensialı olan patogenlərinə çıxışı təmin etmək və peyvəndləri, testləri və müalicələri paylaşmaq üçün sistem (PABS) yaratmağı öhdələrinə götürürlər. ÜST-nin məlumatında deyilir ki, əczaçılıq istehsalçıları arasından olan PABS iştirakçıları pandemiya ilə mübarizə üçün tibbi ləvazimatlara çıxışın təmin edilməsində əsas rol oynayacaqlar. Onların hər biri ÜST-ü patogenə qarşı istehsal etdikləri vaksinlərin, dərmanların və diaqnostikanın 20 faizi ilə təmin edəcək. Bu resurslar öz növbəsində ictimai sağlamlıq üçün təhlükə səviyyəsindən və ictimai səhiyyə sistemlərinin ehtiyaclarından asılı olaraq ölkələr arasında bölüşdürüləcək.

Gələcəyə baxan Gebreyesus müqavilənin uzunmüddətli əhəmiyyətini vurğulayıb: "Bu sazişin əhəmiyyəti bizim cari problemlərimizin çərçivəsindən kənara çıxır. Bu, gələcək nəsillər - uşaqlarımız və nəvələrimiz üçün çox vacibdir. Pandemiyalara hazırlıq və cavab tədbirləri üçün güclü zəmin yaratmaqla biz onlara daha təhlükəsiz və sağlam dünyanın miras qalmasını təmin edirik".

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Ermənistan ordusunda həyəcan təbili çalınır

## "Vətəndaşlıqdan çıxmağı çətinləşdirmək lazımdır"

**Postmüharibə dövründə erməni ordusunda yaşanan xaos getdikcə daha geniş vüsət almaqdadır. Hər halda müharibədən sonra baş verənlər bunu sübut edir. Orduda baş alıb gedən qanunsuzluqlar səbəbindən son vaxtlar hərbi qulluqçular arasında nizamnamədən kənar münasibətlər zəminində cinayət hallarının sayı artmaqdadır.**

Ekspertlər qeyd edirlər ki, bu gün Ermənistanın siyasi həyatında yaşanan gərginlik orduya da sirayət edir. Bu fonda ordunun döyüş qabiliyyəti, demək olar ki, bərbad haldadır. Əsgərlərin təminatı olduqca aşağı səviyyədədir. "Dedovşina", əsgərlərin alçaldılması və digər başıpozuq davranışlar adi hal alıb. Bunu ölkənin müdafiə naziri Suren Papikyan da etiraf edib. O deyib ki, ölkənin silahlı qüvvələrində əsas problem intihar, intihar həddinə çatdırma və qətllərdir.

O, həmçinin hərbi qulluqçuların ölümünə səbəb olan xəstəlikləri, qəzaları da diqqətə çəkib. Bildirib ki, ordu cəmiyyətin güzgüsüdür və bu sahədə intihar halları orada mövcud problemləri əks etdirir: "Amma gizlədə bilmərik ki, orduda ardıcıl iş aparılsa da, Silahlı Qüvvələrdə hələ də "dedovşina" davam edir və bizim vəzifəmiz onu azaltmaq, 2025-ci ildə sıfıra endirməkdir".



Ermənistan ordusunda xəstəlik və səfalətin durmadan genişləndiyi bir vaxtda hərbi qulluqçuları müalicə etmək üçün nə maddi vəsait, nə də yer çatışır. Bu isə xəstəlikdən ölən erməni əsgərlərinin sayının durmadan artmasına səbəb olur.

Yaranan belə acınacaqlı vəziyyətlərdən qorxuya düşən valideynlər indi müxtəlif üsullarla övladlarını hərbi xidmətdən yayındırmağa çalışırlar. Ən geniş yayılmış üsul isə erməni gənclərinin hərbi çağırış yaşına çatmağa az qalmış xarici ölkələrdən birinə, əsasən də Rusiyaya göndərilməsidir. Bu da Ermənistan ordusunun insan resursu baxımından ciddi problemlər yaşamasına təkan verib.



Ermənistanın "HayaKve" assosiasiyasının koordinatoru, erməni ictimai xadim Avetik Çalabyan deyib ki, xidmətdən yayınan 18 yaşlı gənclər deyil, onların valideynləridir, ona görə də problem valideynlərin şüurundadır.

Çalabyanın sözlərinə görə, hakim fraksiyadan olan deputatın bəzi təklifləri onun üçün məqbuldur, xüsusən də hərbi xidmətə çağırış yaşının 37-yə qaldırılması təklifini dəyərləndirir: "Mən hesab edirəm ki, vətəndaşlıqdan çıxmaq üçün təklif edilən 15 milyon dram rüsum əsaslıdır. Öz vətəndaşlarımızla elə davrana bilməzsiniz ki, bu gün qəbul edib, sabah ondan imtina edəsiniz. Mən hesab edirəm ki, vətəndaşlıqdan çıxmaq prosedurunu çətinləşdirmək düzgün addımdır".

Çalabyan bildirb ki, Ermənistan təhlükədədir: "20 milyon drama (52 min ABŞ dolları) ordudan qurtulmaqdansa, daha çox saya sahib olmalıyıq. Vətəndaşlıqdan çıxmağı çətinləşdirmək lazımdır".

Göründüyü kimi, İkinci Qarabağ müharibəsində ağır itkilərlə üzləşmiş Ermənistan ordusu hələ də normal fəaliyyətini bərpa edə bilməyib. Son 4 ildə fərarilik edən, qeyri-döyüş şəraitində ölən hərbçilərin də sayı artıb.

*Elçin CƏFƏROV, "Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan taxta materiallarının satın alınması məqsədilə

***açıq tender elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 29 may 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# Yaş artsa da...

## Önəmli olan insanın ruhunun gözəlliyidir

**İnsan ömrü doğumla başlayır və zamanla bir çox mərhələdən keçərək davam edir. Yaşlanmaq da bunlardan biridir. Bunu açıq deməsək, bəzən fərqinə varmasaq da istisnasız olaraq hamı qocalmaqdan qorxur. Yaşın artması yalnız fiziki dəyişiklik demək deyil, eyni zamanda insana zəngin təcrübə, həyat bilgisi verir və müdriklik bəxş edir.**



Yaşlanmaq bioloji baxımdan qaçılmaz, lakin psixoloji və sosial cəhətdən idarə oluna bilən bir prosesdir. Qocalmaqdan qorxmaq əvəzinə, onu anlayışla, müdrikliklə və minnətdarlıqla qarşılamaq, onun sadəcə bir mərhələdən digərinə keçid olduğunu dərk etmək daha faydalıdır. Aktiv həyat tərzi, davamlı öyrənmə və sosial əlaqələrin qorunması yaşlanmanın mənfi təsirlərini azaldaraq daha uzun və keyfiyyətli ömür təmin edə bilər.

Yaşlanmaq qorxusu, əsasən, bir neçə səbəblə əlaqədardır. Bunun ilki sağlamlıqla bağlı narahatlıqlardır. İnsanlar yaşlandıqca sağlamlıq problemlərinin artacağından ehtiyat edirlər. Digər səbəb isə tənhalıq qorxusudur. Yaşlandıqca sosial çevrənin daralması və yaxınların itirilməsi insanları narahat edə bilər. Cəmiyyətdəki stereotiplər də önəmli faktordur. Belə ki, bəzən yaşlılıq fəaliyyətsizliklə eyniləşdirilir.

Bədəndəki dəyişikliklər, gücün azalması və bəzi imkanların məhdudlaşması insanı psixoloji baxımdan çətinliyə sala bilər. Mütəxəssislər bildirirlər ki, bu qorxular çox zaman real vəziyyətdən daha çox zehni çərçivələrlə bağlıdır. Bəs yaşlanma necə qəbul edilməlidir? İlk olaraq reallığı inkar etmək əvəzinə, bu dəyişiklikləri təbii bir proses kimi qəbul etmək və buna uyğun yaşamaq lazımdır. Bu, insanın daxili rahatlığını artırır. Özümüzə qarşı dürüst olmaq və bədənimizin bizə nə demək istədiyini dinləmək çox vacibdir. Yaşlandıqca görünüşümüz, enerjimiz və imkanlarımız dəyişə bilər. Ancaq özümüzə qarşı mərhəmətli və anlayışlı olmaq, hər yaşın öz gözəlliyini görmək həyat keyfiyyətini yüksəldə bilər. Keçmişə yox, bu günə və gələcəyə fokuslanmaq daxili gücü artırır.

Yaş artdıqca insanın həyatdan gözləntiləri dəyişir. Bu dövrdə daha çox mənəvi dəyərlərə, ailəyə, dostluğa və daxili sakitliyə önəm verilir. Gənclik enerjisindən çox, təcrübə, müdriklik və sabitlik ön plana çıxır. Bu isə yaşlılıq dövrünü zənginləşdirir.

Sağlam həyat tərzi, düzgün qidalanma, idmanla məşğul olmaq, gəzinti, yeni hobbilər tapmaq, könüllü işlərdə iştirak etmək insanı həyatla daha möhkəm bağlayır, yaşlanma prosesini fiziki və emosional baxımdan ləngidir. Yaxınlarla münasibətləri qorumaq, sosial mühitdən təcrid olunmamaq psixoloji baxımdan olduqca mühümdür.

Mütəmadi fiziki fəaliyyət yaşlılıq dövründə əzələ kütləsinin və sümük sıxlığının qorunmasına kömək edir, ürək-damar xəstəliklərinin qarşısını alır, şəkər və təzyiq kimi xroniki xəstəliklərdən uzaqlaşdırır. Gündə 30 dəqiqə gəzinti, həftədə 2-3 dəfə yüngül gimnastika və ya yoqa, əzələ gücləndirici məşqlər etmək sağlamlıq üçün vacibdir.

Zehni sağlamlıq da fiziki sağlamlıq qədər vacibdir. Yaddaş, diqqət və öyrənmə qabiliyyəti zamanla zəifləyə bilər, lakin kitab oxumaq, dil öyrənmək, krossvord və məntiq tapmacaları həll etmək kimi beyin məşqləri bu prosesi ləngidir. Altsheymer və demensiya kimi xəstəliklərin qarşısının alınmasında da zehni aktivliyin rolu sübut olunub.

Yaş artdıqca orqanizmin qida ehtiyacları dəyişir. Daha az kalori, amma daha çox vitamin, lif və zülal ehtiyacı yaranır. Antioksidantlarla zəngin tərəvəz və meyvələrin, keyfiyyətli zülal mənbəyi olan balıq və toyuq ətinin, sümük sağlamlığı üçün süd məhsullarının gündəlik rasiona daxil edilməsi vacibdir. Xüsusilə işlənməmiş qidaların istehlakı tövsiyə edilir. Çünki qida nə qədər çox işlənmişdirsə, bağırsaqlar tərəfindən bir o qədər tez sovrulur və qana bir o qədər tez qarışır. Yaşlandıqca susuzluq hissi azalır, odur ki, gündəlik 1.5-2 litr su içilməlidir.

Əslində, sağlam yaşlanmaq üçün tək bir formul yoxdur. Bu, fiziki, zehni, emosional və sosial baxımdan balanslı bir həyat tərzi qurmaqla mümkündür. Həyatı hər mərhələsində sevmək və dəyərləndirmək lazımdır. Unutmamalıyıq ki, yaş, sadəcə, bir rəqəmdir, önəmli olan ruhun yaşı, gözəlliyidir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Tərtər rayonundan Həmid Mehdiyev və Tofiq Hüseynov Tofiq Həsənova atası

**ELDAR MÜƏLLİMİN**

Göyçay rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov və universitetin professor-müəllim heyəti Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətova

**QARDAŞININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3569
Sifariş 1026

Qiyməti 60 qəpik